Xalqın qəzeti!
# Xalq qəzeti
№ 48 (31017) 14 mart 2026-cı il, şənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Ədalət sülh yolu ilə mümkün olmayanda gücdən istifadə zəruridir




*Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən, 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququ çərçivəsində həyata keçirdik.*

*Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq.*

## Cənubi Qafqazın dinc gələcəyinin Azərbaycan qarantı

**Dünyanın müxtəlif ölkələrindən siyasətçiləri, ekspertləri və ictimai xadimləri bir araya gətirən XIII Qlobal Bakı Forumu beynəlxalq miqyaslı müzakirələr üçün mühüm platformalardan biridir. Forumda səsləndirilən fikirlər yalnız regional deyil, həm də qlobal siyasi mühitə ünvanlanır. Prezident İlham Əliyevin tədbirin açılış mərasimindəki çıxışı da məhz bu amili əsas tuturdu.**

Dövlətimizin başçısı Azərbaycanın müasir tarixinin mühüm məqamlarına, qarşılaşdığı çətinliklərə və əldə etdiyi nəticələrə diqqət çəkdi. Habelə, ölkəmizin keçdiyi mürəkkəb tarixi yolun, siyasi iradəsinin və sülh strategiyasının mahiyyətini əks etdirən mühüm mesajlar verdi. İlk mesaj isə milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi ilə bağlıdır. Prezident İlham Əliyev bu mesajı Azərbaycanın düşdüyü çətinliklərə sinə gərmək əzmindən söz açarkən səsləndirdi. Dövlətimizin başçısı çıxışında, həmçinin ölkəmizi işğala güc, sülhə diplomatik yollarla nail olan məmləkət kimi xarakterizə etdi, vurğunu Azərbaycanın uzun illər davam edən münaqişə şəraitində belə inkişafını davam etdirməsi və strateji hədəflərindən geri çəkilməməsi üzərinə qoyuldu. Amma məsələ təkcə bu deyil.

*(ardı 3-cü səhifədə)*

## Azərbaycan paytaxtında çoxtərəfli yanaşma axtarışı




Səhifə ⇨ 4

## Türk Dövlətləri Təşkilatının fəlakətlər zamanı yardım mexanizmi



Səhifə ⇨ 5

## Asiya nəhənginin siyasi planlaşdırması və strateji tərəfdaşlıq



Səhifə ⇨ 8

## Xidmət bazarının halallıq tərəzisi



Səhifə ⇨ 10

## Dövlət təhlükəsizliyi şəbəkəsinin etibarlı sipəri

Səhifə ⇨ 10

## Milli Məclisdə Nazirlər Kabinetinin illik hesabatı dinlənildi



Səhifə ⇨ 2

## Çoxqütblü dünya sisteminə keçid



Səhifə ⇨ 3

## Timor-Leste Prezidentinin Azərbaycana səfəri başa çatıb



**Timor-Leste Demokratik Respublikasının Prezidenti Jose Ramos-Hortanın Azərbaycana səfəri martın 13-də başa çatıb.**

Heydər Əliyev Beynəlxalq Aeroportunda Timor-Leste Prezidentini Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola saldılar.

## Hərbi caninin növbəti siyasi oyunu



Səhifə ⇨ 4

## Qlobal Bakı Forumunda Orta Dəhliz müzakirəsi




Səhifə ⇨ 7

## Yaxın Şərq böhranı dünyaya ağrı yaşadır



Səhifə ⇨ 11

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 374-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 374-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 212-1.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 374-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 588 nömrəli, 28 yanvar tarixli 593 nömrəli və 11 fevral tarixli 598 nömrəli fərmanları) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.1-ci bəndə “212.4,” rəqəmlərindən sonra “212-1.1 (həmçinin metropolitendə stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda, eləcə də taksi minik avtomobillərində elektron siqaretlərin istifadəsinə münasibətdə),” sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 5.7-2-ci bənd əlavə edilsin:

“5.7-2. həmin Məcəllənin 212-1.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitəsində elektron siqaretlərin istifadəsinə münasibətdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi baxır;”;

2.3. 5.26-1-ci bəndə “Məcəllənin” sözündən sonra “212-1.1 (hava nəqliyyatında elektron siqaretlərin istifadəsinə münasibətdə),” sözləri əlavə edilsin;

2.4. 5.27-ci bəndə “Məcəllənin” sözündən sonra “212-1.1 (dəmir yolu nəqliyyatında elektron siqaretlərin istifadəsinə münasibətdə),” sözləri əlavə edilsin;

2.5. 5.28-ci bəndə “Məcəllənin” sözündən sonra “212-1.1 (dəniz və çay nəqliyyatında elektron siqaretlərin istifadəsinə münasibətdə),” sözləri əlavə edilsin.

**3** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 8, maddə 746, № 9, maddə 820; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli və 11 fevral tarixli 598 nömrəli fərmanları) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə “212.4,” rəqəmlərindən sonra “212-1.1 (həmçinin metropolitendə stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda, eləcə də taksi minik avtomobillərində elektron siqaretlərin istifadəsinə münasibətdə),” sözləri əlavə edilsin;

3.2. 2.2-ci və 2.4-cü bəndlərə “211,” rəqəmlərindən sonra “212-1.1 (taksi minik avtomobillərində elektron siqaretlərin istifadəsinə münasibətdə),” sözləri əlavə edilsin;

3.3. 2.5-ci bəndə “212.4,” rəqəmlərindən sonra “212-1.1 (həmçinin metropolitendə stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda elektron siqaretlərin istifadəsinə münasibətdə),” sözləri əlavə edilsin;

3.4. 2.9-cu bəndə “212.4,” rəqəmlərindən sonra “212-1.1,” rəqəmləri əlavə edilsin.

**4** Bu Fərmanın 2-ci və 3-cü hissələri 2026-cı il aprelin 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 mart 2026-cı il**

## Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş “AYNA” informasiya sistemi haqqında Əsasnamə”də və 2025-ci il 12 avqust tarixli 472 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Valyuta tənzimi haqqında”, “Kommersiya sirri haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Banklar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında”, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 175-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1466 (Cild I); 2024, № 8, maddə 937; 2025, № 11, maddə 1024, № 12 (I kitab), maddə 1154) ilə təsdiq edilmiş “AYNA” informasiya sistemi haqqında Əsasnamə”nin 5.2.3-cü yarımbəndinə “payları” sözündən sonra “, habelə benefisiar mülkiyyətçiləri” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 472 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 8, maddə 757; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 9 yanvar tarixli 575 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə”nin 4.1.3-cü və 4.3.10-cu yarımbəndlərinə “payları” sözündən sonra “, habelə benefisiar mülkiyyətçiləri” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 mart 2026-cı il**

# Milli Məclisdə Nazirlər Kabinetinin illik hesabatı dinlənildi

## *Böyük Qayıdışa dair II Dövlət Proqramının layihəsi Prezident İlham Əliyevə təqdim olunub*



**Martın 13-də Milli Məclisin növbəti plenar iclasında Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabat dinlənildi.**

Milli Məclisin sədri Sahibə Qafarova çıxışında bildirdi ki, 2025-ci il Azərbaycan tarixinə “Konstitusiya və Suverenlik İli” kimi daxil olub və ölkənin siyasi-hüquqi inkişafında yeni mərhələ kimi yadda qalıb. Onun sözlərinə görə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan həm daxili inkişaf, həm də beynəlxalq münasibətlər sistemində mövqelərini gücləndirib. Spiker, həmçinin ötən ili Azərbaycanın xarici siyasəti üçün kifayət qədər uğurlu hesab etdiyini vurğuladı.

Sədrin sözlərinə görə, 2025-ci ildə ölkənin strateji valyuta ehtiyatları təxminən 20 faiz artaraq 85 milyard ABŞ dollarını ötüb. İqtisadi artımın əsas hissəsi qeyri-neft sektorunun payına düşüb və investisiyaların təxminən 75 faizi bu sahəyə yönəldilib.

Sonra Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin ötən ilki fəaliyyəti haqqında hesabatını səsləndirdi. Baş nazir parlamentdə təqdim etdiyi hesabatda 2025-ci ildə sosial müdafiə, iqtisadi sabitlik və dövlət proqramlarının icrası istiqamətində əldə olunan nəticələrdən danışdı. Hesabatda Böyük Qayıdış proqramının davam etdirilməsi, regionlarda sosial infrastruktur layihələrinin icrası və dövlət büdcəsinin uğurla tamamlanması xüsusi vurğulandı. Ə.Əsədov ötən il ərzində ümumilikdə 529 min nəfərə sosial müavinət verildiyi, 406,6 min nəfərin Prezident təqaüdü ilə təmin olunduğunu, imtiyazlı şəxslərə 400 mənzilin təqdin edildiyini deputatların diqqətinə çatdırdı.

Baş nazir, eyni zamanda, uşaqların sosial müdafiəsi, təhsil və elmin inkişafı ilə bağlı göstəriciləri açıqladı. Hesabata əsasən, 2025-ci ildə 149 uşaq övladlığa verilib, 176 uşaq isə reinteqrasiya tədbirləri nəticəsində ailələrinə qaytarılıb. Məktəbəqədər təhsilə cəlb olunan 1–5 yaşlı uşaqların payı 38,7 faizə çatıb. Elmi müəssisələrdə 230 milyon manatdan çox dəyərdə tədqiqat işi aparılıb, 12,8 min elmi məqalə və tezis dərc edilib.

Hesabatda müdafiə və təhlükəsizlik sahəsi də diqqət mərkəzində oldu. 2025-ci ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri 8,1 milyard manata çatdırılıb ki, bu da əvvəlki illə müqayisədə 23 faiz çoxdur. Ə.Əsədov, həmçinin Böyük Qayıdış prosesinin davam etdirildiyini, 2027–2030-cu illəri əhatə edəcək yeni sosial-iqtisadi inkişaf strategiyası və Böyük Qayıdışa dair II Dövlət Proqramının layihələrinin hazırlanaraq ölkə başçısına təqdim olunduğunu açıqladı.

Hesabat dinlənildikdən sonra müzakirələr aparıldı. Deputat Vüqar Bayramov paytaxtda dövlət ehtiyacları üçün daşınmaz əmlaka kompensasiyaların ödənilməsində diferensial yanaşmanın tətbiqinin məqsədəuyğun olacağını bildirdi. O vurğuladı ki, bəzi həyət evlərinin sahələri 20-30 kvadratmetrdən az olduğundan sabit ödənişlər az sahəli ev sahibləri üçün yetərli olmur. V.Bayramov qeyd etdi ki, diferensial kompensasiya tətbiq olunarsa, sahəsi kiçik olan mənzillərin sahiblərinə ev almaq üçün kifayət qədər məbləğ ödənilə bilər ki, bu da onların mənzil probleminin həllinə dəstək olar.

MM-in komitə sədri Fazil Mustafa hesabatın müzakirəsi zamanı təmsil etdiyi Sabunçu rayonunun Bakıxanov qəsəbəsində zirzəmisi su ilə dolu binalarla bağlı heç bir tədbir görülmədiyini bildirdi: “Avtomobil yolunun üzərində əməlli-başlı bir müştərək Balaxanı–Zabrat gölü yaranır. Drenaj yox, nə yağırsa yolun üstünə toplanır və Allahın günəşi gəlib qurutmayınca günlərlə insanlar palçığa bulaşmış şəkilərdə yürüyürlər”.

Fazil Mustafa həmçinin Neft Şirkətinə məxsus ərazilərin böyük hissəsinin Sabunçu rayonunda yerləşdiyini, həmin ərazilərdə qanunsuz ev və obyektlərin tikildiyini, neft çıxmayan ərazilərdə qanunsuz tikililərin özəlləşdirilməsi ilə büdcəyə daha çox vəsait cəlb edə biləcəyini bildirdi.

Deputat Vasif Qafarov çıxışında Astara rayonunda 30 ildir istifadəsiz qalan torpaqların dövlətə qaytarılmasını təklif etdi. O qeyd etdi ki, 1996-cı ildə həyata keçirilən aqrar islahat zamanı Astara rayonunun Pensər, Siyaku, Kakalos və Suparibağ ərazi inzibati dairələri üzrə 412 hektar ərazi 4954 ailə arasında bölüşdürülüb: “Hər bir ailəyə 1-5 sot, bəzi hallarda 10 sota qədər torpaq sahəsi düşüb. Ən problemli məsələlərdən biri odur ki, bu torpaqlar belə kəsilib verilib ki, istifadəsi faktiki olaraq mümkün deyil. 30 ildir ki, bu torpaqlar istifadəsiz qalıb. Onların dövlət tərəfindən kompensasiya ödənilməklə torpaq sahiblərindən alınaraq dövlət mülkiyyətinə qaytarılması və sahibkarlara icarəyə verilməsi ilə əkin dövriyyəsinə qaytarılması mümkündür”.

O həmçinin Lerik və Astara rayonlarının böyük turizm potensialına malik olduğunu vurğulayarq, meşə fondu ərazilərində yeni sahibkarlıq subyektlərinin fəaliyyətinə lisenziyaların verilməsinin dayandırılmasının bölgədə turizm obyektlərinin açılmasına mane olduğunu qeyd etdi: “Təmsil etdiyim Lerik rayonunda mövcud olan 3 Ailə Sağlamlıq Mərkəzi, 39 tibb məntəqəsi və 22 həkim məntəqəsindən cəmi 2-si yeni tikilən binalardır. Digərləri, demək olar ki, istismar müddətləri başa çatmış və qəzalı vəziyyətdədir. Astara rayonunun Kakalos kənd tibb məntəqəsi də eyni vəziyyətdədir. Həmçinin, Lerik rayonunda nəinki idman kompleksi, ümumiyyətlə, hansısa bir idman mərkəzinin olmaması və Lerik şəhər stadionunun istifadəyə yararsız olması vətəndaşlar tərəfindən mütəmadi olaraq qaldırılan məsələlərdəndir”.

Parlament sədrinin birinci müavini Əli Əhmədov Azərbaycanda əhalinin artım tempində azalmanın müşahidə olunduğunu söylədi. O qeyd etdi ki, 2015-ci ildə 160 mindən çox uşaq doğulmuşdusa, 2025-ci ildə bu göstərici 100 minin altında olub: “2015-ci ildə məktəblərdə 1,5–1,6 milyon uşaq təhsil alırdısa, bir neçə ildən sonra məktəblərdə oxuyanların sayı təxminən 1 milyon olacaq. Bu, 50 minə yaxın müəllim üçün ixtisar riski yaratmaqla yanaşı, uzunmüddətli perspektivdə pensiya yaşında olan əhali ilə işləmə qabiliyyətində olan əhali arasındakı nisbətə ciddi təsir göstərə bilər”.

Birinci vitse-spiker onu da bildirdi ki, 2026-cı ildə və sonrakı illərdə hökumət demoqrafik məsələlərə diqqəti daha da artıracaq və strateji tədbirlər bu sahədə həyata keçiriləcək.

Bunununla da Milli Məclisin növbəti plenar iclası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

# Əli Əsədov Türkiyə naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 13-də Türkiyə Respublikasının ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum ilə görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, görüş zamanı 13-cü Qlobal Bakı Forumunun əhəmiyyəti vurğulanıb, tədbir çərçivəsində COP-a və iqlim gündəliyinə həsr olunmuş panel müzakirələrinin təşkil edilməsi təqdir edilib.

Azərbaycan ilə Türkiyə arasında ətraf mühitin mühafizəsi, tullantıların idarə edilməsi, iqlim dəyişiklikləri ilə mübarizə sahələrində əməkdaşlıq məsələləri müzakirə olunub.

Eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 2026-cı ildə Bakı şəhərində keçiriləcək 13-cü Sessiyasının (WUF13) önəmi qeyd edilib.

***XQ***

# Ceyhun Bayramov Türkiyəyə növbəti raket hücumunu qınayıb

**Martın 13-də Azərbaycanın Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı aparılıb.**




Telefon danışığı zamanı regionda mövcud təhlükəsizlik vəziyyəti və artan gərginlik müzakirə edilib.

Nazir Ceyhun Bayramov bu gün Türkiyə Respublikasının ərazisinə növbəti raket hücumunu qınayıb, qardaş Türkiyəyə dəstəyini ifadə edib. Hərbi eskalasiyanın daha da genişlənməsinin arzuolunmaz nəticələrə gətirib çıxara biləcəyi vurğulanıb.

# BMT Proqramının icraçı direktoru XİN-də

**Martın 13-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qlobal Bakı Forumunda iştirak məqsədilə ölkəmizdə səfərdə olan BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudiya Rossbax ilə görüşüb.**

Görüş zamanı Azərbaycan ilə UN-Habitat arasında əməkdaşlıq məsələləri, dayanıqlı şəhərsalma, urbanizasiya proseslərinin idarə olunması, həmçinin şəhərlərin dayanıqlı inkişafı sahəsində tərəfdaşlığın perspektivləri müzakirə olunub. Tərəflər qarşıdan gələn Ümumdünya Şəhərsalma Forumuna (WUF-13) hazırlıq işləri, bu çərçivədə planlar ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərinin, dağıdılmış şəhər və kəndlərin yenidən qurulmasının, müasir şəhərsalma prinsiplərinə əsaslanan yaşayış məntəqələrinin yaradılmasının ölkəmizin urbanizasiya sahəsində gördüyü işlərin əhəmiyyətli nümunəsi olduğu vurğulanıb.

Nazir Ceyhun Bayramov bölgəmizdə mövcud vəziyyət, Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi barədə də qarşı tərəfi məlumatlandırıb.

***XQ***

# Cənubi Qafqazın dinc gələcəyinin Azərbaycan qarantı




**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əlyevin üzərində dayandığı vacib məqamlardan biri də tarixi yaddaş və kollektiv təcrübə kazusuna söykənir. O yaddaş ki, onu əhatə edən hadisə və proseslərin unudulması yolverilməzdir. Çünki həmin hadisə və proseslər özündə keçmişin acı yaşantılarını canlandırır. Nəzərə alaq ki, azərbaycanlıların etnik təmizlənməyə məruz qalmalarının özü ayrıca tarixdir. Deməli, Azərbaycan cəmiyyətinin kollektiv travmasını və məcburi köçkünlük aqibətini xatırlatmaq, bu barədə beynəlxalq auditoriyanı məlumatlandırmaq şərtdir. Ümumən, onu da deyə bilərik ki, tarixi yaddaşın qorunması və bu təcrübənin qlobal auditoriyaya çatdırılması Azərbaycanın siyasi diplomatiyasında mühüm elementlərdən biridir.

Bəli, xarici aləm xalqımızın və dövlətimizin hansı ağır şərtlərdən keçdiyini görməlidir. Ona görə görməlidir ki, gələcəkdə, yumşaq desək, oxşar xoşagəlməz durumlarla üzləşməyək. Həm də o səbəbdən görməlidir ki, dünyadakı heç bir xalq Azərbaycanın və azərbaycanlıların üzləşdikləri məşəqqətləri yaşamasın. Bu mənada, Prezident İlham Əliyevin fikirləri tarixi legitimlik yüklüdür və mənəvi arqument mahiyyəti daşıyır.

* * *

Dövlətimizin başçısının fikirlərinə siyasi iradə və dövlətin mövqeyindəki prinsipiallıq prizmasından da yanaşıla bilər. Prezident vurğunu bu məqamın üzərinə qoymaqla, siyasi diskursa dövlətçilik və milli iradə narrativini gətirir, dövlətin davamlılığı və müqavimət qabiliyyətliliyi faktorunu önə çəkir. Əlbəttə, milli həmrəylik amilini də həmçinin. Axı məhz güclü milli həmrəylik hissi imkan verib ki, Azərbaycanın və azərbaycanlıların uzunmüddətli mübarizəsi yekunda Zəfərlə tamamlansın. Ayrıca onu da vurğulayaq ki, siyasi ritorika baxımından Prezident İlham Əliyevin yanaşması milli həmrəyliyi gücləndirmək, dövlətin dayanıqlılığını nümayiş etdirmək və beynəlxalq auditoriyaya Azərbaycanın güclü siyasi iradəyə malik aktor olduğunu göstərmək əhəmiyyətinə malikdir.

Prezident İlham Əliyev Azərbaycanın uğur formulunu əsaslandırarkən, faktiki olaraq, müharibə və diplomatiyanın vəhdəti məsələsini qabrdır. Müharibə hərbi faktor seqmentini daşıyır və ölkəmizin öz torpaqlarının işğaldan qurtulmasına yönələn əzminin, diplomatik faktor isə müharibədən sonrakı dövrdəki sülh quruculuğuna əsaslanmış iradəsinin diqqətə çatdırılmasıdır. Beləliklə, dövlətimizin başçısı uğur formulu baxımından iki paralel xəttin vacibliyindən söz açır ki, həmin xətlər mahiyyətcə güc və diplomatiyanın balansı məsələsini aktuallaşdırır.

* * *

Dövlətimizin başçısının fikirləri beynəlxalq auditoriyaya ünvanlanmış mesajlardır. Bu mesajlarda Azərbaycanın mövqeyini legitimləşdirmək, regiondakı proseslər barədə ölkəmizin narrativini təqdim etmək, habelə, dövlətimizi sülh təşəbbüslərinə açıq tərəf kimi göstərmək məqsədi var. Hesab edirik ki, hazırkı dövrdə bütün bunlar son dərəcə vacibdir. Çünki bəzi beynəlxalq dairələrin hələ də Azərbaycanın haqq işini kölgələmək, II Qarabağ müharibəsini, az qala, işğalçılıq müharibəsi kimi göstərmək, habelə, mövcud fonda Qarabağda etnik təmizləmə şousu formalaşdıraraq ermənilərin məzlum obrazını yaratmaq cəhdlərini görürük. O cəhdlər ki, siyasi avantüraya xidmətdən başqa bir şey deyil. Deməli, Prezident İlham Əliyev fikirləri ilə həm də belə yarıtmazlıqlara qarşı beynəlxalq müqavimət formalaşdırır.

Prezident İlham Əliyevin şəxsində Azərbaycanın öz mövqeyini izah etməsi, regionda formalaşan yeni reallıqlar barədə baxışını ortaya qoyması və sülh gündəliyini önə çəkməsi ölkəmizin xarici siyasət strategiyasından qaynaqlanır. Mövcud kontekstdə dövlətimizin başçısının çıxışı həm də rəsmi Bakının münaqişə sonrası mərhələdə regional əməkdaşlıq və təhlükəsizlik arxitekturasının formalaşdırılmasında fəal rol oynamaq niyyətinin nümayişidir. Yəni ölkəmizin lideri fikirləri ilə bu niyyətə də legitimlik qazandırır.

* * *

Sonda ümumiləşdirmə apararaq deyək ki, Prezident İlham Əliyevin XIII Qlobal Bakı Forumunun açılışında səsləndirdiyi fikirlər ölkəmizin münaqişədən sonrakı dövrdə Cənubi Qafqazın gələcək inkişafını sülh, əməkdaşlıq, təhlükəsizlik və iqtisadi inteqrasiya prinsipləri üzərində qurulmuş yeni regional modeldə gördüyünün yüksək səslə bəyan edilməsidir. Milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı, işğal şəraitində yaşamaq təcrübəsinə malik, həmçinin işğalı gücü ilə aradan qaldıran, sülhü diplomatik yollarla əldə edən məmləkət olan Azərbaycan özünün güclü immuniteti ilə bu model üçün ən etibarlı qarantdır. Dövlətimizin başçısının diqqətə çatdırdığı ən mühüm məqam, başlıca mesaj da məhz budur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

## Kəmaləddin Heydərov Qəbələdə vətəndaşlarla görüşüb



**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov martın 13-də Qəbələ şəhərində Fövqəladə Hallar Nazirliyinin Şimal-Qərb Regional Mərkəzinin binasında Qəbələ, Oğuz, İsmayıllı və Ağdaş rayonlarının sakinlərinin müraciətlərini dinləyib.**

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Regional Mərkəzin həyətində ucaldılmış büstü ziyarət edilərək önünə gül dəstəsi qoyulub, əziz xatirəsi dərin ehtiramla yad olunub.

Həmin gün Qəbələ, Oğuz, İsmayıllı və Ağdaş rayonları sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

***XQ***

## “Şəhərsalma və Memarlıq İli”nə “yaşıl” töhfə



**“Şəhərsalma və Memarlıq İli” ilə əlaqədar paytaxtın Suraxanı rayonunda “ECOLEAD” layihəsi çərçivəsində ağacəkmə aksiyası keçirilib.**

Aksiya zamanı Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları, habelə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyinin, Bakı Şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin rəhbər heyəti və əməkdaşlarının iştirakı ilə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 200-dən çox ağac əkilib.

Məlumat üçün qeyd edək ki, 2024-cü ildə Baş Prokurorluğun təşəbbüsü əsasında icrasına başlanılan “ECOLEAD” layihəsi çərçivəsində hazırkı vaxtadək Bakı şəhərinin Suraxanı, Nəsimi, Binəqədi, Yasamal və Xətai rayonları ərazisində ümumilikdə 10 hektar ərazidə 2200-dən çox ağac əkilib.

***XQ***

# Çoxqütblü dünya sisteminə keçid

*Bakıdan uzanan strateji xətt özündə qlobal dialoqu birləşdirir*

**XIII Qlobal Bakı Forumunun ikinci iş günü qlobal idarəetmə sisteminin transformasiyası fonunda mühüm geosiyasi müzakirələrlə yadda qaldı. Strateji xətt hazırda konkret fəaliyyət sahələri üzrə şaxələnir. Paytaxtımız yenidən beynəlxalq münasibətlər sisteminin ən həlledici qərarlarının formalaşdığı mərkəz qismində çıxış edir.**

Gündəlikdə duran əsas məsələlər sırasına Çin və Qlobal İdarəetmə Təşəbbüsü, Orta Dəhlizin Mərkəzi Asiya ilə Cənubi Qafqazı əlaqələndirməsi, habelə, iqlim dəyişikliklərinə qarşı mübarizəni hədəfləyən fəaliyyətlər daxildir. Siyasi proseslər göstərir ki, ənənəvi güc mərkəzləri arasında yaşanan qarşıdurmalar fonunda dövlətlər alternativ tərəfdaşlıq formatları axtarışındadırlar. Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov panel iclası zamanı səsləndirdiyi fikirlərlə mövcud reallığın ən dəqiq mənzərəsini cızdı. Toxunulan məqamlar yalnız iqtisadi göstəricilərlə məhdudlaşmır, həm də genişmiqyaslı geosiyasi arxitekturanın təməl prinsiplərini ehtiva edir. Otuz beş illik gərginlikdən sonra regionda sülh və sabitliyin təmin edilməsi, sərhədlərin açılması istiqamətində atılan addımlar Avrasiya məkanı naminə müstəsna əhəmiyyət kəsb edir. Hazırda davam edən Ermənistan-Azərbaycan danışıqları regional inteqrasiyanın ən mühüm həlledici amilinə çevrilib.

Çinlə hərtərəfli strateji tərəfdaşlıq münasibətlərini xüsusi vurğulaması təsadüfi sayılmamalıdır. Bakı və Pekin arasında qurulan əlaqələr həm ticari, həm də siyasi maraqların tam uzlaşması əsasında inkişaf edir. Şanxay Əməkdaşlıq Təşkilatında qonaq qismində iştirak edən dövlətimiz qlobal səviyyədə irəli sürülən sülh və iqtisadi inkişaf təşəbbüslərini tam şəkildə dəstəkləyir. İnkişaf etməkdə olan cəmiyyətlər üçün beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunması vacib məsələdir. Rəsmi Bakı hüquq normalarının tapdalanmasının fəsadlarını onilliklər ərzində yaşamış dövlət qismində qanunun aliliyini hər zaman müdafiə edir. Qanunsuz hərəkətlərin və işğalçılıq siyasətinin acı nəticələrini təkbaşına aradan qaldıran dövlətimiz dünya ictimaiyyətinə hüquqi məsuliyyətin vacibliyini aşılayır. Çinin qlobal idarəetmədə artan rolu Qərb hegemonluğuna alternativ tarazlıq mexanizmi formalaşdırır.




Digər mühüm müzakirə platforması danışıqlardan kənara çıxaraq, iqlim problemlərinin həllinə həsr edilib. Tədbir daxilində fəaliyyət göstərən növbəti panel iqlim dəyişikliyi kimi qlobal təhdidlərin aradan qaldırılmasını əhatə edir. Təhlükəsizlik, müdafiə və hərbi çağırışlar ölkələri silahlanmaya daha çox vəsait ayırmağa vadar edir. COP29 prezidenti Muxtar Babayevin dəqiq təhlil etdiyi kimi, dövlətlər müharibə və münaqişələrdən qorunma yollarını axtararkən, əhəmiyyətli ekoloji problemlər çox vaxt kənarda qalır. Halbuki iqlim dəyişikliyi artıq danılmaz reallıqdır və bütün bəşəriyyət mövcud böhranla üz-üzədir. Şəraitə uyğunlaşmaqla yanaşı, təcili investisiyalar yatırmaq məcburiyyəti yaranıb. Maliyyələşmə mütləq şərtdir, çünki lazımi vəsait olmadan atılan addımlar və fəaliyyətlər yetərincə səmərəli nəticə verməyəcək. Maliyyə institutlarının ekoloji layihələrə dəstəyi artırması qlobal sabitliyin təməl elementidir. Odur ki, maliyyə axınlarının rasional şəkildə iqlim dəyişikliklərinə uyğunlaşma proqramlarına yönəldilməsi zərurətdir. Ekoloji terrorizmin qarşısının alınması yönündə qlobal əməkdaşlıq mexanizmləri mütləq gücləndirilməlidir.

Forumdakı çıxışlar Türkiyə–Azərbaycan müttəfiqliyinin sarsılmaz xarakterini yenidən nümayiş etdirdi. Türkiyənin Ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri, həmçinin COP31-in sədri Murat Kurum panel iclasdakı çıxışında yaranmış mühitin dəyərini xüsusi qeyd etdi. “İki dövlət, tək millət” fəlsəfəsi sadəcə tarixi şüar mənasından çıxaraq, hər sahədə vahid mövqeli monolit gücə çevrilib. Nazirin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını iştirakçılara xüsusi sevgi ilə çatdırılması qardaşlığın və siyasi vəhdətin səmimi təcəssümüdür. Nazir vurğuladı ki, dünyada əməkdaşlıq dialoqu sahəsində atılan istənilən addım olduqca böyük əhəmiyyət kəsb edir. Ortaq fəaliyyət həm iqlim böhranından çıxış yolları axtarışını sürətləndirməli, həm də qlobal əməkdaşlıq potensialını maksimuma çatdırmalıdır.

Türk Dövlətləri Təşkilatının təsir dairəsi ilbəil genişlənərək əvəzsiz geoiqtisadi qüvvəyə çevrilir. Qurumun Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım iqtisadi göstəricilər əsasında irəli sürdüyü arqumentlərlə tranzit marşrutlarının taleyüklü əhəmiyyətini əsaslandırdı. Analitik rəqəmlər müvafiq strateji addımlar atmaqla illik daşımaların həcmini iyirmi trilyon dollara qədər artırmaq imkanını nümayiş etdirir. Qeyd olunan rəqəm sadəcə statistik göstərici kimi qalmamalı, real siyasətin əsas istiqamətverici hədəfi kimi götürülməlidir. Kontekstdə Orta Dəhlizin əhəmiyyəti tamamilə əvəzsiz xarakter alır. Mövcud ənənəvi dəniz nəqliyyatı vasitəsilə yüklərin Şərqdən Qərbə daşınması 40-50 gün vaxt aparır. Zaman məsrəfi müasir iqtisadiyyatın sürətli ritminə qətiyyən uyğun gəlmir, əksinə inkişafı tormozlayır. Vaxtın qənaəti inflyasiya risklərini azaldır, istehlak bazarlarında qiymət sabitliyini yaradır. Gömrük prosedurlarının sadələşdirilməsi, vahid tarif mexanizminin yaradılması və infrastrukturun modernləşdirilməsi təşkilata üzv ölkələrin qarşısında duran təxirəsalınmaz vəzifələrdir. Asiya bazarlarından Avropaya uzanan yolların kəsişməsində yerləşən paytaxtımız məhz mərkəzi hab funksiyasını inamla idarə edir. Qitələrarası əlaqələrin möhkəmlənməsi türk dövlətlərinin qlobal təchizat zəncirindəki nüfuzunu əhəmiyyətli dərəcədə yüksəldir.

Siyasi təhlükəsizlik iqtisadi müstəqilliklə yanaşı, eyni zamanda, texnoloji üstünlüklərə, davamlı tərəqqiyə möhkəm əsaslanır. Müasir rəqəmsal çağırışlar fonunda bütün infrastrukturun qorunması hökumətlərin tam suverenliyinə bilavasitə təsir edir. Xarici təzyiqlərdən, daxili stabilliyi pozmaq istəyən mənfi xarakterli cərəyanlardan uğurla müdafiə olunan respublikamız hər sahədə müasir standartlara qətiyyətlə keçid edir. Ekoloji strategiya rəhbərliyin humanist xəttini, dərin fəlsəfəsini bütün əcnəbi mütəxəssislərin diqqətinə çatdırır. Beynəlxalq formatlarda səsləndirilən məzmunlu bəyanatlar, xarici işlər və iqtisadiyyat nazirlərinin peşəkar təhlilləri xalqın aydın sabahına hesablanan addımlardır. Təşkilatın daxilində atılan iradəli qərarlar həm ərazilərimizin bərpasını dəstəkləyir, həm də gələcək sənayeləşməyə misilsiz mənfəət verir.

Martın 13-də cərəyan edən əsas diplomatik müzakirələrin mərkəzi hədəfi cəmiyyət üçün aydındır: daimi sülh, rasional geoiqtisadiyyat, iqlim problemlərinin praqmatik həlli və qardaşlıq ittifaqları. Xarici təhrikçi qüvvələr əldə edilən mühüm nailiyyətləri həzm etməkdə çətinlik çəksələr də, obyektiv tarixi həqiqət sarsılmazdır. Regional çərçivələrdən çıxıb qlobal miqyaslı aparıcı mərkəzə çevrilmək qürurverici tarixi zəfərdir. Gələcək nəsillər qurulmuş həmin möhkəm prinsiplər üzərində dayanmadan inkişaf edəcək, daxili qüdrətimizi daha yüksək intellektual pillələrə qaldıracaqlar. Paytaxtımız hər zaman tərəqqi, anlaşma və ədalət ideyalarının məbədi missiyasını fasiləsiz surətdə, şərəflə daşımaqda davam edəcək. Bəşəriyyətin real təhlükəsizliyi məhz göstərilən rasional xətlərlə, gələcəyə mükəmməl hesablanmış xarici siyasət strategiyası ilə zəmanət altına alınacaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Azərbaycan paytaxtında çoxtərəfli yanaşma axtarışı




**Beynəlxalq münasibətlər sistemi son onilliklərdə görünməmiş dərəcədə mürəkkəb və qeyri-müəyyən mərhələyə daxil olub. Qlobal güc balansının dəyişməsi, regional münaqişələrin artması və böyük dövlətlər arasında strateji rəqabətin dərinləşməsi ənənəvi çoxtərəfli institutların effektivliyini ciddi şəkildə sual altına qoyur. Birləşmiş Millətlər Təşkilatı, bəzi beynəlxalq təşkilatlar və klassik diplomatik platformalar tez-tez qərarvermə ləngliyi və siyasi bloklanmalarla üzləşir.**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin XIII Qlobal Bakı Forumunda səsləndirdiyi fikirlər beynəlxalq siyasətdə formalaşmaqda olan yeni tendensiyanın mühüm analitik izahını təqdim edir. Onun çıxışı 3 əsas tezis üzərində qurulan yeni geosiyasi yanaşmanı ortaya qoyur: orta güclərin fəallaşması, təşəbbüskar diplomatiyanın önə çıxması və regional sülh modelinin formalaşması.

### Çoxtərəfli sistemin böhranı və "orta güc" strategiyasının yüksəlişi

"Soyuq müharibə"nin başa çatmasından sonra beynəlxalq münasibətlər sistemində formalaşan optimist təsəvvürlərdən biri belə idi ki, qlobal problemlərin həlli getdikcə daha çox çoxtərəfli institutlar və beynəlxalq təşkilatlar vasitəsilə həyata keçiriləcək. 1990-cı illərdə BMT, ATƏT, Ümumdünya Ticarət Təşkilatı, NATO və Avropa İttifaqı kimi strukturların rolunun artması beynəlxalq sistemin institusional əsaslarla idarə olunacağına dair ümidləri gücləndirmişdi. Lakin XXI əsrin ikinci onilliyindən etibarən bu model ciddi sınaqlarla üzləşməyə başladı. Qlobal siyasətdə böyük güclər arasında strateji rəqabətin yenidən güclənməsi çoxtərəfli institutların effektivliyini əhəmiyyətli dərəcədə zəiflətdi. ABŞ–Çin rəqabəti, Rusiya–Qərb qarşıdurması, regional güclərin fəallaşması və qlobal iqtisadi fragmentasiya beynəlxalq təşkilatların qərarvermə mexanizmlərini tez-tez bloklayan amillərə çevrildi. Beynəlxalq münasibətlər sistemi tədricən postliberal və daha çox rəqabətli çoxqütblü mühitə daxil olur. Belə bir mühitdə qlobal qərarların yalnız böyük güclər tərəfindən müəyyənləşdirilməsi modeli də getdikcə daha az effektiv görünür. Çünki regional problemlərin böyük hissəsi məhz həmin regionlarda yerləşən dövlətlərin təşəbbüsləri ilə daha real şəkildə həll edilə bilir. Məhz bu kontekstdə beynəlxalq münasibətlər nəzəriyyəsində "orta güc diplomatiyası" anlayışı yenidən aktuallaşmağa başlayır. Orta güclərin strategiyasının əsas xüsusiyyəti normativ və institusional təşəbbüskarlıqdır.



Son illər Azərbaycan diplomatiyasının inkişaf trayektoriyası məhz bu strateji yanaşma ilə uyğunluq təşkil edir. Azərbaycanın xarici siyasətində müşahidə olunan mühüm xüsusiyyətlərdən biri təşəbbüskar çoxtərəflilik modelinin formalaşmasıdır. Məsələn, Qlobal Bakı Forumu müxtəlif qitələrdən siyasi liderləri, ekspertləri və beynəlxalq təşkilat nümayəndələrini bir araya gətirən qlobal dialoq platformasına çevrilib. Eyni tendensiya Azərbaycanın Qoşulmama Hərəkatındakı fəaliyyətində də aydın şəkildə müşahidə olunur. Azərbaycanın bu təşkilata sədrliyi dövründə pandemiya dövründə qlobal həmrəylik təşəbbüslərinin irəli sürülməsi, inkişaf etməkdə olan ölkələrin maraqlarının müdafiəsi və çoxtərəfli dialoqun təşviqi ölkənin diplomatik aktivliyinin genişləndiyini nümayiş etdirdi.

Bununla yanaşı, enerji və nəqliyyat diplomatiyası da Azərbaycanın orta güc strategiyasının mühüm elementlərindən biridir. Xəzər hövzəsini Avropa bazarları ilə birləşdirən enerji layihələri, Orta Dəhliz kimi nəqliyyat marşrutları və regional logistika təşəbbüsləri Azərbaycanın geosiyasi rolunu strateji tranzit və əməkdaşlıq qovşağı kimi formalaşdırır. Məhz bu kontekstdə Hikmət Hacıyevin XIII Qlobal Bakı Forumunda səsləndirdiyi fikirlər Azərbaycanın beynəlxalq sistemdə öz rolunu necə gördüyünün konseptual izahı kimi qiymətləndirilə bilər. Onun vurğuladığı kimi, qeyri-müəyyən və çevik olmayan çoxtərəfli institutların fonunda dövlətlərin öz təşəbbüslərini irəli sürməsi artıq qlobal siyasətin yeni reallığına çevrilir.

### Təşəbbüskar diplomatiya və "koalisiya diplomatiyası"

XX əsrin böyük hissəsində dövlətlərarası əməkdaşlıq əsasən institusional çərçivələr və sabit bloklar vasitəsilə həyata keçirilirdi. NATO, Varşava Müqaviləsi, daha sonra isə müxtəlif beynəlxalq təşkilatlar dövlətlərin siyasi davranışını müəyyən edən əsas platformalara çevrilmişdi. Lakin XXI əsrin geosiyasi reallığı göstərir ki, qlobal siyasət getdikcə daha çevik, çoxsəviyyəli və funksional əməkdaşlıq formatlarına əsaslanır. Böyük beynəlxalq təşkilatların qərarvermə mexanizmlərinin ləngliyi və siyasi bloklanmalar dövlətləri alternativ əməkdaşlıq yolları axtarmağa vadar edir. Məhz bu kontekstdə Hikmət Hacıyevin XIII Qlobal Bakı Forumunda səsləndirdiyi fikir – dövlətlərin artıq böyük institutların qərarlarını gözləmək əvəzinə, öz təşəbbüsləri əsasında əməkdaşlıq platformaları yaratması – müasir diplomatiyanın əsas tendensiyalarından birini ifadə edir. Qloballaşma prosesləri iqtisadi, enerji, nəqliyyat və təhlükəsizlik sahələrində qarşılıqlı asılılığı artırdıqca, dövlətlər arasında əməkdaşlıq formaları sektor yönümlü və praqmatik xarakter alır.

Enerji diplomatiyası bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir. Xəzər hövzəsinin enerji resurslarının beynəlxalq bazarlara çıxarılması geosiyasi əməkdaşlıq platforması rolunu oynayır. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən enerji layihələri Avropa, Cənubi Qafqaz və Xəzər regionu arasında strateji qarşılıqlı asılılıq yaradır. Hikmət Hacıyevin çıxışında səsləndirilən təşəbbüskar diplomatiya ideyası müasir beynəlxalq münasibətlər sistemində formalaşan yeni tendensiyanın aydın ifadəsidir.

### Münaqişədən sülh modelinə – Azərbaycanın regional təcrübəsi

Hikmət Hacıyevin çıxışında diqqət çəkən üçüncü mühüm tezis Azərbaycanın sülh və təhlükəsizlik sahəsində formalaşdırdığı yanaşma ilə bağlıdır. Onun vurğuladığı kimi, Azərbaycan uzun illər davam edən münaqişəni yalnız diplomatik vasitələrlə deyil, hərbi və siyasi alətlərin kombinasiyası vasitəsilə həll etməyə nail olub. Bu yanaşma beynəlxalq münasibətlər nəzəriyyəsində tez-tez "məcburedici diplomatiya" və ya daha geniş mənada "güc və diplomatiyanın sintezi" kimi izah edilir. Həmin modelə görə, diplomatik danışıqların nəticə vermədiyi və ya prosesin illərlə uzandığı hallarda güc balansının dəyişməsi siyasi həll üçün yeni şərait yarada bilər.

Cənubi Qafqazda uzun müddət davam edən Qarabağ münaqişəsi də məhz belə vəziyyətlərdən biri idi. Onilliklər ərzində aparılan danışıqlar prosesi – xüsusilə ATƏT-in Minsk qrupu çərçivəsində həyata keçirilən vasitəçilik mexanizmi – münaqişənin həlli istiqamətində real nəticələr ortaya qoya bilməmişdi. 2020-ci ildə baş verən hərbi-siyasi dəyişikliklər regiondakı status-kvonu köklü şəkildə transformasiya etdi və münaqişənin geosiyasi parametrlərini yenidən müəyyənləşdirdi. Güc balansının dəyişməsi nəticəsində regionda yeni siyasi reallıq formalaşdı və bu reallıq münaqişənin diplomatik müstəvidə həlli üçün fərqli imkanlar yaratdı.

Aydındır ki, bir çox hallarda uzunmüddətli münaqişələrin həlli yalnız tərəflər arasında güc balansının dəyişməsi nəticəsində mümkün olur. Tarixi təcrübə də bunu təsdiqləyir: bir çox regional münaqişələrdə danışıqlar yalnız yeni siyasi və hərbi reallıq formalaşdıqdan sonra real nəticə verməyə başlayıb. Cənubi Qafqazda baş verən proseslər də bu tendensiyanın müasir nümunələrindən biri kimi qiymətləndirilə bilər. Lakin burada daha mühüm məqam ondan ibarətdir ki, münaqişənin hərbi mərhələsindən sonra regionun gələcəyi postmünaqişə transformasiyası mərhələsinə daxil olur. 2020-ci ildən sonra Cənubi Qafqazda yaranan yeni reallıq göstərir ki, region tədricən uzunmüddətli münaqişə mərhələsindən postmünaqişə əməkdaşlığı mərhələsinə keçmək potensialına malikdir. Azərbaycan və Ermənistan arasında sülh sazişi ilə bağlı aparılan danışıqlar bu prosesin əsas elementlərindən biridir. Hikmət Hacıyevin çıxışında vurğuladığı kimi, hazırda Azərbaycan və Ermənistan gələcək sülh gündəliyinin parametrləri üzərində işləyirlər. Əgər bu transformasiya uğurla davam edərsə, Cənubi Qafqaz beynəlxalq münasibətlər sistemində münaqişə regionu imicindən əməkdaşlıq regionu modelinə keçid edən nadir nümunələrdən birinə çevrilə bilər.

Son olaraq qeyd edək ki, bugünkü beynəlxalq mühitdə əsas sual bundan ibarətdir: yeni dünya nizamını böyük güclərmi müəyyən edəcək, yoxsa təşəbbüskar orta güclər də bu prosesdə daha fəal rol oynayacaq? Cənubi Qafqazda baş verən proseslər göstərir ki, ikinci ssenari artıq getdikcə daha real görünür.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Hərbi caninin növbəti siyasi oyunu

**Ermənistanda müxtəlif siyasi və geosiyasi mərkəzlərin maraqlarını təmsil edən tanınmış şəxslər vaxtaşırı ictimaiyyət qarşısına reallıqdan uzaq, sərsəm və avantürist təkliflərlə çıxırlar. Bəzən bu ideyalar cəmiyyətin nəbzini yoxlamaq, yaxud müəyyən siyasi maraqları gündəmə gətirmək məqsədi daşıyır. Xüsusilə, iyunun 7-də keçiriləcək parlament seçkiləri ərəfəsində bu cür çıxışların sayı daha da artıb. Müxtəlif qruplar bununla ictimai rəyin hansı istiqamətə meyilləndiyini anlamağa çalışırlar.**



Belə fiqurlardan biri də bir vaxtlar Azərbaycan torpaqlarında mövcud olmuş separatçı xunta rejiminin keçmiş "təhlükəsizlik şurasının katibi", hərbi cinayətkar Vitali Balasanyandır. O, Ermənistanın SSRİ-ni xatırladan birliyin – faktiki olaraq Rusiya ilə ittifaq dövləti formatında qurulacaq qurumun tərkib hissəsinə çevrilməsini təklif edib. Balasanyan bu ideyanı dünya siyasi düzənində mümkün dəyişikliklər barədə danışarkən irəli sürüb. Onun sözlərinə görə, yaxın gələcəkdə bölgənin geosiyasi xəritəsi ciddi şəkildə dəyişə bilər və dövlətlər yeni düzəndə öz yerlərini əvvəlcədən müəyyənləşdirməlidirlər. Bu kontekstdə bildirib ki, Ermənistan həm İranla yaxşı münasibətləri qoruyub saxlamalı, həm də daha böyük siyasi birliyin tərkib hissəsinə çevrilməlidir. "Biz hansısa ittifaqın tərkib hissəsi olmalıyıq. Adını necə istəyirsiniz qoyun, amma söhbət Sovet İttifaqına bənzər bir birlikdən gedir", – deyə o qeyd edib.

Balasanyanın açıqlaması ölkədə növbəti siyasi mübahisənin alovlanmasına səbəb olub. Separatçının bu təklifi xüsusilə hakim "Mülki müqavilə" partiyasının nümayəndələrinin sərt reaksiyası ilə qarşılanıb. Parlament sədrinin müavini Ruben Rubinyan onu ölkənin müstəqilliyini şübhə altına almağa cəhd göstərməkdə ittiham edib. Rubinyanın sözlərinə görə, Ermənistanın müstəqilliyi uğrunda onilliklər boyu minlərlə insan həyatını qurban verib və heç kəs bu müstəqillikdən imtina etməyi təklif etmək haqqına malik deyil.

Rubinyan belə ideyaların erməni cəmiyyəti üçün qəbuledilməz olduğunu vurğulayıb: "Balasanyan kimilər öz qulaqlarının arxasını görərlər, amma Ermənistanın müstəqilliyini itirməsinin təkrarını görməyəcəklər. Biz buna imkan verməyəcəyik". Siyasətçi, həmçinin, Balasanyanın mövqeyini rusiyalı milyarder, "Taşir" şirkətlər qrupunun təsisçisi və "Güclü Ermənistan" partiyasının lideri Samvel Karapetyanın dəstəyi ilə əlaqələndirib. Rubinyanın fikrincə, qarşıdan gələn seçkilərdə seçicilər ölkənin müstəqilliyinə qarşı çıxan qüvvələrə layiqli cavab verməlidirlər.

Parlamentdəki "Mülki müqavilə" fraksiyasının rəhbəri Ayк Koncoryan da eyni dərəcədə qəti və birmənalı mövqe sərgiləyib. O bildirib ki, Ermənistanın suverenliyi siyasi alver mövzusu ola bilməz və müstəqillikdən imtina ilə bağlı istənilən müzakirə yolverilməzdir.

Hakimiyyətin bu qədər sərt reaksiyası fonunda müxalif qüvvələr vəziyyəti daha da gərginləşdirməməyə üstünlük veriblər. Samvel Karapetyanın "Güclü Ermənistan" partiyası və Qaqik Sarukyanın "Çiçəklənən Ermənistan" partiyası Balasanyanın sözlərini şərh etməyiblər. Keçmiş prezident Robert Koçaryanla bağlı olan "Hayastan" blokunun nümayəndələri isə yalnız bildiriblər ki, ittifaq dövlətinə qoşulmaq məsələsi onların gündəliyində yoxdur. Bununla belə, onlar da Balasanyanın açıqlamasını birbaşa tənqid etməkdən çəkiniblər. Ölkənin üçüncü prezidenti Serj Sarkisyanın siyasi layihəsi sayılan "Şərəfim var" fraksiyasının rəhbəri isə bu mövzuda danışmaqdan imtina edib və yalnız fraksiyaya daxil olan Respublika Partiyasının mövqeyini səsləndirib: "Ermənistanın suverenliyi heç vaxt siyasi alver predmetinə çevrilə bilməz".

Əlbəttə, V.Balasanyanın səsləndirdiyi fikir təsadüf və ya emosional bəyanat kimi qəbul edilə bilməz. Bu çıxış daha çox Ermənistanın siyasi səhnəsində uzun illərdir fəaliyyət göstərən və müxtəlif mərhələlərdə fərqli mərkəzlərin maraqlarına xidmət edən qüvvələrin düşüncə tərzini ortaya qoyur. Qarabağ separatizminin ən radikal nümayəndələrindən biri kimi tanınan Balasanyanın bu gün Ermənistanın dövlət müstəqilliyini faktiki olaraq sual altına alan ideya ilə çıxış etməsi onun siyasi mahiyyətini göstərir. Unutmaq olmaz ki, Balasanyan təkcə siyasi avantürist deyil. O, uzun illər Azərbaycan torpaqlarında fəaliyyət göstərmiş qanunsuz silahlı birləşmələrin rəhbərlərindən biri olub və bir sıra hərbi cinayətlərdə iştirak edib. Ölkəmizin suveren ərazilərində törədilən zorakılıq aktlarının, dinc əhaliyə qarşı həyata keçirilmiş soyqırımlarının icraçılarından biri kimi onun adı tarixidə qara ləkə kimi qalmaqdadır. Bu baxımdan Balasanyanın bu gün Ermənistanın gələcəyi ilə bağlı "məsləhətlər" verməsi ən azı siyasi və mənəvi ziddiyyət kimi görünür. Amma digər tərəfdən bunu ziddiyyət saymaq da olmur. Çünki separatizm və avantürizm üzərində qurulan siyasi karyera gec-tez belə nəticələr doğurur. Bir vaxtlar Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxış edən, bölgədə qan tökülməsinə səbəb olan şəxsin indi Ermənistanın müstəqilliyini şübhə altına alan təkliflərlə çıxış etməsi onun üçün tamamilə məntiqi davamdır. Bu, həm də göstərir ki, Balasanyan kimi fiqurlar üçün nə dövlətçilik prinsipləri, nə də milli maraqlar anlayışı mövcuddur. Onlar üçün əsas meyar hansısa böyük gücün himayəsi altında qalmaq və şəxsi siyasi mövcudluqlarını qorumaqdır. Balasanyanın "Sovet İttifaqına bənzər birlik" ideyası da mahiyyət etibarilə Ermənistanın suverenliyindən imtina etməsi deməkdir. Bu isə təkcə siyasi bəyanat deyil, həm də ölkənin dövlət müstəqilliyini şübhə altına alan açıq çağırışdır.

Maraqlıdır ki, bu cür sərsəm və təhlükəli təklif səsləndirildiyi halda, Ermənistanın müxalif siyasi qüvvələrinin əksəriyyəti onu açıq şəkildə qınamaqdan yayınmağa üstünlük verdi. Formal olaraq Balasanyanın ideyasından məsafə saxladıqlarını bəyan edən bəzi siyasi qüvvələrin, əslində, onunla eyni mövqedə olduqları da istisna deyil. Əks halda belə bir təşəbbüsə qarşı daha açıq və prinsipial münasibət ortaya qoyulardı. Susqunluq isə çox vaxt razılığın başqa forması kimi qəbul olunur. Bu baxımdan Koçaryan və Sarkisyan düşərgəsinə yaxın siyasi strukturların Balasanyanın sözlərinə qarşı sərt mövqe nümayiş etdirməməsi diqqətdən yayınmır. Göründüyü kimi, Qarabağ klanının liderləri və Ermənistanın digər rusiyapərəst siyasi qüvvələri Balasanyanın qalmaqallı bəyanatından yumşaq şəkildə məsafə saxlamağa üstünlük veriblər. Bununla belə, şübhə doğurmur ki, Balasanyan sadəcə olaraq erməni siyasətindəki rusiyapərəst qüvvələrin adətən açıq şəkildə dilə gətirməyə cəsarət etmədikləri mövqeni daha açıq formada ifadə edib. İstisna deyil ki, Qarabağ klanı və rusiyapərəst qüvvələr bu cür bəyanatlarla parlament seçkiləri ərəfəsində erməni cəmiyyətinin əhval-ruhiyyəsini yoxlamağa çalışırlar. Lakin ilkin reaksiyalar göstərir ki, nəticə onların gözləntilərinə uyğun deyil.

Bütün bunlar həm də onu göstərir ki, Ermənistan siyasətində hələ də dövlət müstəqilliyinə ikinci dərəcəli məsələ kimi baxan qüvvələr mövcuddur. Bu qüvvələr üçün əsas prioritet ölkənin inkişafı və təhlükəsizliyi deyil, xarici güclərin himayəsinə sığınıb yeni təxribatlara zəmin hazırlamaqdır. Balasanyan isə sadəcə, olaraq bu düşüncənin ən açıq və kobud ifadəçilərindən biridir. Birmənalı şəkildə demək mümkündür ki, hərbi caninin bu gün Ermənistanın gələcəyi ilə bağlı "strateji ideyalar" irəli sürməsi əslində, ölkənin siyasi mühitində mövcud olan ciddi böhranın göstəricisidir. Bu bəyanat həm də bir daha sübut edir ki, regionda illərlə münaqişəni qızışdıran və separatizmi təşviq edən fiqurlar indi də eyni avantürist yanaşmanı başqa formada davam etdirməyə çalışırlar. Ermənistan cəmiyyətinin isə bu cür çağırışların arxasında hansı təhlükəli niyyətlərin dayandığını gec-tez daha aydın şəkildə görəcəyi şübhə doğurmur.

***Səxavət HƏMİD***
***XQ***

# Qarabağ və Şərqi Zəngəzurda ekoloji tələblər

**Martın 13-də Zəngilan rayonunun Ağalı kəndində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası keçirilib.**

İclasda İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri, Cəbrayıl, Qubadlı, Zəngilan, Ağdərə, Xocalı, Laçın, Kəlbəcər, Şuşa, Ağdam, Füzuli, Xocavənd rayonlarında və Xankəndi şəhərində Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliklərinin, eləcə də Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin nümayəndələri iştirak ediblər.

İclasda İşçi qrup üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri həyata keçirilərkən və yaşıllıqların



götürülməsi zamanı ekoloji tələblərin icra vəziyyəti, xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyətinin bərpası və yeni yaradılan milli parklar, həmin ərazilərin biomüxtəlifliyi, nadir və nəsli kəsilmək təhlükəsi altında olan bitki və heyvan növləri və digər məsələlər barədə məlumat verilib.

# Türk Dövlətləri Təşkilatının fəlakətlər zamanı yardım mexanizmi

## *Üzv ölkələr fövqəladə hallar üçün qüvvələri birləşdirirlər*

**Bu mövzu 3 ilə yaxındır ki, müzakirə olunmaqdadır. Ötən müddət ərzində TDT-nin eqidası altında fəaliyyət göstərəcək yeni qurumun fəaliyyət mexanizmi və hüquqi bazasının – "Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizminin təsis edilməsi haqqında Saziş"in bütün üzvlər tərəfindən paraflanması prosesi davam etdirilib. Buna əyani misal olaraq bugünlərdə Qazaxıstan Parlamentinin Senatı tərəfindən TDT üçün Mülki Müdafiə Mexanizminin yaradılması haqqında sazişin ratifikasiya edilməsini göstərmək olar.**

Oxuculara xatırladaq ki, "Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizminin təsis edilməsi haqqında Saziş" Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan hökumətlərinin təmsilçiləri tərəfindən 2024-cü il noyabrın 6-da Bişkek şəhərində imzalanıb. Belə bir Mülki Müdafiə Mexanizminin qurulmasında məqsəd TDT-yə üzv və müşahidəçi dövlətlərin, eləcə də digər ölkələrində ərazilərində baş verə biləcək fəlakətlər və fövqəladə hallar zamanı tələb olunan ehtiyacları birgə dəstəkləmək üçün fəlakətlərə cavab tədbirləri üzrə ortaq potensialın yaradılmasıdır. Sazişin reallaşmasına məsul olan səlahiyyətli qurumlar kimi Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistan dövlətləri tərəfindən bu dövlətlərin Fövqəladə Hallar nazirlikləri, Türkiyə Respublikası tərəfindən isə Daxili İşlər Nazirliyi müəyyən edilib. Burada xüsusi qeyd olunmağa layiq məqam ondan ibarətdir ki, tərəflər TDT-nin Mülki Müdafiə Mexanizmini hüquqi şəxs statusuna malik beynəlxalq təşkilat formasında təsis edirlər. Tam işə düşdükdən sonra bir növ "beynəlxalq təcili yardım" statusu qazanacaq bu mexanizmin inzibati strukturlarına fəlakət və fövqəladə halların idarə edilməsinə məsul olan Nazirlər Şurası və Katibliyi aid edilir.

*

TDT-yə üzv ölkələrin parlamentlərinin parafladığı bu sənəd fövqəladə hallar zamanı Birgə Ərazi Qrupuna daxil ölkələrin hərəkətlərinin əlaqələndirilməsini, qarşılıqlı yardımı, birgə təlimləri, xilasetmə xidmətləri arasında təcrübə mübadiləsini də nəzərdə tutur. Mexanizmin katibliyinin baş ofisi İstanbulda yerləşəcək və strukturun büdcəsi ilk iki il ərzində əlavə xərcləri Türkiyə tərəfindən qarşılanmaqla, iştirakçı ölkələrin illik ianələri hesabına maliyyələşdiriləcək.

Hazırda Yaxın Şərqdə davam edən münaqişə, hərbi qarşıdurma vəziyyəti, xüsusən də bu regional münaqişənin genişmiqyaslı müharibəyə transformasiya edilə biləcəyi fonunda ortaya belə bir sual çıxır: Bu mexanizm bir növ hərbi blokun prototipidir, yoxsa birləşmiş ərazi icmalarının xarici təhdidlərə birgə cavabı? Ekspertlərin bəziləri hesab edir ki, bu mühüm məsələ birləşən ərazi icmaları çərçivəsində əməkdaşlığın inkişaf perspektivlərinə




təsir göstərə bilər. Yəni bu saziş hansısa alyansın, ümumi hərbi blokun yaradılması istiqamətində atılan birbaşa addım sayılmasa da, mülki müdafiə sahəsinə daxil olsa da, TDT ölkələrinə xarici təhlükələri nəzərə alaraq, belə bir struktur hərbi funksiyaları da yerinə yetirməyə başlaya bilər. Sənəddə təbii və texnogen fəlakətlərə cavab tədbirləri, insanların həyatının və əmlakının xilas edilməsi, tibbi və humanitar yardımların göstərilməsi kimi məsələlər nəzərdə tutulur. Təbii ki, bu prosesdə iştirak könüllüdür və ortaq yardım barədə qərar yalnız zərər çəkmiş dövlətin müraciəti və tərəflər arasında konsensus əsasında qəbul edilir.

Mexanizmin funksiyalarına risklərin monitorinqi, xilasedicilərin hazırlığı üzrə vahid standartların işlənib hazırlanması, birgə təlimlərin keçirilməsi və xilasetmə xidmətləri arasında təcrübə mübadiləsi daxildir. Beləliklə, bu, mahiyyət etibarı ilə digər regional təşkilatlardakı oxşar mexanizmlərə bənzər ixtisaslaşmış humanitar strukturun yaradılması istiqamətində atılan addımdır. Birgə xilasetmə təlimləri həqiqətən ümumi koordinasiyanı gücləndirə bilsə də, onların mandatı ciddi şəkildə mülki olaraq qalacaq. Mülki Müdafiə Mexanizmi Katibliyinin qərargahının İstanbulda yerləşməsi həm iqtisadi, həm də siyasi əsaslara malikdir. Çünki Türkiyə bu mexanizmin yaradılmasının təşəbbüskarı olub və Ankara nəinki qərargahın öz ərazisində yerləşməsini təklif edib, həm də üzərinə müəyyən maliyyə öhdəliyi götürüb. Məlum olduğu kimi, strukturun büdcəsi üzv ölkələrin illik ianələri hesabına formalaşacaq. Burada çox vacib məqama diqqət yetirək: tələb olunan məbləğdən yuxarı olan bütün xərclər ilk iki ildə Türkiyə tərəfindən qarşılanacaq.

*

Qeyd etdiyimiz kimi, Qazaxıstan prosesin təşəbbüskarı və fəal iştirakçılarından biridir və ölkənin rolunu bir neçə aspektdə nəzərdən keçirmək olar. Rəsmi Astana yeni mexanizmdə iştirak üçün bütün lazımi daxili prosedurları başa çatdırıb və saziş ölkə parlamenti tərəfindən paraflanıb. Hökumət sənədin layihəsini hələ 2024-cü ilin oktyabrında müzakirəyə çıxarmışdı və təsdiqləmişdi, Senat isə martda yekun təsdiqini verdi. Şübhəsiz ki, bu, Qazaxıstanın təhlükəsizlik sferasında TDT formatında inteqrasiyanın inkişafına böyük marağı olduğunu göstərir. Təşkilatın idarəçiliyində təmsilçilikdə maraqlı olan Qazaxıstan Respublikası Fövqəladə Hallar Nazirliyinin rəhbəri Nazirlər Şurasının (ali orqan) tərkibinə daxil ediləcək. Bundan savayı, Sazişin 4-cü maddəsinə əsasən, Nazirlər Şurasına TDT-yə sədrlik edən ölkənin nümayəndəsi rəhbərlik edir və bu, Qazaxıstana müəyyən müddət ərzində mexanizmin işinə rəhbərlik etmək imkanı verir. Fəaliyyətin özlərinə gəlincə isə onlar bir neçə sahəni əhatə edəcək. Məsələn, irimiqyaslı fövqəladə hadisə baş verdiyi təqdirdə, Qazaxıstan operativ şəkildə təşkilata üzv ölkələrin müvafiq xidmətlərindən yardım tələb edə biləcək. Buraya təcrübə mübadiləsi və standartlaşdırma da daxildir.

Digər bir aspekt isə Qazaxıstanın digər türk dövlətlərinə yardım göstərməsini əhatə edir. Qeyd edək ki, bu türk respublikasında güclü Fövqəladə Hallar Nazirliyi sistemi mövcuddur. Beləliklə, Astana bu strukturda iştirakını milli potensialı gücləndirmək və bərabərhüquqlu türk regionunun ümumi təhlükəsizliyinə töhfə vermək imkanı kimi görür.

Mütəxəssislərin fikrincə, bu mexanizm fövqəladə hallarda qarşılıqlı yardımın göstərilməsi üçün mühüm bazaya çevriləcək. Bu halda fövqəladə vəziyyət həm mülki infrastruktur baxımından, həm də daha geniş kontekstdə nəzərdən keçirilə bilər. Münaqişələrə bürünmüş Yaxın Şərq göstərir ki, hərbi əməliyyatlar qlobal miqyasda ola bilər və Türk dövlətləri belə çağırışlara hazır olmalıdır.

Gözümüzün önündə cərəyan edən hadisələr onu göstərir ki, raket zərbələri insan tələfatına səbəb olduqda, infrastruktura ziyan vurduqda, yaşayış binalarını, xəstəxanaları, məktəbləri uçurduqda aktiv qarşılıqlı yardıma son dərəcə ehtiyac duyulur. Amma gördüyümüz kimi və təəssüf ki, Körfəz ölkələri buna tam hazır deyil. Məhz ona görə tamamilə mümkündür ki, TDT nəzdində yeni yaradılan bu mexanizm yaxın tarixin uğursuz təcrübəsini və cəmiyyətlərin üzləşdiyi acınacaqlı durumu nəzərə alır və belə fövqəladə hallarda təşkilata üzv dövlətlər arasında müəyyən koordinasiyanı təmin etməyi hədəfləyir.

İstisna deyil ki, atılacaq növbəti addım təşkilata üzv dövlətlər arasında mümkün hərbi koordinasiya olacaq. İntəhası, bu mövzu hələlik yalnız hərbi-texniki əməkdaşlığın müzakirəsi mərhələsində olsa da, çox aktiv müzakirələr yol açıb...

***İmran BƏDİRXANLI***
***XQ***

# Ermənistanda seçkiyə xarici müdaxilə

## *80 min saxta seçici "idxal"ı nəyə xidmət edir?*

**Ermənistanda iyunun 7-nə təyin edilmiş parlament seçkiləri yaxınlaşdıqca, iqtidar və müxalifət arasında qarşılıqlı ittihamlar kəskinləşir. Bu gərgin siyasi mübarizənin mərkəzində xarici müdaxilə ehtimalı da var.**

Bununla bağlı Ermənistanın "Müstəqil müşahidəçi" alyansının nümayəndəsi Daniel İonnisyan bildirib ki, təşkilatın əldə etdiyi məlumatlar Moskvanın hakimiyyət dəyişikliyinə nail olmaq üçün xüsusi planlar hazırladığını göstərir. İonnisyanın qənaətinə görə, bu strateji ssenarinin tərkib hissəsi Rusiyada fəaliyyət göstərən erməni əsilli iş adamlarının seçki prosesinə maliyyə və təşkilati cəhətdən cəlb edilməsidir. İddia olunur ki, həmin sahibkarlara müxtəlif vasitələrlə təzyiq göstərilərək, onlardan seçicilərin səfərbər olunmasında fəal iştirak etmələri və müəyyən siyasi qüvvələri dəstəkləmələri tələb olunur.

Müzakirə edilən səs-küylü və genişmiqyaslı ssenarilərdən biri də Rusiyada yaşayan on minlərlə erməni əsilli şəxsin seçkilər ərəfəsində mütəşəkkil şəkildə Ermənistana gətirilməsidir. Alyansın məlumatına əsasən, təxminən 80 min nəfərin ölkəyə daşınması və səsvermədə iştirakını stimullaşdırmaq məqsədilə hər birinə 100 min rubl məbləğində ödənişin təklif edilməsi ehtimalı nəzərdən keçirilir. Bu şəxslərin, əsasən, Rusiyanın cənub regionlarından, xüsusilə Krasnodar diyarından yerüstü nəqliyyat vasitələri ilə gətirilməsi planlaşdırılır. Ekspertlər hesab edir ki, belə kütləvi daşınma seçkilərin legitimliyinə kölgə salacaq ciddi amildir.

Maraqlıdır ki bu ağır ittihamlar təkcə vətəndaş cəmiyyəti nümayəndələrinin bəyanatları ilə məhdudlaşmır, həm də dövlət səviyyəsində təsdiqini tapır. Ermənistan Xarici Kəşfiyyat Xidmətinin (XKX) son açıqlamasına görə, adı çəkilməyən bir ölkədə (beynəlxalq müşahidəçilər bunun Rusiya olduğunu ehtimal edir) erməni mənşəli iş adamlarına və vətəndaşlara ciddi təzyiqlər göstərilir. İddia olunur ki, özlərini yerli xüsusi xidmət orqanlarının əməkdaşları kimi təqdim edən şəxslər sahibkarları müəyyən siyasi qüvvələri dəstəkləməyə məcbur edirlər. Bu təzyiq mexanizminə, həmçinin diaspor rəhbərləri və kriminal avtoritetlərin də cəlb olunduğu, sahibkarların hədə-qorxu ilə müəyyən siyasi qütblərə tərəf çəkilməyə çalışıldığı qeyd olunur.

Bu iddialar daxili siyasi mühitdə geniş rezonans doğuraraq artıq hüquqi müstəviyə keçib. Ermənistanın İstintaq Komitəsi XKX-dən daxil olan materiallar əsasında cinayət işi başladığını elan edib. Cinayət işi Ermənistan Cinayət Məcəlləsinin bir neçə ağır maddəsi – seçki hüququnun mad-



di şəkildə stimullaşdırılması, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi və maddi asılılıqdan istifadə etməklə səsverməyə məcburetmə bəndləri üzrə açılıb. İstintaq çərçivəsində iri sahibkarların, diaspor rəhbərlərinin və kriminal qrupların proseslərdəki iştirakı araşdırılır. Qurumdan bildirilib ki, cinayət məsuliyyətinin qaçılmazlığı prinsipinin təmin olunması üçün bütün zəruri istintaq və prosessual tədbirlər həyata keçirilir.

Məsələnin beynəlxalq miqyası da sürətlə genişlənir. Rəsmi İrəvan hibrid təhdidlərlə mübarizə üçün Avropa İttifaqından (Aİ) təcili ekspert dəstəyi istəyib. Brüsselin ölkəyə 20 nəfərlik texniki missiya göndərməsi və dezinformasiyaya qarşı 12 milyon avro vəsait ayıracağı planlaşdırılır. Avropalı tərəfdaşların bu yardımı fonunda Ermənistandakı seçkilər Qərb və Rusiya arasındakı nüfuz müharibəsinin növbəti sınaq nöqtəsi kimi qiymətləndirilir.

Beləliklə, iyunun 7-nə təyin olunan parlament seçkiləri təkcə hakimiyyət uğrunda yarış deyil, həm də ölkənin geosiyasi istiqamətinin müəyyənləşdirilməsi baxımından həlledicidir. Baş nazir Nikol Paşinyanın komandası Qərblə əməkdaşlığı prioritet kimi təqdim edir, müxalifətin bir hissəsi isə Moskva ilə sıx münasibətləri müdafiə edir. Ermənistan cəmiyyətindəki sosial narazılıq və müharibədən sonrakı təhlükəsizlik narahatlıqları bu seçki kampaniyasını daha populist və emosional edir.

Region baxımından isə Ermənistanın daxili siyasi sabitliyi xüsusi əhəmiyyət kəsb edir. Cənubi Qafqazda formalaşmaqda olan yeni geosiyasi reallıq fonunda Bakı və İrəvan arasında sülh gündəliyi hələ tam başa çatmayıb. Sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması və sülh müqaviləsinin imzalanması kimi məsələlər gündəmdə qalmaqdadır.

Bu baxımdan, Ermənistanda seçki kampaniyasının xarici müdaxilə iddiaları və daxili siyasi manipulyasiyalar fonunda keçməsi region üçün əlavə risklər yarada bilər. Seçki öncəsi siyasi rəqabət fonunda bəzi qüvvələrin revanşist və ya radikal ritorikaya müraciət etməsi ehtimalı da istisna deyil. Bu isə regionda sülh prosesinin siyasi alətə çevrilməsi riskini artırır.

Seçki prosesindəki yeniliklərə gəlincə, qeyd edək ki, 2021-ci ildə qanunvericiliyə edilmiş dəyişikliklər bu il ilk dəfə tətbiq olunacaq. Xüsusilə, partiyalar üçün seçki limiti 5 faizdən 4 faizə endirilib. Bloklar üçün isə limit 7 faizdən 8 faizə, blokun üçdən çox üzvü varsa, 10 faizə qaldırılıb. Partiyalar üçün tələb olunan depozit məbləği 10 milyondan 7,5 milyon drama (təxminən 19 min dollar) endirilsə də, bloklar üçün bu rəqəm 15 milyon dram (39 min dollar) səviyyəsində saxlanılıb. Koalisiya üzvlərinin sayına qoyulan məhdudiyyət aradan qaldırılıb və mandat bölgüsü proseduru dəyişdirilib. Yeni qaydalara görə, qalib gələn partiya səslərin üçdə ikisindən az, lakin mandatların üçdə ikisindən çoxunu alsa, onların "artıq" mandatları həddi keçməyən digər siyasi qüvvələr arasında bölüşdürüləcək. Bu dəyişikliklər parlamentdə daha çox rəngarəngliyin təmin olunmasına hesablanıb.

**Politoloq Elməddin Behbudun** fikrincə, Ermənistandakı vəziyyətə geniş geosiyasi çərçivədə yanaşmaq vacibdir: "Xarici müdaxilə iddiaları Ermənistanın dəyişən xarici siyasi kursunun nəticəsidir. Moskva regionda təsir imkanlarının zəifləməsini strateji risk kimi görür. Seçkilər ərəfəsində "xarici müdaxilə" mövzusunun gündəmə gətirilməsi həm də daxili siyasi mübarizənin elementidir. Bu mövzu hakimiyyət üçün elektoratı səfərbər etmək və Qərb tərəfdaşlarının siyasi dəstəyini gücləndirmək vasitəsinə çevrilir. Eyni zamanda, müxalifətin bir hissəsinin Rusiya ilə yaxın siyasi xətti müdafiə etməsi seçki kampaniyasını geosiyasi seçim müstəvisinə çıxarır".

Politoloq vurğuladı ki, bu vəziyyət Ermənistanın daxili sabitliyi üçün əlavə risklər yaradır: "Seçki prosesində radikal və revanşist ritorikanın güclənməsi regiondakı sülh gündəliyinə də təsirsiz ötüşmür. Ermənistanın daxili siyasi sabitliyi Azərbaycanla münasibətlərin normallaşması və regionda uzunmüddətli sülh gündəliyi ilə birbaşa bağlıdır.



Azərbaycan baxımından əsas məsələ, Ermənistanın daxili siyasi mübarizəsinin regionda revanşist ritorikanın güclənməsinə gətirib çıxarmamasıdır. Bakı üçün prioritet məsələ imzalanması gözlənilən sülh müqaviləsi, sərhədlərin delimitasiyası və kommunikasiya xətlərinin açılmasıdır. Ermənistanda seçki prosesinin xarici təsir və daxili siyasi manipulyasiya fonunda keçməsi isə bu prosesləri ləngidə və ya siyasi alətə çevirə bilər".

Beləliklə, Ermənistanın qarşıdan gələn parlament seçkiləri özündə təkcə daxili siyasi yarışı deyil, həm də böyük geosiyasi qarşıdurmanın elementlərini ehtiva edir. Rusiyanın təsiri, Avropa İttifaqının artan iştirakı və regiondakı yeni siyasi balans axtarışları fonunda bu seçkilər Cənubi Qafqazın gələcək siyasi arxitekturasına birbaşa təsir göstərə biləcək mühüm hadisə kimi qiymətləndirilməlidir. Seçkilərin hansı nəticə ilə başa çatmasından asılı olmayaraq, Ermənistanın daxili sabitliyi artıq bütün regionun təhlükəsizlik gündəliyinin vacib elementinə çevrilib.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# XIII Qlobal Bakı Forumunun panel iclasları

## 2030 Gündəliyinin icrası ilə bağlı çağırışlar




**XIII Qlobal Bakı Forumunun ikinci günündə “2030 Gündəliyinin sürətləndirilməsi: İnklüziv artım və dayanıqlı bağlantı” mövzusunda panel iclas keçirilib.**

İclasa İsveçrənin İnkişaf və Əməkdaşlıq Agentliyinin baş direktoru, BMT-nin İKT üzrə İşçi Qrupunun üzvü, UNESCO-nun Kommunikasiyanın İnkişafı üzrə Hökumətlərarası Şurasının sabiq sədri **Valter Fust** moderatorluq edib.

2014-cü il Nobel Sülh Mükafatı laureatı **Kailaş Satyarti** çıxışında dünyamızın dəyişməkdə olduğunu deyib: “Bəşəriyyət və Yer kürəsi təhlükə altındadır. Paradoks ondadır ki, biz dəyişkən dünyada yaşayırıq. Biz yüksək bağlılıqdan ibarət dünyada yaşasaq da, səmimiyyət getdikcə azalır, fərdlər və icmalar marginallaşır, ölkələr isə bir-birindən uzaqlaşır. Proseslər əvvəlkindən qat-qat sürətlənib. Uşaqlar və qadınlar diqqətdən kənarda qalırlar”.

Misirin sabiq planlaşdırma, iqtisadi inkişaf və beynəlxalq əməkdaşlıq naziri **Raniya Al-Maşatın** sözlərinə görə, dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün ölkələr, ilk növbədə, öz milli prioritetlərini aydın şəkildə müəyyənləşdirməli və bu sahələrə yönələn siyasəti gücləndirməlidirlər.

Bosniya və Herseqovinanın BMT-də daimi nümayəndəsi, sabiq Baş nazir **Zlatko Laqumdziya** çıxışında qeyd edib ki, mövcud vəziyyəti düzgün qiymətləndirmək vacibdir. DİM hesabatı göstərir ki, biz hansı mərhələdəyik. Əksər DİM-lər üzrə məqsədlərdən uzağıq və bütün ölkələr eyni sürətlə irəliləmirlər. Avropa ölkələri DİM üzrə ən güclü nəticə göstərənlərdir. Bir çox inkişaf etməkdə olan ölkələr üçün isə fiskal imkanlar DİM-lərə çatmağa şərait yaratmır. Əsas diqqət inkişafda olan və inkişafı zəif olan ölkələrə yönəldilməlidir.

Çex Respublikasının sabiq Baş naziri **Jiří Rusnok** çıxışında qeyd edib ki, hazırda dünyada müşahidə olunan əsas tendensiyalardan biri qlobal parçalanmanın güclənməsidir və bu proses beynəlxalq əməkdaşlıq üçün əlavə çətinliklər yaradır. Bu parçalanma bir neçə səviyyədə özünü göstərir və onların bir-biri ilə əlaqəsi vəziyyəti daha da mürəkkəbləşdirir.

Pekin Universitetinin Yeni Struktur İqtisadiyyatı İnstitutunun dekanı **Castin Linin** fikrincə, Dayanıqlı İnkişaf Məqsədləri gündəliyindən çox kənarlaşmışıq: “2030-cu ilə qədər məqsədlərə tam çata bilməyəcəyik. 17 məqsədin hamısı vacibdir və irəliləyişə nail olmaq üçün əlimizdən gələni etməliyik. Əgər bu məqsədlərə çatmaq mümkün olmasa, digər oxşar təşəbbüslərə qoşulmaq lazımdır”.

Moldovanın sabiq Baş naziri **Kirill Qaburiçi** nəzərə çatdırıb ki, texnologiya, infrastruktur və innovasiyalar sahəsindəki inkişaf cəmiyyətlər üçün güclü alətlər yaradır. O vurğulayıb ki, bu alətlər vasitəsilə təmiz enerji sistemləri, rəqəmsal infrastruktura çıxış və yerli məlumatların monitorinqi kimi həllər yaradılır. Bu vasitələr cəmiyyətləri daha dayanıqlı və inklüziv edir.

Monteneqronun sabiq Baş naziri **İqor Lukşiq** çıxışında bildirib ki, DİM-lərə çatmaq üzrə vəziyyət hələ də kritikdir və 2030-cu il hədəflərinə realist olaraq tam çata bilməyəcəyik. O vurğulayıb ki, Avropa ölkələri DİM üzrə daha güclü nəticələr göstərsə də, bir çox inkişaf etməkdə olan ölkələr fiskal imkanların məhdud olması səbəbindən məqsədlərə çatmaqda çətinlik çəkir. Bu səbəbdən indiki mərhələdə daha vacib olan gələcəyə baxmaq və uzunmüddətli planlar üzərində düşünməkdir.

Panel iclas mövzu ətrafında müzakirələrlə davam edib.

## Orta Dəhliz və Avrasiya bağlantısı




**XIII Qlobal Bakı Forumu çərçivəsində “Orta Dəhliz və Avrasiya bağlantısı qapısı” mövzusunda panel müzakirələr aparılıb.**

İclasa Serbiyanın sabiq Prezidenti **Boris Tadiç** moderatorluq edib.

Özbəkistan Prezidentinin xarici siyasət üzrə müşaviri **Abdulaziz Kamilov** Azərbaycanın Mərkəzi Asiya regionu ilə yaxınlaşmasını strateji əhəmiyyət kəsb edən tarixi proses adlandırıb. Onun sözlərinə görə, Prezident İlham Əliyevin Mərkəzi Asiya liderləri ilə bir araya gəlməsi iqtisadi, ticarət və xüsusilə enerji sahəsindəki əməkdaşlığımız üçün müstəsna əhəmiyyət daşıyır. Özbəkistanın Zəngəzur dəhlizinin açılmasını dəstəkləyən ölkələrdən biri olduğunu vurğulayan Abdulaziz Kamilov hesab edir ki, bu dəhliz yeni bazarlara çıxış imkanı yaradacaq.

Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri **Binəli Yıldırımın** fikrincə, müvafiq strateji addımlar atmaqla illik daşımaların həcmini 20 trilyon dollara qədər artırmaq mümkündür: "Bu kontekstdə Orta Dəhlizin əhəmiyyəti əvəzsizdir. Belə ki, yüklərin Şərqdən Qərbə daşınması dəniz yolu ilə 40-50 gün çəkdiyi halda, Orta Dəhliz vasitəsilə cəmi 12-15 günə reallaşa bilər. Bu üstünlükləri nəzərə alaraq, Orta Dəhlizin inkişafı daha fəal şəkildə dəstəklənməlidir".

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri **Şahmar Mövsümov** Azərbaycanın Orta Dəhliz layihəsi çərçivəsində nəqliyyat, enerji və rəqəmsal infrastrukturun inteqrasiyasına xüsusi önəm verdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Trans-Xəzər Fiber Optik Kabeli layihəsi Asiya və Avropa arasında 300 terabit/saniyəlik yüksəksürətli rəqəmsal əlaqə təmin edəcək və bölgədə rəqəmsal inteqrasiyanı gücləndirəcək.

Gürcüstanın Baş nazirinin sabiq müavini **Eka Tkeşelaşvilinin** sözlərinə görə, Azərbaycan regionun inteqrasiyasında əsas aktor kimi iştirak edir. O qeyd edib ki, region artıq xarici güclərdən asılı deyil, strateji qərarları öz şərtləri ilə qəbul etmək qabiliyyətini gücləndirib və üzv ölkələr arasında dərinləşmiş strateji əməkdaşlıq sayəsində yeni “regional orta güc” nümunəsi ortaya çıxıb.

Rumıniya Baş nazirinin sabiq müavini **Ana Birçal** Cənubi Qafqaz, Mərkəzi Asiya və Avroatlantik məkan arasında aktiv körpü rolunu davam etdirməyin önəmini vurğulayıb. "Enerji təhlükəsizliyi milli təhlükəsizlikdir. Qafqaz və Mərkəzi Asiyanın sabitliyi isə bütün regionun rifahı üçün fundamental şərtdir", - deyə A.Birçal əlavə edib.

Şanxay Əməkdaşlıq Təşkilatının sabiq baş katibi **Rəşid Alimov** Mərkəzi Asiyanın qlobal bazarlara çıxışı addım-addım təmin edən etibarlı və strateji bir körpü statusu qazandığını deyib: “Regionun nəqliyyat təşəbbüsləri beynəlxalq layihələri tamamlayaraq yeni imkanlar yaradır. Bizim əsas məqsədimiz dəhliz boyu yükdaşıma zonalarını inkişaf etdirmək və bu marşrutu qlobal dəyər zəncirinin ayrılmaz hissəsinə çevirməkdir”.

Qırğızıstanın sabiq Baş naziri **Coomart Otorbayev** Orta Dəhliz layihəsinin Avropa ilə Asiya arasında yükdaşımalarını sürətləndirmək və daha səmərəli etmək baxımından böyük strateji əhəmiyyətə malik olduğunu deyib. Qeyd edib ki, bu layihə vasitəsilə Yaponiya, Çin, Cənub-Şərqi Asiya və Hindistanın şirkətləri Avropaya bağlanır. Bu layihə çərçivəsində Azərbaycanın Asiya ilə Avropa arasında əlaqəni təmin etməkdə rolu kritik əhəmiyyət kəsb edir.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq Katibliyinin Baş katibi **Lazar Komănesk** isə Avropa ilə Asiya arasında quru və dəniz əlaqələrinin qurulmasının müasir dövrün ən mühüm prioritetlərindən biri olduğunu bildirib. O, xüsusilə Qara dəniz regionu və ətraf bölgələr üçün bu iki qitə arasında inteqrasiyanın güclənməsini olduqca sevindirici və strateji bir hadisə adlandırıb.

Sessiya müzakirələrlə davam edib.

## COP platformasının önəmi və iqlim əməkdaşlığı

**XIII Qlobal Bakı Forumu çərçivəsində keçirilən paneldə “Danışıqlardan kənarda: COP-u yaşatmaq uğrunda mübarizə” mövzusu müzakirə olunub.**

"Fortescue Ltd." şirkətinin Direktorlar Şurasının üzvü **Jean Baderschneiderin** moderatorluğu ilə keçirilən panel iclasda COP-un qlobal iqlim gündəminin əsas platforması kimi fəaliyyətini davam etdirməsinin vacibliyi, siyasi fikir ayrılıqları və beynəlxalq gərginliklər fonunda COP mexanizminin effektivliyini qorumağın yolları ətrafında fikir mübadiləsi aparılıb.

COP31-in sədri və Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri **Murat Kurum** Qlobal Bakı Forumu çərçivəsində hər kəsin öz COP təcrübəsini bölüşə bildiyi mühit yaratdığı üçün Azərbaycana təşəkkür edib: “Biz bu gün də "iki dövlət, tək millət" olmaqdan qürur duyuruq və Azərbaycanda olmaqdan böyük məmnunluq hiss yaşayırıq. Həmçinin qəlbi hər zaman Azərbaycan üçün döyünən Prezident

Polşanın keçmiş iqlim və ətraf mühit naziri, COP24-ün prezidenti **Michal Kurtyka** vurğulayıb ki, COP-ların əsası 1995-ci ildə qoyulsa da, bu gün dünya fərqli və çətin şəraitdədir. Müharibələr, aclıq, enerji təhlükəsizliyi və digər insani böhranlar iqlim müzakirələrini əhatə edən kontekstə təsir göstərir.

Misirin keçmiş xarici işlər naziri, COP27-nin prezidenti **Sameh Şoukrinin** sözlərinə görə, COP müzakirələrində ənənəvi yanacağa hələ də böyük asılılıq var və qlobal çağırışlar bütün ölkələr üçün aktualdır. Onun fikrincə, maliyyələşmənin artırılması vacibdir, lakin ən əsas problem Qlobal Cənub və Qlobal Şimal arasındakı parçalanmadır. O vurğulayıb ki, ümumi iqlim məqsədlərinə çatmaq üçün bütün tərəflər bir araya gəlməli və əməkdaşlıq etməlidir.




Rəcəb Tayyib Ərdoğanın salamlarını, sevgisini bütün azərbaycanlı dostlara və buradakı iştirakçılara çatdırmaq istəyirəm”.

Murat Kurum XIII Qlobal Bakı Forumunun çox kritik bir vaxtda keçirildiyinə diqqət çəkib. Onun sözlərinə görə, dünyada əməkdaşlıq dialoqu sahəsində atılan hər bir addım çox böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, COP29-un prezidenti **Muxtar Babayev** çoxtərəfliliyin böyük təzyiq altında olduğuna diqqət çəkib: “Bütün BMT sistemi böyük təzyiq altındadır. Buna görə də yalnız COP-da müsbət və uğurlu nəticələr əldə etmək üçün deyil, həm də əvvəlki COP-larda razılaşdığımız qərarları həyata keçirmək üçün çox sıx işləməliyik”. Təhlükəsizlik, müdafiə və hərbi çağırışların ölkələri bu istiqamətlərə getdikcə daha çox vəsait ayırmağa vadar etdiyini diqqətə çatdıran M.Babayev dövlətlərin müharibə və münaqişələrdən qorunma yolları axtardıqlarını deyib. Lakin iqlim dəyişikliyi artıq bir reallıqdır və hər kəs bu dəyişikliklərlə üz-üzədir.

Mərakeşin keçmiş xarici işlər və əməkdaşlıq naziri, COP22-nin prezidenti **Salaheddine Mezouar** bildirib ki, iqlim dəyişikliyi qlobal çağırışdır və bunun həlli üçün universallıq, qlobal əməkdaşlıq vacibdir. Onun sözlərinə görə, COP sistemi konsensus üzərində qurulub ki, bu da legitimlik və hər ölkənin səs hüququnu təmin edir. Lakin yekdillik tələb edən qərarlar irəliləyişi ləngidə bilər.

“Vital Voices Global Partnerships” təşkilatının İqlim Ədaləti Proqramının rəhbəri **Hafsat Abiola** Azərbaycanın COP29 zamanı bütün dünyanı yüksək səviyyədə qarşıladığını deyib: “Ümid edirəm ki, Türkiyə ilə bu istiqamətdə çox yaxından əməkdaşlıq edəcəyik və Efiopiyada da görüşmək imkanımız olacaq. Çünki Efiopiya bizim üçün mühüm ölkədir. O, Afrikanın müstəmləkəçiliyə məruz qalmayan yeganə dövlətidir”.

Bolqarıstanın sabiq Prezidenti **Petar Stoyanov** Braziliyada keçirilən COP-un təcrübəsinə əsaslanaraq, iqlim proseslərinin davamlılığının təmin edilməsinin vacibliyini vurğulayıb. Hazırda ətraf mühit sahəsində müxtəlif tənqidi yanaşmalar və geosiyasi gərginliklər mövcuddur, lakin inkişaf tempini qorumaq və səmərəli həll yolları tapmaq zəruridir. Dünya iqlim məsələlərinə yeni baxış bucağından yanaşmalı və idarəçilikdə sadələşdirilmiş prinsipləri rəhbər tutmalıdır, çünki bəzən müasir populyar tendensiyalar milyonlarla insanın maraqları ilə ziddiyyət təşkil edir. Bu kontekstdə orta güclərin rolu önəmlidir. Bölgələrində ciddi nüfuza malik olan bu dövlətlər böyük dövlətlərlə strateji razılaşmalar əldə etmə potensialına malikdir və iqlim hədəflərinin həyata keçirilməsində həyati əhəmiyyət daşıyırlar. COP platforması iqlim dəyişikliyi ilə mübarizədə yeganə və ən mühüm imkandır və bu işlərin kiçik, çevik qruplarla icrası COP formatının əhəmiyyətini bir daha göstərir.

Panel iclas müzakirələrlə davam edib.

## “Afrika bu gün və sabah”




**XIII Qlobal Bakı Forumu çərçivəsində “Afrika bu gün və sabah” mövzusunda panel müzakirələri təşkil edilib.**

İclasa Dünya Bankının Şərqi və Cənubi Afrika üzrə keçmiş regional vitse-prezidenti **Hafez Ghanem** moderatorluq edib.

Çıxış edən Belçikanın keçmiş Baş naziri **Şarl Mişel** Afrikanın Avropa İttifaqı üçün strateji tərəfdaş olduğunu deyib. Onun sözlərinə görə, bu çərçivədə illər öncə Avropa və Afrika ölkələri arasında münasibətləri gücləndirmək, Afrikanın iqtisadi potensialını inkişaf etdirmək və qitələrarası inteqrasiyanı artırmaq üçün müxtəlif görüşlər keçirilib. Bu münasibətlərin əsas prinsipi bərabərhüquqlu əməkdaşlıq və tərəflər arasında balansın qorunmasıdır. Bununla belə, qlobal silahlı münaqişələrin və silahlanmanın biznes modelinə çevrildiyi bir dövrdə bu əməkdaşlığın daha da inkişaf etdirilməsinə ehtiyac var.

Maltanın sabiq Baş naziri **Cozef Muskatın** fikrincə, Afrikada uğur qazanmaq üçün tədbirlərin görülməsinin ən münasib yolunu göstərmək lazımdır. O bildirib ki, Afrika üçün ən böyük imkanlar elə qitənin özündədir. Afrika daxili imkanlar baxımından böyük potensiala malikdir. Burada əsas məsələ kimisə razı salmaq və ya hansısa dövlətlərin gündəliyinə uyğun hərəkət etmək deyil, mövcud imkanlardan istifadə etməkdir.

Miqrasiya, Daxili İşlər və Vətəndaşlıq üzrə keçmiş Avropa Komissarı **Dimitris Avramopulos** çıxışında vurğulayıb ki, 2026-cı ildə Afrika artıq qlobal proseslərin kənarında qalan deyil, proseslərin mərkəzində dayanan mühüm bir iştirakçıdır. Afrika bərabərhüquqlu və hörmətə əsaslanan tərəfdaş kimi yanaşılmasını tələb edir. Biz bu regionla güclü və hərtərəfli əlaqələr qurmalıyıq. Xüsusilə nəzərə almalıyıq ki, Çin və digər qlobal güclər artıq onlarla əməkdaşlıq edir.

2003-2007-ci illərdə Qərbi Afrika üzrə BMT Baş katibinin xüsusi nümayəndəsi, 2007-2010-cu illərdə BMT-nin Somali üzrə xüsusi elçisi **Ahmedou Ould-Abdallah** bildirib ki, Afrika Yer kürəsinin quru ərazisinin təxminən 20 faizini təşkil edir. Bu da təxminən 30,5 milyon kvadratkilometr deməkdir. Afrikanın əhalisi təxminən 1,3 milyard nəfərdir və bu göstərici ilə qitə Asiyadan sonra dünyada ikinci yerdədir. Bu, dünya əhalisinin təxminən 17,2 faizinə bərabərdir. Afrika həm də ən az inkişaf etmiş ölkələrin böyük hissəsini özündə birləşdirir. Dünyada mövcud olan 48 ən az inkişaf etmiş ölkədən 34-ü məhz Afrikada yerləşir.

“Liberal İnternasional”ın prezidenti və COP22-nin yüksəksəviyyəli iqlim çempionu **Hakima El-Haite** çıxışında Afrikaya fərqli perspektivdən baxdığını bildirib. O vurğulayıb ki, Afrikada demokratiya və regional tərəfdaşlıqların inkişafı vacibdir. Qitədə mineral ehtiyatların və texnologiyanın düzgün istifadə olunması, bərpaolunan enerji sahəsində əməkdaşlıq və iqlim dəyişikliyinə qarşı atılan addımlar Afrika üçün böyük imkanlar yaradır.

Panel iclas işini mövzu ətrafında müzakirələrlə davam etdirib.

# Qlobal Bakı Forumunda Orta Dəhliz müzakirəsi

**XIII Qlobal Bakı Forumu çərçivəsində “Orta Dəhliz və Avrasiya bağlantısı qapısı” mövzusunda keçirilən panel müzakirələri regionun geoiqtisadi gələcəyini müəyyən edən əsas nəqliyyat marşrutlarından biri kimi Orta Dəhlizin əhəmiyyətini bir daha ön plana çıxardı. Avropa ilə Asiya arasında yeni ticarət və logistika imkanlarının formalaşması fonunda bu marşrutun strateji rolu iştirakçılar tərəfindən geniş şəkildə müzakirə edildi. Panelə Boris Tadiç moderatorluq edib.**




Müzakirələrdə Özbəkistan Prezidentinin xarici siyasət üzrə müşaviri Abdulaziz Kamilov, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, Gürcüstanın Baş nazirinin sabiq müavini Eka Tkeşelaşvili, Rumıniya Baş nazirinin sabiq müavini Ana Birçall, Şanxay Əməkdaşlıq Təşkilatının sabiq baş katibi Rəşid Alimov, Qırğızıstanın sabiq Baş naziri Coomart Otorbayev və Lazar Komănesku iştirak edərək Orta Dəhlizin regional və qlobal perspektivləri barədə fikirlərini bölüşüblər.

Panel çərçivəsində səsləndirilən fikirlərdən aydın olub ki, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın genişlənməsi Avrasiyada yeni inteqrasiya mərhələsinin başlanğıcı kimi qiymətləndirilir. Bu yaxınlaşma xüsusilə enerji, nəqliyyat və ticarət sahələrində əməkdaşlığın genişlənməsinə mühüm töhfə verir. Eyni zamanda, region ölkələri yeni nəqliyyat marşrutlarının açılması ilə qlobal bazarlara çıxış imkanlarını artırmağa çalışırlar. Bu baxımdan Zəngəzur dəhlizi kimi layihələr də regional iqtisadi əlaqələrin genişlənməsi üçün mühüm perspektivlər vəd edir.

Müzakirələr zamanı Orta Dəhlizin qlobal ticarət sistemindəki üstünlükləri də xüsusi vurğulanıb. Bildirilib ki, Şərqdən Qərbə yükdaşımaları ənənəvi dəniz marşrutları ilə həyata keçirildikdə bu proses təxminən 40–50 gün çəkir. Lakin Orta Dəhliz vasitəsilə həmin yük axınını cəmi 12–15 gün ərzində çatdırmaq mümkündür. Bu isə logistika xərclərinin azalması və ticarət dövriyyəsinin sürətlənməsi baxımından mühüm üstünlük yaradır.

Panel iştirakçıları həmçinin Azərbaycanın Orta Dəhliz çərçivəsində həyata keçirdiyi infrastruktur layihələrinin regionun gələcək inkişafında mühüm rol oynadığını qeyd ediblər. Xüsusilə nəqliyyat, enerji və rəqəmsal infrastrukturların paralel şəkildə inkişaf etdirilməsi Avrasiya məkanında yeni iqtisadi inteqrasiya modelinin formalaşmasına xidmət edir. Bu kontekstdə Trans-Xəzər Fiber Optik Kabeli layihəsi xüsusi diqqət çəkir. Layihə həyata keçirildiyi təqdirdə Asiya ilə Avropa arasında saniyədə 300 terabit həcmində yüksək sürətli rəqəmsal əlaqə yaradaraq regionda rəqəmsal inteqrasiyanın yeni mərhələsini başlada bilər.

Müzakirələrdə Cənubi Qafqazın geosiyasi mövqeyi və region dövlətlərinin artan roluna da diqqət çəkilib. Qeyd olunub ki, region ölkələri artıq yalnız tranzit məkan kimi deyil, eyni zamanda, regional əməkdaşlığın və strateji qərarların formalaşdığı yeni güc mərkəzi kimi çıxış etməyə başlayır. Bu proses nəticəsində Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında daha sıx strateji tərəfdaşlıq modeli formalaşır.

Panel iştirakçıları Avropa ilə Asiya arasında iqtisadi və nəqliyyat əlaqələrinin genişlənməsinin qlobal sabitlik üçün də mühüm əhəmiyyət daşıdığını vurğulayıblar. Bildirilib ki, enerji təhlükəsizliyi və logistika marşrutlarının şaxələndirilməsi müasir beynəlxalq münasibətlər sistemində milli təhlükəsizliyin əsas elementlərindən biri hesab olunur. Bu baxımdan Qafqaz və Mərkəzi Asiya regionlarının sabitliyi yalnız regional deyil, həm də daha geniş Avroatlantik məkan üçün strateji əhəmiyyət daşıyır.

Qeyd edək ki, Azərbaycan coğrafi mövqeyinə görə Avropa ilə Asiya arasında strateji əlaqə nöqtəsində yerləşərək Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarının qovşağında mühüm rol oynayır. Bu baxımdan xüsusilə Orta Dəhliz – Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Avropa ölkələrinin Asiya bazarları ilə əlaqələrinin genişlənməsi üçün önəmli alternativ nəqliyyat xətti kimi diqqət çəkir. Dəhlizin inkişaf etdirilməsi yalnız ticarət və logistika imkanlarını artırmaqla məhdudlaşmır, eyni zamanda, region dövlətləri arasında iqtisadi əməkdaşlığın dərinləşməsinə və qarşılıqlı əlaqələrin möhkəmlənməsinə də töhfə verir.

Bir müddət öncə, dövlət başçısının Davos İqtisadi Forumunda “Qlobal qapılar” layihəsi çərçivəsindəki çıxışı, Orta Dəhlizinin artan önəmini birbaşa əks etdirirdi. Belə ki, Azərbaycan Prezidentinin sözləri ilə desək, “Azərbaycan Avropa üçün Mərkəzi Asiya ilə bağlantı yaratmaq məqsədi daşıyan yeganə etibarlı, təhlükəsiz və xoşməramlı təyinat ölkəsidir”. Ümumiyyətlə, “Qlobal qapılar” layihəsi Avropa İttifaqının dünya miqyasında davamlı, təhlükəsiz və etibarlı infrastruktur əlaqələrinin qurulmasını hədəfləyən strateji təşəbbüsüdür.

2021-ci ildə Avropa Komissiyası və Avropa İttifaqının Ali Nümayəndəsi rəqəmsal, enerji və nəqliyyat sektorlarında ağıllı, təmiz və təhlükəsiz əlaqələri gücləndirməyə, eyni zamanda, bütün dünyada səhiyyə, təhsil və tədqiqat sistemlərini möhkəmləndirməyə yönəlmiş yeni Avropa strategiyasını - “Qlobal Qapılar” təşəbbüsünü irəli sürüb. Həmin ildən etibarən Avropa komandası (Team Europe) tərəfdaş ölkələrin ehtiyaclarına cavab verən, yerli icmalar üçün uzunmüddətli faydalar təmin edən dayanıqlı və yüksək keyfiyyətli layihələri dəstəkləmək məqsədilə 306 milyard avrodan çox investisiya səfərbər edib.

2025-ci ildə Orta Dəhliz üzrə yük daşımalarının həcmi nəzərəçarpacaq dərəcədə artaraq bu marşrutun Avrasiya nəqliyyat sistemində getdikcə daha mühüm rol oynadığını göstərir. Azərbaycan Dövlət Statistika Komitəsi və beynəlxalq hesabatların məlumatlarına görə, ötən il ərzində Azərbaycanın ərazisindən keçən əsas nəqliyyat dəhlizləri ilə ümumilikdə 32,6 milyon ton yük daşınıb.

Bu göstəricinin mühüm hissəsi Şərq-Qərb istiqamətində fəaliyyət göstərən Orta Dəhlizin payına düşür. Belə ki, həmin marşrut üzrə daşımaların həcmi 16,9 milyon ton təşkil edib. Dəhlizin əsas seqmentlərindən biri sayılan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yük axını da artım tendensiyası nümayiş etdirərək 4,5–5,2 milyon ton səviyyəsinə yüksəlib.

Statistik göstəricilər konteyner daşımalarının da dinamik inkişaf etdiyini göstərir. 2025-ci il ərzində Orta Dəhliz vasitəsilə təxminən 77 min TEU (iyirmi futluq ekvivalent) konteyner daşınıb ki, bu da marşrutun beynəlxalq logistika şəbəkəsində artan rolunu əks etdirir.

Nəqliyyat növləri üzrə bölgüyə nəzər saldıqda isə yük axınlarının əsas hissəsinin dəmir yolu vasitəsilə həyata keçirildiyi görünür. Belə ki, il ərzində 14,3 milyon ton yük dəmir yolu ilə daşınıb. Avtomobil nəqliyyatının payı 11,1 milyon ton, dəniz daşımalarının həcmi isə 7,2 milyon ton təşkil edib.

Bu göstəricilər Orta Dəhlizin Avropa ilə Asiya arasında ticarət əlaqələrinin genişlənməsində və regionun tranzit potensialının gücləndirilməsində getdikcə daha mühüm logistik platformaya çevrildiyini aydın şəkildə nümayiş etdirir.

Beləliklə, XIII Qlobal Bakı Forumundakı panel müzakirələr, qlobal nizamdakı göstəricilərə əsasən Orta Dəhliz tədricən Avrasiyanın qlobal ticarət xəritəsində əsas logistika arteriyalarından birinə çevrilir. Region ölkələrinin həyata keçirdiyi infrastruktur layihələri və artan əməkdaşlıq isə bu marşrutun gələcəkdə daha geniş iqtisadi və strateji imkanlar yaradacağını göstərir.

***NA BDALOV***
***XQ***

**Energetika naziri Pərviz Şahbazov ilə Belçikanın keçmiş Baş naziri Yves Letermenin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. Belçikanın quruda külək enerjisi layihələrinin inkişafı üzrə ixtisaslaşmış “W-Kracht” şirkətinin də təmsil olunduğu görüşdə Azərbaycanda bərpaolunan enerji layihələrinin həyata keçirilməsi və ixracı sahəsində əməkdaşlıq imkanları müzakirə edilib.**

# Azərbaycan – Belçika “yaşıl” əməkdaşlığı



Qeyd olunub ki, Azərbaycan regionda sabitlik və konstruktiv əməkdaşlıq üçün mühüm rol oynayır. Bu baxımdan ölkənin enerji siyasəti, xüsusilə bərpa olunan enerji mənbələrinin inkişafı və enerji dəhlizlərinin yaradılması beynəlxalq tərəfdaşların diqqətini cəlb edir. Hazırda Azərbaycanda külək və günəş enerjisi ilə işləyən 11 elektrik stansiyası layihəsinin icra olunduğu və yeni generasiya güclərinin elektrik şəbəkəsinə qoşulma imkanlarının qiymətləndirilməsi məqsədilə şəbəkə üzrə xüsusi araşdırma aparıldığı diqqətə çatdırılıb.

Söhbət zamanı enerji istehsalına tələbatı artıran data mərkəzlərinin yaradılması planları və elektrik enerjisinin Avropaya ixracı üçün nəzərdə tutulan infrastruktur layihələri barədə də məlumat verilib. Bildirilib ki, 2032-ci ildən etibarən Şərqi Avropa ilə elektrik bağlantısının yaradılması planlaşdırılır. Bu baxımdan Azərbaycan enerji istehsalı layihələrində iştirak edən və daha sonra həmin enerjini Şərqi Avropa bazarlarında ticarətə çıxaran Avropa şirkətləri ilə əməkdaşlıqda maraqlıdır.

Görüşdə bərpaolunan enerji sahəsində əməkdaşlığın perspektivləri üzrə dialoqun davam etdirilməsi qərara alınıb.

***XQ***

# Özbəkistanın Üstyurd yatağının imkanları öyrənilir

**bp Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Özbəkistanın Üstyurt bölgəsində birgə fəaliyyət imkanlarını öyrənir. Bu barədə şirkətin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Covanni Kristofoli məlumat verib. Onun sözlərinə görə, bu istiqamətdə aparılan müzakirələr həmin layihə çərçivəsində uğurlu nəticə əldə etmək üçün Azərbaycan neftçiləri ilə bacarıq və bilikləri birləşdirməyə imkan verəcək.**

Qeyd edək ki, 2025-ci il iyulun 24-də Özbəkistanın Energetika Nazirliyi, ARDNŞ və “Özbəkneftqaz” Üstyurt neft-qaz regionunun investisiya bloklarında (Boyterak, Terenqquduq, Birqori, Xaroy, Qoraqalpoq və Qulboy) geoloji kəşfiyyat işlərinin aparılmasını və sonrakı karbohidrogen hasilatını nəzərdə tutan hasilatın pay bölgüsünə dair saziş imzalayıblar. Bununla yanaşı, dekabrın əvvəlində Daşkənddə geoloji kəşfiyyat və karbohidrogenlərin hasilatı ilə məşğul olacaq “Ustyurt Operating Company” birgə şirkətinin ofisi açılıb. Dövlət Neft Şirkəti geoloji kəşfiyyat işlərinin aparılması mərhələsində operator qismində çıxış edəcək.

Sazişin şərtlərinə uyğun olaraq ən azı 1000 kvadratkilometr sahədə 3D seysmik kəşfiyyat işlərin aparılması və nəticələrə əsasən bir quyuda geoloji kəşfiyyat işlərinə başlanılması planlaşdırılır. Proqnozlara görə, Üstyurt bölgəsində yerləşən bloklarda 100 milyon ton neft və 35 milyard kubmetr təbii qaz ehtiyatı olan yataq tapıla bilər. Layihə işə salındıqdan sonra Üstyurt yaylasında ildə 5 milyon ton neft hasil etmək imkanının yaranacağı güman edilir. Layihənin ümumi investisiya dəyəri 2 milyard ABŞ dolları məbləğində qiymətləndirilir.

***XQ***

# Dəmir yollarında yeni rəqəmsal xidmət

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti (ADY) Şərq-Qərb beynəlxalq nəqliyyat marşrutu istiqamətində həyata keçirilən konteyner daşımalarının real vaxt rejimində izlənilməsi üçün “Cargo-tracking.ady.az” platformasını istifadəyə verib. Bu barədə XQ-yə ADY-dən məlumat verilib.**




Bildirilib ki, yeni rəqəmsal xidmət yük sahiblərinə, yükgöndərənlərə, daşıyıcılara və digər maraqlı tərəflərə konteynerlərin cari vəziyyəti barədə operativ məlumat əldə etmək imkanı yaradır. “Cargo tracking” platforması tranzit, ixrac və idxal rejimində konteyner daşımalarının rəqəmsal monitorinqini təmin edərək daşıma prosesinin müxtəlif mərhələlərini onlayn şəkildə izləməyə icazə verir ki, bu da logistika əməliyyatlarında şəffaflığı artırır.

Platformanın əsas funksiyaları sırasına konteyner nömrəsi və müvafiq invoys nömrəsi üzrə axtarış, konteynerin göndərilmə və təyinat stansiyası barədə məlumatın əldə edilməsi, konteynerin cari dislokasiyasının əks olunması, eyni zamanda, son əməliyyatın icra olunduğu stansiyanın adının göstərilməsi daxildir. “Cargo tracking” marşrut üzrə stansiyalarda giriş və çıxış tarixlərinin və proqnozlaşdırılan çatma vaxtının göstərilməsini, gecikmə müddətinin hesablanması və əks olunmasını, həmçinin konteynerin əsas texniki (pasport) məlumatlarının təqdim edilməsini təmin edir.

Qeyd edək ki, innovativ həllərin tətbiqi ilə yaradılmış yeni sistem hələlik Azərbaycan və Qazaxıstan ərazilərini əhatə edir. Növbəti mərhələlərdə isə Orta Dəhliz üzrə digər ölkələrlə inteqrasiyası da nəzərdə tutulur. ADY-nin məlumatına əsasən, platformanın tətbiqi rəqəmsal xidmət modelinin inkişafına mühüm töhfə verir. İnnovativ texnoloji həllərin tətbiqi yükdaşımaların idarə edilməsində avtomatlaşdırmanı və məlumat mübadiləsini daha da təkmilləşdirir. Yeni xidmət tranzit konteyner daşımalarının rəqəmsal monitorinqi sahəsində mühüm mərhələ olmaqla regionda logistika proseslərinin, o cümlədən konteyner daşımalarının daha səmərəli, operativ və şəffaf idarə olunmasına geniş imkanlar yaradır.

***XQ***

# Mil düzünün çıraqban gecəli şəhəri

**Beyləqanda həyata keçirilən abadlıq və yenidənqurma tədbirləri çərçivəsində şəhərin ictimai məkanları daha da müasirləşir və gözəlləşir. Sakinlərin və qonaqların sevimli istirahət məkanlarından sayılan Mədəniyyət və istirahət parkında isə işıqlandırma sistemi tamamilə yenilənib.**

müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır. Bu məqsədlə rayonun müxtəlif ərazilərində abadlıq, yaşıllaşdırma, təmir-bərpa və yenidənqurma işləri mərhələli şəkildə həyata keçirilir.



Rayon icra hakimiyyətinin təşəbbüsü ilə həyata keçirilən işlər nəticəsində park ərazisində müasir standartlara cavab verən işıqlandırma dirəkləri quraşdırılıb. Qurumdan verilən məlumata görə, parkın mərkəzi hissələrində və ziyarətçilərin tez-tez üz tutduğu məkanlarda işıqlandırmanın səviyyəsi artırılıb, mövcud sistem yenilənərək daha səmərəli və estetik görünüşə gətirilib. Parkın əhəmiyyəti nəzərə alınaraq Şəhidlər abidəsinin yerləşdiyi ərazidə də müasir işıqlandırma qurğuları quraşdırılıb.

Görülmüş işlər nəticəsində parkın gecə saatlarında işıqlandırılması xeyli yaxşılaşdırılıb, ərazi daha təhlükəsiz və rahat istirahət məkanına çevrilib. Artıq sakinlər və rayonun qonaqları günün qaranlıq vaxtlarında da parkda gəzintiyə çıxır, asudə vaxtlarını xoş və təhlükəsiz keçirirlər. Yeni işıqlandırma sistemi həm də parkın ümumi estetik görünüşünü zənginləşdirərək onun gecə mənzərəsini daha gözoxşayan və cazibədar edib.

Qeyd edək ki, Beyləqan Rayon İcra Hakimiyyəti tərəfindən sosial infrastrukturun inkişafı, yaşayış məntəqələrinin abadlaşdırılması və ictimai məkanların

Rayon rəhbərliyi tərəfindən qarşıya qoyulan əsas məqsədlərdən biri Beyləqanın daha müasir, abad və rahat yaşayış məkanına çevrilməsi, eyni zamanda, sakinlərin asudə vaxtının səmərəli və mənalı təşkili üçün əlverişli şəraitin yaradılmasıdır. Bu istiqamətdə həyata keçirilən layihələrin bundan sonra da ardıcıl şəkildə davam etdirilməsi nəzərdə tutulur.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Asiya nəhənginin siyasi planlaşdırması və strateji tərəfdaşlıq

*“İki sessiya”nın Azərbaycan–Çin münasibətlərinin dinamikasına təsiri*

**Martın 13-də Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli Səfiri xanım Lu Mey Çində “iki sessiya”nın yekunlarına, eləcə də Azərbaycan–Çin münasibətlərinin inkişafının son tendensiyalarına həsr olunmuş brifinq keçirmişdir.**



Martın 4-dən 12-dək keçirilmiş Ümumçin Xalq Nümayəndələri Məclisi və Çin Xalq Siyasi Məşvərət Konfransı Ümumçin Komitəsinin sessiyaları çərçivəsində hökumətin işçi məruzəsi və 15-ci beşilliyin əsas istiqamətləri təsdiqlənmişdir ki, bu da həm ÇXR-in iqtisadi kursuna, həm də qlobal qeyri-sabitlik şəraitində ölkənin xarici siyasətdəki mövqelərinə əlavə institusional müəyyənlik gətirmişdir.

Prezident İlham Əliyev ikitərəfli əlaqələrin keyfiyyətcə dərinləşməsini qısa zaman ərzində münasibətlərin strateji tərəfdaşlıq mərhələsindən hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi ilə birbaşa əlaqələndirmişdir. 2024-cü ilin iyulunda və 2025-ci ilin aprelində imzalanmış mühüm dövlətlərarası sənədlər qarşılıqlı fəaliyyət üçün yeni siyasi çərçivə formalaşdırmışdır. Buna görə də dövlət başçısının “ikitərəfli iqtisadi əlaqələrin inkişafına böyük təkan verib” fikri münasibətlərin yeni mərhələsinin dəqiq səciyyələndirilməsi kimi qəbul edilməlidir. Bu baxımdan Prezident İlham Əliyevin daha iki ideyası xüsusi önəm daşıyır: “yaşıl enerji” və nəqliyyat sahələrində tərəfdaş kimi Çin şirkətlərinin seçilməsi Azərbaycanın “strateji qərarı” adlandırılmış, ölkəmiz isə gələcəkdə artan Avrasiya yük axınlarının “fasilitatoru” və paylayıcı qovşağı kimi müəyyən edilmişdir.

Xanım Lu Mey Çini strateji proqnozlaşdırılması mümkün olan dövlət kimi təqdim edir. Məhz bu məqamda onun “iki sessiya”nı və 15-ci beşilliyi qeyd etməsi mühüm siyasi məna kəsb edir. Çin özünü yalnız böyük iqtisadiyyat kimi deyil, həm də inkişafı konkret məqsədlər, mexanizmlər və layihələr dilinə çevirməyə qadir uzunmüddətli planlaşdırma sistemi kimi göstərir. 12 martda ÜXNM sessiyası başa çatdıqdan sonra həm hökumətin iş məruzəsi, həm də 15-ci beşilliyin əsas sənədləri təsdiqlənmiş, 2026-cı il üçün istiqamətlər ölçülə bilən parametrlərlə müəyyən edilmişdir: 4,5–5 faiz artım, 12 milyondan çox yeni iş yeri, CPI, təxminən, 2 faiz. Bu, Pekinin qlobal qeyri-müəyyənlik dövründə makroiqtisadi sabitliyin və uzunmüddətli baxışın azsaylı mərkəzlərindən biri olaraq qalmaq niyyətinə dair vacib siqnaldır.

Digər məqam isə ondan ibarətdir ki, səfir dayanıqlılığı inertliklə deyil, innovativ yenilənmə ilə əlaqələndirir. Onun “islahat”, “innovasiya”, “AI plus” və “intellektual iqtisadiyyat”ın formalaşdırılması xətti göstərir ki, Çin dünyaya süni intellektin, kvant texnologiyalarının, biotibbin və robototexnikanın dövlətin inkişaf strategiyasının tərkib hissəsinə çevrildiyi yeni texnoloji gündəm təklif edir. Çin elmi-texniki sıçrayışı institusional çərçivəyə salmağa və eyni zamanda, onun ətrafında beynəlxalq kooperasiyanı genişləndirməyə çalışır.

Xanım Lu Meyin üçüncü tezisi Azərbaycan üçün daha əhəmiyyətlidir: Çin diplomatiyası açıqlıq, əlaqəlilik və birgə inkişaf diplomatiyası kimi təqdim olunur. Azərbaycan kontekstində bu, xüsusilə önəmlidir. Çünki münasibətlər 2025-ci ilin aprelində hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldildikdən sonra ikitərəfli gündəlik artıq rəqəmsal iqtisadiyyatı, “yaşıl inkişafı”, elmi və texnologiyanı əhatə edir.

Səfir dəqiq şəkildə göstərir ki, müasir Çinin cəlbediciliyi təkcə böyük sivilizasiya simvolları deyil, həm də gündəlik mədəniyyət, həyat tərzi və Çin reallığı ilə şəxsi təmaslar üzərində qurulur. Bir çox insanın “çinli olmaq” fenomeninə yaxınlaşmaq istəyi kənardan müşahidə mövqeyindən birbaşa iştirakçı mövqeyinə keçidi ifadə edir. Bu baxımdan 16 iyul 2025-ci il tarixindən etibarən adi pasport sahibləri üçün qüvvəyə minmiş qarşılıqlı vizasız rejimi və bu ilin yanvarında Biləsuvarda Azərbaycan Dillər Universitetinin nəzdində Konfutsi İnstitutunun yeni filialının açılmasını qeyd etmək lazımdır.

Xanım Lu Meyin çıxışında mədəni-humanitar aspekt üzvi surətdə strateji müstəviyə keçir. 23 aprel 2025-ci il tarixində hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulması haqqında Birgə Bəyanatın imzalanmasından və bu il 28 yanvar tarixində xarici işlər nazirləri Van İ və Ceyhun Bayramov arasında aparılmış danışıqlardan sonra Azərbaycan–Çin əlaqələri uzunmüddətli qarşılıqlı fəaliyyətin dayanıqlı xətti kimi səciyyələndirilir: inkişafın uzlaşdırılmasından və humanitar mübadilələrdən çoxtərəfli platformalarda koordinasiyaya qədər.

Xanım səfirin gətirdiyi, Astara vasitəsilə 600-dən çox Çin Xalq Respublikası vətəndaşının təxliyəsinə Azərbaycanın yardım göstərməsi nümunəsi xüsusilə səciyyəvidir. Bakının getdikcə Avrasiya diplomatiyasının daha nəzərəçarpan platformasına çevrildiyi də reallıqdır. Bunu cari ildə ölkəmizdə ESCAP-ın 82-ci sessiyasının, WUF13-ün və payızda AİGK sammitinin keçirilməsi də təsdiq edəcək.

Azərbaycan–Çin əməkdaşlığı artıq sadə əmtəə dövriyyəsi artımı çərçivəsindən çıxmış və tədricən strateji-iqtisadi əlaqəlilik keyfiyyəti qazanmağa başlamışdır. 2025-ci ildə ikitərəfli ticarətin 4,87 milyard dollara çatması və bu ilin yanvar ayında dinamikanın daha da güclənməsi özlüyündə mühüm göstəricilərdir. Lakin bundan da vacibi odur ki, qarşılıqlı fəaliyyət “yaşıl enerji”, sənaye yığımı, İKT və infrastruktur sahələrində dərinləşir.

Qeyd edək ki, “Xızı–Abşeron” layihəsi xüsusi əhəmiyyət daşıyır. Bu layihədə Çinin iştirakının Azərbaycan iqtisadiyyatında yalnız ticarət və ya tranzitlə deyil, həm də “yaşıl keçid” prioritetləri ilə necə əlaqələndiyini əyani şəkildə göstərən nümunəyə çevrilmişdir. Layihə üzrə rəsmi məlumatlar – 240 MVt quraşdırılmış güc, təxminən 300 min ev təsərrüfatının elektrik enerjisi ilə təmin edilməsi və ildə təqribən 400 min ton karbon emissiyasının azaldılması onun regional miqyasını aydın şəkildə nümayiş etdirir. Buna görə də səfirin Prezident İlham Əliyevin Çin şirkətlərinin peşəkarlığı, keyfiyyəti və operativliyi barədə fikirlərinə istinad etməsi daha dərin məna daşıyır.

Van İnin martın 8-də İran ətrafındakı vəziyyətlə bağlı ifadə etdiyi Çin Xalq Respublikası mövqeyi, yəni atəşin dərhal dayandırılması, suverenliyə hörmət, gücdən sui-istifadədən imtina, daxili işlərə qarışmamaq və siyasi nizamlanmaya qayıdış, Çini prinsipiallığı deskalasiya ilə birləşdirməyə can atan bir qüvvə kimi göstərir.

Dünya üçün bu, Yaxın Şərq gündəliyini beynəlxalq hüququn və danışıqlar məntiqinin çərçivəsinə qaytarmaq cəhdidir, gərginlik ocağına bilavasitə yaxın yerləşən və eyni zamanda, məsuliyyətli regional aktor statusunu möhkəmləndirən Azərbaycan üçün isə belə xətt xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma ölkəmizin suverenlik, ərazi bütövlüyü və öz sərhədləri ətrafında pozuculuğa yol verilməməsi məsələlərinə həssas münasibəti ilə birbaşa səsləşir.

Bütövlükdə, səfir Lu Meyin brifinqi təsdiqlədi ki, çağdaş Çin dünyaya yalnız öz daxili inkişafının parametrlərini deyil, həm də beynəlxalq məsuliyyət, açıqlıq və tərəfdaşlıq barədə öz baxışını çatdırmağa çalışır. Azərbaycan üçün səsləndirilən qiymətləndirmələr xüsusilə önəmlidir. Məhz buna görə də Bakı ilə Pekin arasında indiki yaxınlaşma müvəqqəti diplomatik fəallaşma deyil, Avrasiya əməkdaşlığının yeni arxitekturasının formalaşmasına doğru daha geniş tendensiyanın tərkib hissəsi kimi qiymətləndirilməlidir. Bu fonda Azərbaycan–Çin strateji tərəfdaşlığı daha geniş regional və beynəlxalq proseslər üçün də böyük əhəmiyyət kəsb edir.

*Nurlu ABDALOV*
*XQ*

**Martın 13-də Qərbi Azərbaycan İcmasında tədqiqatçı Kamal Adıgözəlovun müəllifi olduğu “Qərbi Azərbaycan geosiyasi faktor kimi: ideyanın intibahı” adlı monoqrafinın təqdimatı keçirildi.**

# “Qərbi Azərbaycan geosiyasi faktor kimi: ideyanın intibahı”



Tədbirdə Qərbi Azərbaycan İcması Ziyalılar Şurası sədrinin müavini, akademik Nizami Cəfərov, QAİ İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov, QAİ Ziyalılar Şurası sədrinin müavini, pedaqogika elmləri doktoru, professor Fərrux Rüstəmov, Milli Məclisin deputatları, alimlər, ictimai xadimlər, tədqiqatçılar və media nümayəndələri iştirak edirdilər.

Çıxış edənlər kitabın Qərbi Azərbaycan məsələsinin geosiyasi və politoloji aspektdən araşdırılması baxımından mühüm elmi əhəmiyyət daşıdığını vurğuladılar. Kitabın müəllifi Kamal Adıgözəlov bildirdi ki, monoqrafiyada məsələ müasir beynəlxalq münasibətlər kontekstində təhlil olunub, tarixi, siyasi və geosiyasi aspektlərin qarşılıqlı əlaqəsi elmi yanaşma ilə araşdırılıb. Araşdırmada XVIII əsrin ikinci yarısından başlayaraq XXI əsrin üçüncü onilliyinə qədər Qərbi Azərbaycan məsələsinin müxtəlif mərhələlərdə necə dərk edildiyi təhlil olunub. Kitabda sovet dövrünün araşdırılmasına xüsusi yer ayrılıb, həmçinin Millətlər Liqası və BMT-nin Qərbi Azərbaycanla bağlı mövqeləri konkret sənədlər əsasında təhlil edilib.

Təqdimat mərasimində çıxış edən akademik Nizami Cəfərov Qərbi Azərbaycan məsələsinin elmi əsaslarla araşdırılmasının və ictimai müzakirəyə çıxarılmasının vacibliyini vurğuladı. O bildirdi ki, təqdim olunan monoqrafiya bu istiqamətdə aparılan tədqiqatlara mühüm töhfədir.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa isə bildirdi ki, monoqrafiyada Qərbi Azərbaycanla bağlı tarixi faktların sistemli şəkildə araşdırılması mövzunun elmi əsaslarla təqdim olunmasına xidmət edir.

Qeyd edək ki, “Qərbi Azərbaycan geosiyasi faktor kimi: ideyanın intibahı” monoqrafiyası Azərbaycanın milli dövlətçilik tarixinin tədqiqatçıları, müəllimlər, tələbə və doktorantlar, siyasətçilər, dövlət qulluqçuları və mövzu ilə maraqlanan geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

*T.ARAZOĞLU*
*XQ*

# Dünya birliyi Hindistanda repressiyaları ittiham edir



**Bakı Təşəbbüs Qrupu və Siqh Federasiyasının birgə təşkilatçılığı ilə BMT-nin İnsan Hüquqları Şurasının 61-ci sessiyası çərçivəsində “Hindistan hökumətinin transmilli repressiyalarına qarşı mübarizə: Siqhlərin müqaviməti və BMT” mövzusunda beynəlxalq konfrans keçirilib.**

Tədbirdə Kanada, Böyük Britaniya, Avstraliya, ABŞ, İsveçrə və digər ölkələrdə fəaliyyət göstərən siqh diasporunun tanınmış nümayəndələri, hüquq müdafiəçiləri, həmçinin Hindistan hökumətinin həyata keçirdiyi təqib və repressiv siyasətdən birbaşa zərər çəkmiş şəxslər iştirak ediblər.

BTQ-nin İcraçı direktoru Abbas Abbasov, Siqh Federasiyasının rəhbəri Bual Moninder, təşkilatın Birləşmiş Krallıq üzrə icraçı direktoru Dabinderjit Singh, Siqh Network media platformasının sədri Khatkar Jaswinder Singh və digərləri Hindistan hökumətinin müxtəlif ölkələrdə yaşayan siqh fəallarına və diaspor nümayəndələrinə qarşı həyata keçirdiyi transmilli təzyiq və təhdidlər barədə danışaraq, belə halların getdikcə daha da artdığını vurğulayıblar. Konfrans iştirakçıları vurğulayıblar ki, bu cür halların qarşısının alınması üçün beynəlxalq ictimaiyyət məsələyə daha diqqətlə yanaşmalı, beynəlxalq təşkilatlar və insan hüquqları institutları Hindistan hökumətinin üzərinə düşən öhdəlikləri yerinə yetirməsi üçün təzyiqləri gücləndirilməlidir.

Tədbirdə BMT və onun müvafiq qurumlarının siqh mövzusunu gündəliyinə çıxarması, habelə Hindistandakı müxtəlif etnik xalqların və dini qrupların hüquqlarının tanınmaması və kobud pozuntu hallarının sistemli şəkildə sənədləşdirilməsi və beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə xüsusi məruzəçilərin təyin edilməsi istiqamətində işlərin başlanmasına dair razılığa gəlinib.

# Goranboyda Novruzqabağı el şənliyi



**Novruz bayramı münasibətilə ölkənin müxtəlif bölgələrində olduğu kimi, Goranboy rayonunda da silsilə tədbirlər təşkil olunur. Rayonun Qaradağlı kəndində keçirilən bayramqabağı şənlik isə öz rəngarəngliyi və məzmunu ilə yadda qalıb.**

Goranboy Rayon İcra Hakimiyyəti, Qərbi Azərbaycan İcması və Gəncə Daşkəsən Regional Mədəniyyət İdarəsinin Goranboy nümayəndəliyinin birgə təşkilatçılığı ilə gerçəkləşən tədbirdə rayon rəhbərliyi, icra strukturlarının nümayəndələri, icma üzvləri, mədəniyyət işçiləri və kənd sakinləri iştirak ediblər.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev iştirakçıları salamlayaraq Novruz bayramının Azərbaycan xalqının qədim ənənələrini, mənəvi dəyərlərini və birlik ruhunu özündə birləşdirən mühüm bayramlardan biri olduğunu qeyd edib. O bildirib ki, bu bayram insanların birliyini, qarşılıqlı hörmətini və milli kimliyini daha da gücləndirir. Azərbaycan dövləti hər zaman soydaşlarımızın hüquqlarının qorunmasına və onların tarixi torpaqları ilə bağlı məsələlərin beynəlxalq müstəvidə gündəmdə saxlanmasına xüsusi önəm verir.

Təntənəli mərasimdə qeyd edilib ki, Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə Qərbi Azərbaycan məsələsinə toxunaraq tarixi ədalətin bərpasının və azərbaycanlıların öz doğma yurdlarına sülh yolu ilə qayıdış hüququnun təmin edilməsinin vacibliyini vurğulayıb. Bu istiqamətdə Qərbi Azərbaycan İcması mühüm rol oynayır və icma soydaşlarımızın hüquqlarının müdafiəsi, onların səsinin beynəlxalq platformalarda çatdırılması və qayıdış ideyasının təşviqi üçün müxtəlif layihələr və təşəbbüslər həyata keçirir.

Novruz şənliyi bayramın rəmzi sayılan tonqal ətrafında bədii hissə ilə davam edib. Rayonun incəsənət ustaları geniş konsert proqramı ilə çıxış ediblər. Musiqi nömrələri, folklor nümunələri və xalqımızın qədim adət-ənənələrini əks etdirən səhnəciklər nümayiş etdirilib. Çoxsaylı iştirakçılar milli birlik, həmrəylik və baharın gəlişini təcəssüm etdirən Novruz ənənəsini böyük sevinc və coşqu ilə qeyd ediblər.

*Hm letQ ASIMOV,*
*XQ-nin Gəncəbasar müxbiri*

# Şəki və Qəbələdə “yaşıl” aksiyalar

**Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Yaşıl marafon” kütləvi ağacəkmə kampaniyasının 2026-cı ilin yaz mövsümü çərçivəsində növbəti aksiyaları Şəki və Qəbələ rayonlarında təşkil edilib.**



Aksiyalar IDEA könüllülərinin iştirakı ilə Qəbələ rayonunun Xırxatala kəndində və Şəki rayonunun Turan qəsəbəsində keçirilib. Tədbir çərçivəsində ümumilikdə



1500-ə yaxın ağac əkilib. Əkilən ağaclar arasında Eldar şamı, çinar və sidr kimi növlər yer alıb.

Qeyd olunub ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən “Ümumrespublika yaşıllaşdırma marafonu”nun – “Yaşıl marafon”un əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir. Bildirilib ki, “Yaşıl marafon” çərçivəsində ötən ilin payız və 2026-cı ilin yaz əkin mövsümlərini əhatə edən ağacəkmə aksiyaları zamanı ölkə üzrə ümumilikdə iki milyona yaxın ağacın əkilməsi nəzərdə tutulur.

*XQ*

*Təqvim yada salır*




**Tarixin müxtəlif mərhələlərində söz ustadları dövrün gerçəkliklərini, cəmiyyətin düşüncə tərzini ədəbiyyatın dili ilə gələcək nəsillərə çatdırıblar. Yazıçı və şairlər öz əsərləri, zamana sığmayan fikirləri ilə söz, sənət xəzinəsi yaradıblar. Türk dünyasının ulu ozanı Dədə Qorqud, Şərq təfəkkürünün zirvəsi dahi Nizami, insan ucalığını poetik sözlə ifadə edən Nəsimi, bəşəri sevginin bənzərsiz tərənnümçüsü Məhəmməd Füzuli, maarifçi düşüncənin banisi Mirzə Fətəli Axundzadə, milli oyanışa məşəl tutmuş Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və zamanın ağrısını satiranın gücü ilə ifadə edən Mirzə Ələkbər Sabir kimi şəxsiyyətlərin Azərbaycan ədəbiyyat tarixində xidmətləri misilsizdir.**

**Milli ədəbiyyatımızda onilliklərdir ki, bu ulu yolun davamçısı olan, sözün nüfuzunu milli təəssübkeşliklə qoruyan, zamanın və insan taleyinin incə qatlarını bədii düşüncə ilə ifadə edən söz xiridarları sırasında xalq yazıçısı Anarın özünəməxsus yeri var. Dünya şöhrətli ədibin müxtəlif dövrlərin ictimai, siyasi, mənəvi mühitini əks etdirən, insanın daxili dünyasından xəbər verən, bədii təfəkkürün məhsulu olan əsərləri geniş oxucu auditoriyası qazanmaqla yanaşı, həm də xalqın mənəvi yaddaşına çevrilib. Uzun illərdir Azərbaycan Yazıçılar Birliyinə rəhbərlik edən yazıçının nəsr, dramaturgiya və publisistika sahəsində yazdığı əsərlər ədəbiyyatımızın müasir mərhələsinin formalaşmasında mühüm rol oynayıb. Bədii söz haqqında düşüncələri ilə oxucunu dialoqa çağıran görkəmli yazıçı ilə ədəbiyyatımızın bugünkü mənzərəsi və keçdiyi yaradıcılıq yolu haqqında söhbəti təqdim edirik.**

*Xalq yazıçısı Anarın 88 yaşı tamam olur*

# Çağdaş ədəbiyyatımızın bayraqdarı

**– Anar müəllim, 90 ilin yamacında, "qoşa səkkiz"in zirvəsində həyat və yaradıcılıq yolu necə görünür?**

– Ötən illərə nəzər salsaq, yalnız gərgin əmək görərik. Burada mənim yaradıcılığım, Yazıçılar Birliyindəki çoxillik fəaliyyətim, həm də ictimai-siyasi işlərim birləşir. Bir sözlə, istirahətə vaxt ayırmadan, bütün ömrümü yaradıcılığa və işə həsr etmişəm.

**– Ömrünüzün 53 ili sovet dönəmində keçib. 35 ildir ki, müstəqillik dövründə yaşayırsınız. Bu illər sizdən nələri aldı, nələri verdi?**

– Bu suala cavab vermək üçün gərək bütün həyatımı danışım. Onu deyə bilərəm ki, bir müddətdir yeni kitab üzərində işləyirdim, artıq tamamlamışam və bu günlərdə nəşriyyata təqdim edəcəyəm. "Keçən keçdi, olan oldu" adlandırdığım kitabda ötən illərdən ətraflı bəhs etmişəm.

Sovet dövründə yazıçı üçün ən böyük maneə senzura idi. "Qlavlit" adlanan senzura bir çox şeyə qadağa qoyurdu. İndi isə senzura yoxdur, hər kəs istədiyini yaza bilər. Lakin başqa bir problem yaranıb: ədəbiyyata maraq azalıb. Hər dövrün özünəməxsus qayğıları, çətinlikləri, eyni zamanda, üstünlükləri var.

**– Məmmədxanlılar və Rəfibəylilər nəslinə mənsubluğunuz sizdə fərqlilik düşüncəsi yaradıbmı?**

– Əlbəttə, həm ata, həm də ana tərəfdən soyadımla qürur duyuram. Çünki bu nəsil Azərbaycan xalqına çox böyük şəxsiyyətlər bəxş edib, onların səmərəli və zəngin fəaliyyətləri olub. Lakin heç bir vaxt mən özümü kimdənsə üstün və ya əlahiddə bir insan hesab etməmişəm.

**– Ədəbiyyata gəlişiniz asan olmayıb. Sizin "bədii həqiqətinizlə" "həyat həqiqəti" arasında ciddi fərqlər axtarıblar. Tapıblarmı?**

– Yəqin ki, tapa bilməyiblər. İlk vaxtlar nə yazmışamsa, tənqid olunmuşam: hekayə yazdım tənqid etdilər, povestlərim, kitablarım da eyni aqibətlə üzləşdi. Hətta "Qobustan" jurnalındakı fəaliyyətim də tənqid hədəfinə çevrildi. Amma illər sonra həmin adamlar birbaşa etiraf etməsələr də, haqqımda tamamilə fərqli mövqedən yazmağa başladılar. Səhvlərini boynuna almağa cəsarəti çatmayanlar belə, nə qədər yanıldıqlarını dolayı yolla göstərdilər. Onların bədii dəyərini danmağa çalışdıqları əsərlərim həm ölkəmizdə, həm də dünyada öz təsdiqini tapdı, sevildi və böyük uğur qazandı.

**– Belə münasibət qısqanclıq idi, yoxsa köhnəfikirlilik?**

– Məncə, bu münasibətin böyük bir qismi qısqanclıqdan doğurdu. Digər tərəfdən, yeniliyi qəbul etmək çox zaman çətin olur. Adətən, bəzi insanlar fərqli bir şey görəndə "başa düşmürəm" yox, "pisdir" deyirlər. "Anlamıramsa, deməli, dəyərsizdir" düşüncəsi ilə hökm verirlər. Doğrudur, vaxt keçir, səhvlərini anlayırlar, amma bunu dilə gətirməyə hünərləri çatmır.

Məsələn, vaxtilə postmodernist iddialarla ortaya çıxanlar, Yazıçılar Birliyini hədəf alanlar var idi. Zənn edirdilər ki, ədəbiyyat onlarla başlayır. Bu gün həmin insanların çoxu səhv etdiklərini bilir. Mən onların artıq doğru yola gəldiklərini görürəm, bəlkə, daxilən peşmandırlar da. Lakin "mən o vaxt səhv etmişəm" deməyə, təəssüf ki, hələ də cəsarət etmirlər.

**– Yazıçı taleyi yaşamaq çətindirmi?**

– Yazıçılıq dünyada ən çətin peşədir. Çox qəribədir ki, ağır zəhmət tələb edən bu sənət kənardan çoxlarına asan görünür. Elə bilirlər ki, yazıçı olmaq üçün, sadəcə, vərəq-qələm götürüb və ya kompüter arxasına keçib nə isə yazmaq kifayətdir. Lakin yazmağa başladıqları anda görürlər ki, yaxşı yazıçı olmaq, ortaya sanballı əsər qoymaq düşündükləri qədər asan iş deyil. Necə ki, hər kəsdən peşəkar cərrah, mahir pianoçu və ya uğurlu idmançı çıxmır, eləcə də yazıçı olmaq da hamıya nəsib olmur. Bu, Tanrının bəxş etdiyi fitri istedaddır.

**– İstedad, dünyagörüşü öz yerində, bəs çətinlik nədədir?**

– Yazıçılığın çətinliyi onun fasiləsizliyindədir. Digər peşə sahiblərindən fərqli olaraq, yazıçının iş saatı bitmir. İnsanlar müəyyən vaxtdan sonra dincəlir, ildə bir dəfə məzuniyyətə çıxırlar, amma yazıçı üçün təqvimdə nə istirahət günü, nə də məzuniyyət var. Onun beyni və qəlbi gecə-gündüz məşğuldur.

**– Müasir dövrdə yazıçı üçün ən böyük məsuliyyət nədir?**

– Bütün zamanlarda yazıçı üçün ən böyük məsuliyyət həqiqəti söyləmək və hər zaman onun tərəfində dayanmaqdır.

**– Dünya ədəbiyyatının sanballı nümunələrinə baxanda görürük ki, söz bəzən zamanın sərhədlərini aşaraq əbədiyyətə qovuşur. Lev Tolstoyun "Hərb və sülh" romanı bir epoxanın mənəvi panoramasını yaradır, Fyodr Dostoyevski isə insan ruhunun ən dərin dramatizmini əsrlər boyu oxunan sözə çevirir. Sizin yaradıcılığınızda da zaman və yaddaş mövzusuna tez-tez rast gəlinir. Sizcə, yazıçının sözü hansı məqamda zamanın yaddaşına çevrilir?**

– Adlarını çəkdikləriniz dahi yazıçılardır, o zirvəyə ucalmaq üçün çox yol qət edilməlidir. Şəxsən mən yaradıcılığımda çoxşaxəliliyə üstünlük verirəm; eyni janrda, eyni üslubda yazan yazıçı deyiləm. Əsərlərimin bir qismi sırf realist üslubda yazılıb, digərlərində fantastika və sürrealizm elementlərinə rast gəlmək olar. Bəziləri folklor motivlərinə, bəziləri isə satira və yumora daha yaxındır.

Qeyd etdiyim kimi, müxtəlif janrlarda – hekayə, povest və romandan tutmuş, ssenarilərə, pyeslərə, esse və məqalələrə qədər geniş spektrdə əsərlər yazmışam. Xeyli tərcümələrim var. Hərdən şeir yazsam da, özümü şair hesab etmirəm.

Yazıçının missiyası öz sözünü, öz həqiqətini ifadə etməkdir. Bu sözün nə vaxt və necə dərk olunacağı isə artıq oxucunun təfəkküründən və zamanın hökmündən asılıdır.

**– Ədəbiyyatın ən böyük missiyalarından biri insan ruhunun xəritəsini çəkməkdir. Məsələn, Dostoyevski günah və vicdanın metafizikasını açmağa çalışdı, Kafka isə modern insanın tənhalığını göstərdi. Sizin "Ağ liman" və "Beşmərtəbəli evin altıncı mərtəbəsi" kimi əsərlərinizdə də zahirən adi görünən yaşantıların arxasında böyük psixoloji dramatizm hiss olunur. Sizcə, yazıçının əsas işi hadisələri danışmaqdır, yoxsa insan ruhunun gizli qatlarını üzə çıxarmaq?**

– Ədəbiyyat çoxşaxəlidir: müxtəlif janrlar və fərqli üslublar var. Bir çox müəlliflər hadisələrin zahiri tərəfinə – qəhrəmanın hərəkətlərinə, gediş-gəlişinə, süjetin fiziki axarına daha çox önəm verirlər. Elə yazıçılar da var ki, onların əsas hədəfi insanın daxili aləminin dərinliklərinə nüfuz etməkdir. Məsələn, fransız yazıçısı Marsel Prust qeyd edirdi ki, onun qəhrəmanları, demək olar ki, pəncərəyə yaxınlaşmır və ya qapını açmırlar. Bu o deməkdir ki, zahiri hərəkətlərdən uzaqdırlar.

Yazıçı əsərlərində yalnız insanın nə hiss etdiyini, nə düşündüyünü və hansı duyğularla yaşadığını təsvir edir. Bir sözlə, ədəbiyyatda hər iki yanaşmanın öz yeri var və sənətkarlar bu baxımdan bir-birindən kəskin şəkildə fərqlənirlər.

Mən bir fikri dönə-dönə vurğulayıram: "Beşmərtəbəli evin altıncı mərtəbəsi"ni yalnız məhəbbət romanı kimi xarakterizə etmək doğru deyil. Bəli, sevgi, məhəbbət əsərin ana xəttini təşkil edir, lakin əsas ideya azad olmayan bir cəmiyyətdə azad insanın varlığı və onun faciəsidir.

**– Klassik əsərlərin əsas özəlliyi zamanın sınağından uğurla çıxmasıdır. Şeksprin obrazları bu gün də aramızda yaşayır. Uzun illərdir ədəbi prosesin mərkəzində olan bir ədib kimi deyə bilərsinizmi, əsəri klassikaya çevirən əsas keyfiyyət nədir – mövzu, dil, yoxsa insan təbiətinin universallığı?**

– Hər bir əsərin dəyərini müəyyən edən əsas meyar zamandır. Məsələn, tez-tez işlədilən "canlı klassik" ifadəsini qəbul etmirəm. Məncə, insan sağlığında klassik ola bilməz. Əsərin klassik nümunəyə çevrilib-çevrilmədiyi müəllif bu dünyadan köçəndən onilliklər, bəzən yüz il sonra məlum olur. Əgər bir əsər illər boyu yaşayırsa, yaddaşlarda qalırsa və ona hər zaman tələbat varsa, yalnız o vaxt həmin əsəri klassika adlandırmaq olar.

Buna görə də mənə "canlı klassik" deyə müraciət edənlərə həmişə zarafatla "yarımcanlı klassik" olduğumu bildirirəm. Klassikanı yalnız zaman təyin edə bilər. Hər uğurlu yazını dərhal klassik əsərlər sırasına daxil etmək mənim qənaətimcə doğru deyil.

Yaradıcılığın əsas qayəsi istedaddır. Əlbəttə, Şekspir, Füzuli və Balzak kimi dühaların zirvəsinə ucalmaq hər kəsə nəsib olmur. Lakin dünya ədəbi irsində dərin iz qoyan istənilən nümunənin mayasında müəllif istedadı və bədii təfəkkürün gücü dayanır.

**– Bəs əsərin mövzusu, dili və ya toxunduğu bəşəri duyğular?**

– Hər şey yenə də istedad amilinə söykənir. İstedadlı qələm sahibinin dili də təmiz, səlis olur. Düzdür, bəzən Dostoyevskinin dilinin "kasıb" olduğunu iddia edirlər. Hətta Heminqueyin bu barədə belə bir fikri də var: "Təəccüb edirəm ki, bu qədər pis yazıb, necə belə dahi yazıçı olmaq mümkündür?". Məşhur yazıçı və ədəbiyyatşünas Vladimir Nabokov da Dostoyevskini yazıçı kimi qəbul etmirdi. Amma zaman hər şeyi öz yerinə qoydu: Nabokov böyük sənətkardır, lakin o, Dostoyevski deyil. Dostoyevski daha fundamental mətləblərdən yazan, bəşəri mövzulara müraciət edən dühadır.

**– Milli ədəbiyyatımızda Mirzə Fətəli Axundzadənin maarifçi ideyaları, Cəlil Məmmədquluzadənin və Sabirin milli özünütənqidi bir dövrün portretini yaratdı. Sizin əsərlərinizdə də Bakı mühiti, insan münasibətləri və zamanın ruhu böyük ustalıqla təsvir olunur. Sizcə, yazıçı millətin mənəvi keşikçisidir, yoxsa, sadəcə, insan talelərini qələmə alan salnaməçi?**

– Bu iki amil, əslində, bir-birini tamamlayır. Yazıçı həm dövrün salnaməçisi, həm də fərqli talelərin prizmasından həyatın mənzərəsini canlandıran sənətkardır. Bu iki missiya arasında heç bir təzad yoxdur, əksinə, onlar bir-birini zənginləşdirir.

**– Sizcə, müasir dövrdə ədəbiyyatın cəmiyyətdə rolu dəyişib, yoxsa eyni missiyanı davam etdirir?**

– Əlbəttə, zamanla münasibətlər dəyişib. İndi internet dövrüdür. İndiki gənclərin dördcildlik "Hərb və sülh" romanını axıra qədər oxumasını təsəvvür etmək çətindir. Çox güman ki, heç kim buna vaxt ayırmayacaq. İndi hər şey telefonlardadır. Əvvəllər ədəbiyyatda "teleqraf dili" hakim idisə, indi onu "telefon dili" əvəz edib.

İnsanlar kitab oxumaq əvəzinə, məlumatı telefondan sürətli, qısa, lakonik şəkildə almağa üstünlük verirlər. "Niyə vaxt ayırıb kitab oxumalıyam ki, telefondan hər şeyi öyrənə bilərəm" düşüncəsi hakimdir. Amma bu vəziyyətin keçici olduğuna inanıram. Sənətin əbədi dəyərləri mütləq öz yerinə qayıdacaq.

**– Ümumiyyətlə, ədəbiyyatın cəmiyyətdəki rolu nədən ibarətdir?**

– Ədəbiyyatın cəmiyyətdəki əsas rolu insanların mənəviyyatını formalaşdırmaq və onlara həqiqəti aşılamaqdır. İnsan mənəviyyatı məhz ədəbiyyatla yoğrulur. Dövlət başçımızın da qeyd etdiyi kimi, Azərbaycan dilini inkişaf etdirmək və qorumaq hər birimizin borcudur.

Unudulmamalıdır ki, ana dilinin ən böyük qoruyucusu məhz ədəbiyyatdır. Danışıq, qəzet və televiziya dili öz yerində, lakin dili yaşadan onun bədii qatıdır. Əgər dilimizi yaşatmaq istəyiriksə, ədəbiyyatımıza maraq göstərməli və qorumalıyıq.

**– Bəs bugünkü oxucunun ədəbiyyatdan gözləntisi əvvəlki nəsillərdən nə ilə fərqlənir?**

– Sovet dövründə məcburi abunəlik sistemi sayəsində "Azərbaycan" jurnalı və "Ədəbiyyat" qəzeti on minlərlə tirajla çıxırdı. İndi isə bu məcburiyyət yoxdur. Əvvəllər rəqabət yalnız radio ilə kitab arasında idisə, sonra bura televiziya, indi isə internet əlavə olunub. Müasir gənc telefon vasitəsilə səthi məlumat almaqla kifayətlənir. Məsələn, "Hamlet"in müəllifini öyrənmək üçün bəzilərinə telefon yetərlidir. Günümüzün əsas problemi texniki tərəqqinin mənəvi tərəqqini üstələməsidir. Bu təzad ədəbiyyata və bədii sözə marağı ikinci plana keçirib.

**– Qeyd etdiyiniz kimi, bu gün müasir texnologiyalar və sürətli informasiya axını insanların oxu vərdişlərini dəyişir. Buna baxmayaraq, roman və hekayə janrı hələ də insanın daxili dünyasını ifadə etməyin ən güclü vasitələrindən biridir. Sizcə, XXI əsrdə ədəbiyyat insan üçün nəyi qoruyacaq – düşünmək imkanını, yoxsa hiss etmək qabiliyyətini?**

– Bunu indidən demək çətindir. Düşünmək və duymaq bir-birindən ayrılmazdır. Hissiyyatsız düşünən, yaxud düşünə bilməyən hissiyyatlı insan, əslində, yarımçıqdır. İnsan yalnız bu iki qütbün vəhdətində tamamlanır. Ədəbiyyat bu vəhdəti qorumağa səy göstərməlidir.

**– Siz həm də kinossenarist kimi tanınırsınız. Milli kinomuzun inkişafında yazıçının rolu barədə nə deyə bilərsiniz?**

– Müasir dövrdə kinoda yazıçının rolu heçə endirilib. İndi hər kəs ssenari yazır və müxtəlif yollarla filmlər çəkdirir. Bir fakt deyim. İndiyədək 15 bədii filmim çəkilib, əsərlərim Azərbaycandan başqa, Rusiyada, Türkiyədə və Özbəkistanda da ekranlaşdırılıb. Buna baxmayaraq, artıq 12 ildir ki, kinodan uzaqlaşmışam, daha doğrusu, uzaqlaşdırılmışam. Hazırda 3 mühüm ssenarim var: biri Cəfər Cabbarlıya, biri "Dədə Qorqud"a, digəri isə rus yazıçısı, şair və publisist Buninlə azərbaycanlı yazıçı Ümmülbanu Əsədullayevanın Parisdəki ünsiyyətinə həsr olunub.

Cəfər Cabbarlı haqqındakı ssenari mənim üçün çox əhəmiyyətlidir. Bu, böyük şəxsiyyətlər silsiləsindən beşinci film olmalıdır. Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid və Üzeyir Hacıbəyli haqqında çəkilmiş 4 filmim bu gün də maraqla izlənilir. Amma illərdir ki, Cəfər Cabbarlı haqqında filmin çəkilişinə pul tapılmır. Bunu dəfələrlə televiziyada, digər platformalarda demişəm, lakin heç bir təsiri olmayıb.

Mənim yazdığım 15 ssenari əsasında film çəkilib, 16-cı olmasa da olar. Lakin ədəbiyyata marağın azaldığı bir dövrdə Cəfər Cabbarlı kimi bir sənətkarı ekran vasitəsilə tanıtmaq vacibdir. Çox vaxt insanlar klassiklərimizi oxumurlar, amma filmlərimiz vasitəsilə onları tanıyır, həm həyatı, həm də əsərləri haqqında məlumat alırlar. Cəfər Cabbarlının da mürəkkəb və maraqlı bioqrafiyası var. İki saatlıq bir film gənclərin onun kimliyini dərk etməsi üçün böyük fürsət olardı.

Bu gün hər bir işin mərkəzində maddi maraqlar dayanır, bu isə kapitalizmin reallığıdır. Vaxtilə sosializm quruluşundan narazı idik. Hətta o dövrdə yazdığım məqalələrdə mövqeyimi ifadə etmişəm. Türkiyədəki dostlarım o zaman deyirdilər ki, siz sosializmi bəyənmirsiniz, amma kapitalizmin nə olduğunu hələ bilmirsiniz, görəcəksiniz. Və gördük...

Kapitalizm hər şeyi pula bağladı. Demək olar ki, bu sistem mənəviyyata düşmən kəsilib. Lakin həyatımızın ən böyük üstünlüyü müstəqilliyimizdir. Həmişə deyirəm: tərəzinin bir gözünə problemlərimizi, digərinə müstəqilliyimizi qoysaq, müstəqillik ağır gələr. Çünki xalq üçün ən böyük xoşbəxtlik – azadlıqdır, öz taleyinin sahibi olmaqdır.

Torpaqlarımızın azad edilməsi, dövlət başçısı İlham Əliyevin apardığı düzgün siyasət, ordumuzun gücü və Azərbaycanın regionda lider dövlətə çevrilməsi qürurvericidir. Bütün bu nailiyyətlərin fonunda mədəniyyətimiz də eyni zirvədə olmalıdır. Musiqi, rəngkarlıq, teatr, kino və ədəbiyyat sahələrinə diqqət artırılmalı, bu sahələrə məhz səriştəli, peşəkar insanlar rəhbərlik etməlidir.

Bəzən deyirlər ki, sənin şəxsi incikliyin var. Bəli, var: niyə illərdir filmləri ekranlardan düşməyən bir peşəkar ssenarist bu gün diqqətdən kənarda qalmalıdır? İndi çəkilən hansı film mənim yazdığım ssenarilərdən daha güclüdür? Mənim gileylənməyə haqqım var, yoxsa yox?

**– Zaman dəyişdikcə söz köhnəlir, yoxsa kəsərli söz bütün dövrlərdə öz dəyərini qoruyub saxlayır?**

– Əlbəttə, kəsərli söz hər zaman qiymətlidir. Lakin sözü demək kifayət deyil, gərək öz ünvanına çatsın. Bəzən çox təsirli söz deyə bilərsən, amma qarşındakı qulaqlarını tıxayıbsa, heç bir faydası olmayacaq.

**– Kiçik xalqın yazıçısı böyük xalqın yazıçısından fərqlənirmi?**

– Oxucu auditoriyası baxımından fərqlənir. Bəzən soruşurlar ki, sizdə niyə Nobel mükafatçısı yoxdur? Mən də suala sualla cavab verirəm: "Bəs sizin futbol komandanız niyə Dünya çempionu deyil?" Məsələn, 1 milyarddan artıq əhalisi olan Hindistanın cəmi 1 Nobel mükafatçısı var, Çinin də əhali göstəricisi buna yaxındır və Çinin də ədəbiyyat üzrə bir nobelçisi var. Lakin kiçik Norveç, İsveç və ya Polşa bir neçə Nobel mükafatçısı yetişdirib.

Bu, onu göstərir ki, Nobel mükafatı daha çox Avropa meyarları ilə, son dövrlərdə isə bəzən siyasi konyuktura ilə verilir. Əgər bu mükafatı alanlarla, layiq görülüb almayanların siyahısını müqayisə etsək, ikinci tərəf bəlkə daha ağır gələr. Prust, Kortasar, Qrem Qrin, Moravia, Akutakava, Ekzuperi, Kafka, Coys, Nabokov, Malro, Remark, Nazım Hikmət kimi yazıçılar, eləcə də rus ədəbiyyatının nəhəngləri – Bulqakov, Qorki, Platonov, Mayakovski, Blok, Axmatova, Svetayeva, Yesenin bu mükafatı almayıblar. Deməli, yaradıcılığı Nobel meyarı ilə "yaxşı" və ya "zəif" deyə qruplaşdırmaq tamamilə yanlışdır.

**– Sovet ədəbiyyatından nələr yaşayacaq, nələr itib gedəcək?**

– Mən "sovet ədəbiyyatı" ilə "sovet dövrünün ədəbiyyatı" anlayışlarını bir-birindən fərqləndirirəm. "Sovet ədəbiyyatı" dedikdə, Maksim Qorkinin irəli sürdüyü "sosialist realizmi" metodu ilə yazılan, yalnız sovet quruluşunu tərənnüm edən və süni müsbət qəhrəman obrazlarına söykənən əsərlər nəzərdə tutulur.

"Sovet dövrünün ədəbiyyatı" isə ideoloji çərçivələri aşan böyük sənətdir. Məsələn, Zoşenko, Pasternak və ya Bulqakov sovet dövründə yaşasalar da, yaratdıqları əsərlər quruluşdan asılı olmayaraq böyük ədəbiyyatın nümunələridir. Bir sözlə, sovet dövründə yaşamaq sovet yazıçısı olmaq demək deyil.

**– Yaradıcılığınıza dünya şöhrətli yazıçıların təsiri oldumu?**

– Təbii ki, hər bir yazıçı bu və ya digər formada başqa müəlliflərdən bəhrələnir. Bəzən bunun yalnız zahiri oxşarlıqlarla əlaqələndirilməsi qətiyyən düzgün deyil. Məsələn, "Ağ liman" əsərimin sonunda qəhrəmanın yuxuda uzaqda qırmızı gəmilər görməsi səhnəsi var. Bəziləri rus yazıçısı Aleksandr Qrinin məşhur "Qırmızı yelkənlər" əsəri ilə paralellər aparıb, bunu oradan götürdüyümü iddia edirlər.

Maraqlıdır ki, mən o əsəri heç oxumamışam. Bu, sadəcə, zahiri bənzərlikdir. Mənim yaradıcılığıma Tolstoy, Çexov və Dostoyevski kimi nəhənglərin təsiri olub. Milli ədəbiyyatımızda isə ən çox Cəlil Məmmədquluzadə və "Dədə Qorqud" dastanının yazılarımda təsiri hiss olunur: Çünki təsirsiz yazıçı olmur, sənətkar mütləq böyük sələflərindən nəsə götürməlidir.

**– Bir qərinəlik Qarabağ ağrısı və 44 günlük Qarabağ zəfəri ədəbiyyatımızda necə əksini tapır?**

– Yazıçılar Birliyi olaraq bir neçə kitab, o cümlədən işğaldan azad edilmiş ərazilərdən olan müəlliflərin qələmə aldıqları "44 günün zəfəri" toplusunu nəşr etdik. Elçin Hüseynbəyli, Rəşad Məcid kimi qələm dostlarımızın tərtib etdikləri kitablarla birgə bu mövzuda xeyli iş görülüb. Hətta uğurlu bədii nümunələrə mükafatlar da təqdim etmişik.

Qarabağ zəfəri ilə bağlı fundamental əsərlərin yazılması üçün isə müəyyən vaxt keçməlidir. Bu gün əsas missiyamız qazilərin, döyüşçülərin, keçmiş məcburi köçkünlərin, şəhid ailələrinin, bir sözlə, o ağrıları yaşayan insanların xatirələrini sənədləşdirmək, faktları gələcək nəsillər üçün qoruyub saxlamaqdır.

**– Bugünkü ədəbi mühitin problemləri və perspektivləri barədə nə deyə bilərsiz?**

– Ədəbi mühitin əsas problemi, bayaq qeyd etdiyimiz kimi, oxucu marağının kütləvi şəkildə azalmasıdır. Perspektivlərə gəlincə, inanmaq istəyirəm ki, biz yazıçıların sonuncu nəsli deyilik. Ədəbiyyatın gələcəyi var; bizdən sonra da istedadlı gənclər gələcək.

Bəlkə gələcəkdə oxucu sayı indikindən də az olacaq, lakin burada kəmiyyət yox, keyfiyyət önəmlidir. Ədəbiyyatı dərindən duyan, ona ruhən bağlı olan bir oxucu, sadəcə, kütləvi maraq naminə mütaliə edən minlərlə insandan daha üstündür.

**– Gənc müəlliflərin yaradıcılığında hansı yeni istiqamətləri görürsünüz? Onlar ədəbiyyata yeni mövzu, yaxud yeni baxış gətirə bilirlərmi?**

– Gənclər ədəbi prosesə, şübhəsiz, yeni estetik meyarlar gətirirlər. Ədəbiyyatın inkişafı da məhz bu baxış müxtəlifliyindən asılıdır. Müasir yaradıcılığı keçmişlə müqayisə edib "yaxşı" və ya "pis" kateqoriyalara ayırmaqdansa, fərqliliyi qəbul etmək lazımdır. Əslində, hər bir yeni nəslin borcu ədəbiyyata öz səsiylə öz sözünü gətirməkdir.

**– Uzun və zəngin yaradıcılıq yolu keçmisiniz və bir neçə nəsil sizin oxucunuz olub. Bu gün geriyə baxanda sizi hansı ideya və ya hansı sual düşündürür?**

– Məni ən çox düşündürən ideya sovet dövründə böyük amalımız olan müstəqilliyimizə qovuşmaq idi. Bu arzu artıq reallığa çevrilib. Hesab edirəm ki, hər bir xalq müstəqil olmalı, öz taleyinə, torpağına və gələcəyinə özü sahiblik etməlidir. İkincisi isə torpaqlarımızın azad olunması və Şuşaya qayıtmağımızdır. Bu tarixi anları yaşadığım üçün taleyimdən razıyam.

**– Anar müəllim, maraqlı söhbətə görə təşəkkür edirik.**

*Müsahibəni apardı:*
*Mehparə ƏLİYEVA*
*XQ*

*15 Mart Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günüdür*

# Xidmət bazarının halallıq tərəzisi

## *İstehlakçı hüquqları cəmiyyətin gündəlik tələbat maraqlarını qoruyur*

**Hər il martın 15-i dünyada Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü kimi qeyd olunur. Bu tarix istehlakçıların hüquqlarının qorunmasının, onların təhlükəsiz və keyfiyyətli məhsul və xidmətlər əldə etmək hüququnun gerçəkləşdirilməsinin vacibliyini bir daha xatırladır. Müasir bazar iqtisadiyyatında istehlakçı hüquqları təkcə sosial məsələ deyil, bu, həm də iqtisadi sabitliyin və ədalətli rəqabət mühitinin əsas elementlərindən biri hesab edilir.**

Bu gün istehlakçı hüquqlarının müdafiəsi dövlət qurumları ilə bərabər, biznes strukturlarının və vətəndaş cəmiyyətinin üzərinə düşən mühüm məsuliyyət kimi dəyərləndirilir. Çünki bazar münasibətlərinin sağlam inkişafı məhz istehlakçıların hüquqlarının təmin olunması ilə sıx bağlıdır.

Xatırladaq ki, istehlakçı hüquqlarının müdafiəsi ideyasının beynəlxalq səviyyədə formalaşması XX əsrin ikinci yarısına təsadüf edir. Bu sahədə mühüm dönüş nöqtələrindən biri 1962-ci il martın 15-də ABŞ prezidenti Con Kennedinin bu ölkə Konqresində səsləndirilən məşhur nitqi hesab olunur. Onun həmin çıxışında istehlakçıların təhlükəsizlik, məlumatlandırılma, seçim və eşidilmə kimi dörd əsas hüququnun əhəmiyyəti vurğulanır.



Sonradan bu yanaşma beynəlxalq səviyyədə istehlakçı hüquqları konsepsiyası kimi yüksək dəyərləndirildi və qlobal gündəliyin vacib mövzularından birinə çevrildi. 1985-ci ildə isə Birləşmiş Millətlər Təşkilatı tərəfindən istehlakçıların hüquqlarının müdafiəsinə dair əsas istiqamətləri müəyyənləşdirən xüsusi rəhbər prinsiplər qəbul edildi. Bu sənəd dövlətlər üçün istehlakçı siyasətinin formalaşmasında müəyyənləşdirici rol oynadı və hər il martın 15-i bütün dünyada istehlakçı hüquqlarının müdafiəsi gününün qeyd edilməsinə başlandı.

### İstehlakçıların əsas hüquqları

Beynəlxalq təcrübədə istehlakçıların hüquqları bir neçə əsas istiqamət üzrə müəyyənləşdirilir. Bu sırada təhlükəsiz məhsul və xidmət əldə etmək, düzgün və dolğun məlumat, eləcə də kompensasiya almaq, şikayət bildirmək və sağlam ətraf mühitdə yaşamaq kimi hüquqlar yer alır. Bu hüquqların gerçəkləşdirilməsi həm istehlakçıların rifahına, həm də bazar münasibətlərində şəffaflığın artmasına müsbət təsir göstərir.

Azərbaycanda istehlakçı hüquqlarının qorunması daim diqqət mərkəzində saxlanılır. Dövlət siyasətinin prioritet istiqamətlərindən biri olan bu sahədə əsas hüquqi baza 1995-ci il sentyabrın 19-da qəbul edilən "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanun hesab olunur. Bu sənəd Azərbaycan Respublikasının ərazisində istehlakçılar üçün bərabər mühit yaradılması məqsədilə alqı-satqı prosesində, iş görülməsində və xidmət göstərilməsində istehlakçı ilə istehsalçı, satıcı və icraçı arasında münasibətlərin eyni cür tənzimlənməsinin, habelə, istehlakçıların hüquqlarının müdafiəsinin ümumi hüquqi, iqtisadi və sosial əsaslarını, habelə mexanizmini müəyyənləşdirir. Bu qanunla vətəndaşların istehlakçı hüququ qorunur, eyni zamanda, ticarət təşkilatlarının, o cümlədən xidmətlə məşğul olan sistemin hüquq və vəzifələri diqqətdə saxlanılır.

Bu fikri bir qədər də konkretləşdirib deyə bilərik ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanun istehlakçı anlayışını dəqiq müəyyənləşdirir. İstehlakçı gəlir əldə etmək məqsədi güdmədən əmtəələri alan və istifadə edən, xidmət və iş sifariş verən vətəndaşdır. O, aldığı əşyanın, məhsulun, ona göstərilən xidmətin keyfiyyətli olmasında maraqlıdır. Bu, istehlakçının keyfiyyət hüququdur. Alıcı əmin olmalıdır ki, aldığı qida məhsulları ekoloji və gigiyenik cəhətdən sağlamlıq üçün heç bir təhlükə törətmir. Yaxud hər hansı bir elektrik cihazı mənzildə yanğına səbəb olmayacaqdır. Bu, istehlakçının təhlükəsizlik hüququdur. Əmtəə, xidmətlər və s. haqqında məlumat almaq isə informasiya hüququnu özündə əks etdirir. İstehlakçı dəymiş ziyanın ödənilməsi hüququna malikdir. Belə ki, aldığı hər hansı bir əşya sağlamlığa və yaxud əmlaka ziyan vurarsa, onda onun əvəzini bərpa etməyi tələb etmək hüququ vardır. Beləliklə, istehlakçının hüququnun qorunmasıdır.

Xatırladaq ki, Prezident İlham Əliyev ötən illər ərzində antiinhisar siyasəti və istehlakçıların hüquqlarının müdafiəsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi məqsədilə bir sıra önəmli fərman və sərəncamlar imzalayıb. Həmin sənədlərdə inhisarçılığın qarşısının alınması, haqsız rəqabətlə mübarizənin gücləndirilməsi və istehlakçıların hüquqlarının etibarlı müdafiəsinin təmin olunması qarşıya mühüm vəzifələr kimi qoyulub.

Bu istiqamətdə fəaliyyət göstərən müvafiq qurumların əsas missiyası isə ölkə iqtisadiyyatının dayanıqlı inkişafını gerçəkləşdirən azad rəqabətin və sahibkarlığın səmərəli müdafiəsinin gerçəkləşdirilməsinə şərait yaradılması olub. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", habelə digər sahəvi qanunlara əsaslanılaraq istehlakçıların sərbəst seçim, keyfiyyətli və təhlükəsiz mal, iş və xidmətlər əldə etmək, bazara keyfiyyətsiz malların çıxarılmasının qarşısının alınması sahəsində aidiyyəti dövlət orqanları ilə birlikdə tədbirlər görmək kimi məsələlər uğurla reallaşdırılıb.

Rəqəmsal texnologiyaların sürətli inkişafı ilə dünyada elektron ticarətdən yararlanan istehlakçıların sayı günbəgün artır. Elektron ticarət məsafələri aradan qaldırılaraq istehlakçıya qlobal bazarda alış-veriş etmək imkanı verir. İstehlakçı bu ticarət növü vasitəsilə heç yerə getmədən məhsulların və xidmətləri rahatlıqla əldə edə bilir. Vətəndaş internet üzərindən alqı-satqı həyata keçirərkən, ilk növbədə, satıcı barədə zəruri məlumatları əldə edir. Belə ki, müvafiq satıcı barəsində şikayətlərin olub-olmamasına, həmin onlayn mağazadan daha öncə alış-veriş etmiş istehlakçıların rəylərinə diqqət yetirir. İstehlakçılara satıcının əlaqə məlumatlarının (telefon, elektron poçt ünvanı və s.) paylaşılmadığı satış platformalarından alış-veriş etməmələri məsləhət görülür.

Elektron ticarət zamanı alıcı və satıcı arasındakı müqavilə elektron sənəd formasında bağlanılır. Müqavilənin şərtləri dəqiq və başa düşülən şəkildə tərtib edilməlidir. Mal alarkən müqavilənin bütün şərtlərini diqqətlə nəzərdən keçirmək və bundan sonra alqı-satqını həyata keçirmək lazımdır.

Yeri gəlmişkən, bu gün ölkədə istehlakçı hüquqlarının qorunmasına nəzarət edən əsas dövlət qurumu Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyidir. Bu struktur bazarda keyfiyyətsiz məhsulların qarşısının alınması, istehlakçı şikayətlərinin araşdırılması və qanun pozuntularına qarşı tədbirlərin görülməsi istiqamətində səmərəli fəaliyyət göstərir.

Son illər elektron ticarətin sürətli inkişafı istehlakçı hüquqlarının müdafiəsi sahəsində yeni çağırışlar formalaşdırıb. İnternet üzərindən satışların artması istehlakçılar üçün geniş seçim imkanları yaratsa da, bəzi hallarda saxta məhsullarla, yanlış reklam və keyfiyyətsiz xidmətlərlə bağlı problemlər də ortaya çıxır.

### Elektron ticarət və mövcud çətinliklər

Bu gün rəqəmsal iqtisadiyyatın inkişafı ilə istehlakçı hüquqları sahəsində yeni problemlərlə üzləşilir. Onlayn alış-veriş zamanı məhsulun keyfiyyəti, qaytarılması, şəxsi məlumatların qorunması və ödəniş təhlükəsizliyi kimi məsələlər xüsusi aktuallığı ilə seçilir. Bu baxımdan bir çox ölkələrdə elektron ticarət platformalarının fəaliyyətinə nəzarət gücləndirilir, istehlakçıların hüquqlarının qorunması üçün yeni normativ mexanizmlər tətbiq olunur. Azərbaycanda da bu istiqamətdə qanunvericilik bazasının təkmilləşdirilməsi, elektron ticarət iştirakçılarının məsuliyyətinin artırılması və istehlakçıların məlumatlandırılması istiqamətində önəmli addımlar atılmasına zəruri ehtiyac duyulur.

Beləliklə, Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü təkcə adi tarix deyil. Bu, hazırda dövlətləri, biznes qurumlarını və vətəndaş cəmiyyətini istehlakçıların hüquqlarının qorunması istiqamətində daha səmərəli fəaliyyət göstərməyə çağıran mühüm beynəlxalq təşəbbüsdür. Eyni zamanda, müasir iqtisadi şəraitdə istehlakçı hüquqlarının gerçəkləşdirilməsi sosial ədalətin, iqtisadi sabitliyin və bazar münasibətlərinin sağlam inkişafının vacib şərtlərindən biridir. Bu hüquqların qorunması isə təkcə qanunların mövcudluğu ilə deyil, həm də onların real həyatda səmərəli tətbiqi ilə mümkündür.

*16 Mart Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi Əməkdaşlarının Peşə Bayramıdır*

**Hər bir dövlətin sabitliyi və inkişafı iqtisadi potensial, siyasi iradə və hərbi güclə yanaşı, onun həyati əhəmiyyət daşıyan infrastrukturlarının etibarlı qorunması ilə müəyyən edilir. Enerji infrastrukturu, nəqliyyat qovşaqları, strateji sənaye müəssisələri, su və rabitə sistemləri kimi obyektlər müasir dövlətin səmərəli, eləcə də təhlükəsiz fəaliyyətini gerçəkləşdirən əsas dayaqlar kimi dəyərləndirilir. Məhz bu baxımdan ölkəmizin strateji obyektlərinin mühafizəsi xüsusi dövlət əhəmiyyətli və məsuliyyətli bir missiyadır.**

# Dövlət təhlükəsizliyi şəbəkəsinin etibarlı sipəri

Bu mühüm vəzifəni yerinə yetirən qurumlardan biri də Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyidir. Hər il martın 16-sı bu qurumun əməkdaşlarının peşə bayramı kimi qeyd olunur və bu tarix onların dövlət təhlükəsizliyinin reallaşdırılması sahəsində göstərdikləri xidmətlərin yüksək qiymətləndirilməsinin parlaq ifadəsidir.

### Peşəkarlıq və Vətənə xidmət nümunəsi

Strateji obyektlərin mühafizəsi sistemi dövlətlərin təhlükəsizlik arxitekturasının mühüm tərkib hissəsidir. Azərbaycanın sürətlə inkişaf edən iqtisadiyyatı, xüsusilə enerji və nəqliyyat sahələrində həyata keçirilən iri layihələr bu sahədə mühafizə və təhlükəsizlik tədbirlərinin daha da gücləndirilməsini zəruri edir. Bu baxımdan adıçəkilən agentlik ölkəmizin iqtisadi, enerji və sənaye infrastrukturlarının təhlükəsizliyinin gerçəkləşdirilməsində mühüm rol oynayır. Qurumun əsas vəzifələrindən biri dövlət əhəmiyyətli obyektlərin mühafizəsi, eləcə də onların sabotaj, terror və digər təhlükələrdən qorunmasını təmin etməkdir. Bu fəaliyyət sahəsi təkcə fiziki mühafizə ilə məhdudlaşmır. Eyni zamanda, müasir təhlükəsizlik çağırışları nəzərə alınaraq strateji obyektlərin qorunması sistemində müasir texnologiyalar, rəqəmsal nəzarət sistemləri, xüsusi təhlükəsizlik protokolları və koordinasiyalı operativ fəaliyyət mexanizmləri tətbiq olunur.

Azərbaycan son illərdə regionun əsas enerji və nəqliyyat mərkəzlərindən birinə çevrilib. Xəzər hövzəsinin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasında ölkəmiz mühüm rol oynayır. Bu baxımdan neft-qaz infrastrukturu, elektrik enerjisi stansiyaları, magistral boru kəmərləri və digər strateji obyektlərin təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsi kimi diqqətdə saxlanılır. Belə obyektlərin qorunması iqtisadi maraqlarla bərabər, həm də dövlət suverenliyinin və ictimai sabitliyin təmin olunması baxımından mühüm önəm daşıyır. Agentliyin kollektivi gecə-gündüz xidmət apararaq ölkənin strateji infrastrukturlarının təhlükəsizliyini təmin edir, mümkün təhlükələrin qarşısını almaq üçün operativ fəaliyyət göstərir.

Strateji obyektlərin mühafizəsi sahəsində çalışan əməkdaşlar yüksək peşəkarlıqları, məsuliyyət və vətənə sədaqətləri ilə seçilirlər. Onların fəaliyyəti böyük diqqət, intizam və xüsusi hazırlıq tələb edir. Çünki mühafizə etdikləri obyektlərin təhlükəsizliyi birbaşa olaraq dövlətin iqtisadi sabitliyi və ictimai təhlükəsizliyi ilə bağlıdır. Bu xidmət sahəsinin əməkdaşları təkcə təhlükəsizlik tədbirlərinin icrası ilə deyil, həm də fövqəladə halların qarşısının alınması, operativ reaksiya mexanizmlərinin həyata keçirilməsi və müasir təhlükəsizlik standartlarının mükəmməl tətbiqi ilə də fərqlənirlər.

### Mühafizə şəbəkəsi müasirləşir

Son illərdə ölkədə təhlükəsizlik sisteminin modernləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar strateji obyektlərin mühafizəsi sahəsinə də mühüm töhfələr verib. Maddi-texniki bazanın gücləndirilməsi, müasir təhlükəsizlik texnologiyalarının tətbiqi və kadr hazırlığının təkmilləşdirilməsi bu sektorda fəaliyyətin səmərəliliyini daha da artırıb. Dövlət tərəfindən təhlükəsizlik strukturlarının inkişafına göstərilən diqqət və qayğı agentliyin fəaliyyətində də özünü aydın şəkildə göstərib. Bu isə, ilk növbədə, ölkənin strateji infrastrukturunun daha etibarlı şəkildə qorunmasını şərtləndirib.

Azərbaycanda strateji obyektlərin mühafizəsi sahəsinin müəyyən qanun və normalar sistemi çərçivəsində formalaşması dövlət təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı aparılan sistemli siyasətin məntiqi nəticəsidir. Bu istiqamətdə mühüm addımlardan biri dövlətimizin başçısı tərəfindən imzalanan müvafiq sənədlər əsasında təhlükəsizlik strukturlarının fəaliyyətinin daha müasir və çevik modelə uyğunlaşdırılmasıdır.

Bu çərçivədə yaradılan və fəaliyyətini genişləndirən sözügedən agentlik ölkənin strateji əhəmiyyətli obyektlərinin mühafizəsini vahid sistem əsasında təşkil etməyə imkan yaradıb. Dövlət və iqtisadi təhlükəsizlik baxımından xüsusi önəm daşıyan obyektlərin mühafizəsini reallaşdırmaq və onların təhlükəsizlik səviyyəsini beynəlxalq standartlara uyğunlaşdırmaq qurumun qarşısında hər zaman strateji vəzifə kimi durub.

Prezident İlham Əliyevin müvafiq fərmanları ilə bu sahədə bir neçə mühüm istiqamət müəyyən edilib. Belə ki, strateji obyektlərin mühafizəsinin vahid dövlət siyasəti əsasında təşkil edilməsi, təhlükəsizlik sistemində müasir texnologiyaların tətbiq olunması, peşəkar kadr hazırlığının gücləndirilməsi, dövlət və özəl sektor arasında təhlükəsizlik əməkdaşlığının genişləndirilməsi daim diqqətdə saxlanılıb. Bütün bunların nəticəsində Azərbaycanın təhlükəsizlik sisteminin sürətli və davamlı inkişafına nail olunub.

Yeri gəlmişkən, onu da deyək ki, müasir dünyada strateji obyektlərin mühafizəsi fiziki təhlükəsizlik məsələsi olmaqla yanaşı, həm də kibertəhlükəsizlik, texnoloji nəzarət və operativ risk idarəetməsi ilə sıx bağlıdır. ABŞ, Avropa İttifaqı (Aİ) və bir sıra inkişaf etmiş ölkələrdə hər hansı bir böhran vəziyyətinə qarşı mübarizə aparan strukturun qorunması dövlət təhlükəsizliyinin prioritet istiqamətlərindən biridir. Məsələn, ABŞ-da bu sahədə fəaliyyət göstərən əsas qurumlardan biri Daxili Təhlükəsizlik Departamentidir. Bu qurum enerji sistemləri, nəqliyyat şəbəkələri, su təchizatı və digər həyati əhəmiyyətli infrastrukturların təhlükəsizliyinin koordinasiya edir.

Aİ-də isə kəskin və ya böhranlı vəziyyətin aradan qaldırılması ilə bağlı fəaliyyət göstərən infrastrukturların qorunması üzrə xüsusi proqramlar hazırlanıb



və üzv dövlətlər arasında koordinasiya mexanizmi yaradılıb. Bu modelin əsas xüsusiyyəti dövlət qurumları ilə özəl sektor arasında təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi olub. Azərbaycanın təhlükəsizlik sisteminin də bu qlobal tendensiyalara uyğun şəkildə inkişaf etdirilməsi qarşıya prioritet vəzifə kimi qoyulub. Bu məqsədlə də strateji obyektlərin mühafizəsi sahəsində müasir nəzarət sistemlərinin, elektron monitorinq və operativ təhlükəsizlik mexanizmlərinin tətbiqinə başlanılıb.

### Həyat arteriyalarının keşiyində

Azərbaycanın geoiqtisadi mövqeyi və enerji resursları ölkəmizi regionun əsas enerji mərkəzlərindən birinə çevirib. Bu baxımdan hökumət enerji infrastrukturlarının təhlükəsizliyinə dövlət təhlükəsizliyinin mühüm komponenti kimi hər zaman böyük diqqət yetirib. Məsələn, Xəzər hövzəsinin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasını gerçəkləşdirən əsas layihələrdən biri olan Bakı – Tbilisi – Ceyhan neft kəmərinin, eləcə də Avropanın enerji təminatında mühüm rol oynayan Cənub Qaz Dəhlizinin təhlükəsizliyi daim diqqətdə saxlanılıb. Bu cür iri enerji layihələrinin təhlükəsizliyi yalnız iqtisadi deyil, həm də siyasi və geostrateji məsələdir. Buna görə də respublikamızda boru kəmərləri, enerji terminalları və elektrik enerjisi infrastrukturunun potensial təhlükələrə qarşı mühafizəsinə prioritet vəzifə kimi yanaşılıb.

Azərbaycanın beynəlxalq iqtisadi və geosiyasi rolunu gücləndirən əsas amillərdən biri də ölkənin qlobal nəqliyyat və logistika sistemində strateji mövqeyidir. Bu baxımdan Avropa ilə Asiyanı birləşdirən və beynəlxalq logistika şəbəkəsində mühüm rol oynayan Orta Dəhliz də respublikamızın tranzit siyasətinin əsas sütunlarından birinə çevrilib. Bu dəhliz Çin, Mərkəzi Asiya ölkələri, Xəzər hövzəsi, Cənubi Qafqaz və Türkiyə vasitəsilə Avropaya uzanan multimodal logistika marşrutudur. Dəhliz üzrə daşımalar dəmir yolu, dəniz və avtomobil nəqliyyatının inteqrasiyası əsasında həyata keçirilir. Ümumilikdə, 8-10 min kilometr məsafəni əhatə edən bu marşrut Avropa ilə Asiya arasında yük daşımalarının müddətini 12-18 günə qədər azalda bilir ki, bu da ənənəvi dəniz marşrutları ilə müqayisədə xeyli sürətlidir. Məhz bu xüsusiyyətlər Orta Dəhlizi qlobal ticarət üçün sürətli və etibarlı alternativə çevirir.

Orta Dəhlizin ən mühüm hissələrindən biri məhz Azərbaycan ərazisindən keçir. Ölkəmiz bu marşrutda Xəzər dənizi üzərindən gələn yük axınlarının əsas logistika mərkəzi rolunu oynayır. Bu sistemin əsas elementlərindən biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər regionunun ən böyük logistika mərkəzlərindən biridir və dəhlizin qərb istiqamətinə çıxışını gerçəkləşdirir. Bundan əlavə, Avropa istiqamətinə yük daşımalarını təmin edən mühüm infrastruktur layihələrindən biri də Bakı–Tbilisi–Qars dəmir yoludur. Statistik göstəricilər də bu marşrutun əhəmiyyətinin sürətlə artdığını göstərir.

Ekspertlər hesab edirlər ki, belə iri tranzit layihələrinin həyata keçirilməsi yalnız infrastrukturun qurulması ilə məhdudlaşmır. Bu marşrutların sabit və təhlükəsiz fəaliyyəti üçün dövlətlərarası əməkdaşlıq, təhlükəsizlik xidmətləri arasında koordinasiya və logistika zəncirinin davamlılığını təmin edən mexanizmlər xüsusi diqqət çəkir. Azərbaycan isə bu marşrutun mərkəzində yerləşən əsas tranzit qovşağı kimi regionda logistika, enerji və nəqliyyat təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Məhz bu səbəbdən strateji obyektlərin mühafizəsi sistemi ölkənin nəqliyyat və enerji infrastrukturunun qorunmasında xüsusi əhəmiyyət kəsb edir.

Sözügedən agentliyin kollektivi məhz bu cür həyati əhəmiyyət daşıyan infrastrukturların təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Onların fəaliyyəti sayəsində respublikamızın enerji sistemi sabit və təhlükəsiz şəkildə fəaliyyət göstərir. Onu da xatırladaq ki, bu gün dünyada baş verən geosiyasi dəyişikliklər və texnoloji inkişaf təhlükəsizlik sistemləri qarşısında yeni tələblər qoyur.

Strateji obyektlərin mühafizəsi sahəsində çalışan əməkdaşların fəaliyyəti bəzən cəmiyyət üçün görünməz olsa da, onların xidmətinin əhəmiyyəti son dərəcə böyükdür. Çünki dövlətin iqtisadi sabitliyi, enerji təhlükəsizliyi və strateji layihələrin davamlı fəaliyyəti məhz bu sistemin etibarlı işləməsindən asılıdır. Onların peşəkarlığı və vətənpərvərliyi Azərbaycanın təhlükəsizlik sisteminin möhkəm dayaqlarından biri kimi ölkəmizin sabit inkişafına xidmət edir.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

# Regional savaş sərhəd tanımır

*Yaxın Şərqdəki gərginlik Aİ-də miqrasiya axını qorxusunu yenidən alovlandırıb*

**ABŞ, İsrail və İran arasında hərbi qarşıdurmalar Avropanın siyasi və sosial sabitliyini sınaq qarşısında qoyur. Avropa rəsmiləri hesab edirlər ki, regionda gərginliyin artması yeni miqrasiya dalğası yarada bilər və bu dalğa 2024-cü ildə qəbul edilən yeni miqrasiya sisteminin ilk ciddi imtahanı olacaq. Aİ son on ildə miqrasiya böhranının nəticələrini aradan qaldırmaq üçün müxtəlif mexanizmlər formalaşdırmağa çalışsa da, üzv dövlətlər arasında fikir ayrılığı, siyasi populizm və təhlükəsizlik narahatlıqları vahid siyasətin qurulmasını çətinləşdirib. Bu səbəbdən qəbul olunan yeni qaydaların ekstrimdə, xüsusilə müharibə şəraitində yaranan kütləvi köç fonunda necə işləyəcəyi məlum deyil.**



*Ekspert rəyi*



**Hüseyn SULTANLI,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin əməkdaşı**

2024-cü ildə Avropa İttifaqı tərəfindən qəbul edilmiş Miqrasiya və Sığınacaq Paktının həyata keçirilməsi prosesi Brüssel üçün növbəti ciddi daxili sınaq kimi qiymətləndirilir. Gələcəkdə yarana biləcək kütləvi miqrasiya dalğalarına qarşı birliyin yanaşmasını yeniləmək və gücləndirmək məqsədi daşıyan bu pakt "sərt, lakin ədalətli" model kimi təqdim olunmuşdu və miqrasiyanın Avropa üçün ortaq məsuliyyət olduğunu təmin etməyi hədəfləyirdi. Ama Aİ-nin əksər təşəbbüslərində olduğu kimi, paktın texniki baxımdan perspektivli olmasına baxmayaraq, siyasi dəstək qazana bilmədi. Bir sıra üzv dövlətlərin yanaşması xüsusilə fərqlənir. Məsələn, Macarıstanın Baş naziri Viktor Orban planı ölkəsinin əvvəldən rədd etdiyini açıq şəkildə bildirmişdi. Oxşar mövqe Polşada da müşahidə olunub. Rəsmi Varşava planın bəzi müddəalarına, xüsusilə Yaxın Şərqlə həmsərhəd və daha çox miqrasiya təzyiqi ilə üzləşən ölkələrdən miqrantların daha az təzyiq altında olan dövlətlərə köçürülməsi ideyasına etiraz edib.

Plan elan edildikdən sonra Avropa İttifaqı üzv dövlətlər üçün aydın icra mexanizmi müəyyənləşdirdi. Bu mexanizm iki illik keçid dövrünü nəzərdə tuturdu və bu müddət ərzində ölkələr miqrasiya qanunvericiliyini uyğunlaşdırmalı, yenilənmiş milli çərçivə sənədləri təqdim etməli idilər. Həmin sənədlərdə hər bir dövlətin mövcud mexanizmlərini paktda nəzərdə tutulan yeni qaydalarla necə uzlaşdıracağı göstərilməli idi. Lakin bu proses ciddi çətinliklərlə üzləşdi və Aİ miqyasında vahid razılıq hələ də əldə olunmayıb. Planın əleyhdarları tərəfindən irəli sürülən arqumentlər Avropa siyasətində Aİ-nin rolu və səlahiyyətləri ilə bağlı davam edən müzakirələri daha da gücləndirir, xüsusilə də Aİ tərəfindən qəbul edilən qaydalarla milli suverenlik arasındakı balans məsələsini. Məsələn, Macarıstan ardıcıl olaraq bildirib ki, miqrantların yerləşdirilməsi və kvotaların müəyyənləşdirilməsi yalnız milli səviyyədə həll olunmalıdır.

Avropa İttifaqının hazırkı miqrasiya siyasətini anlamaq üçün 2015-ci ildə baş verən qaçqın böhranına qısa nəzər yetirmək lazımdır. Həmin vaxt Suriya müharibəsi, İraq və Əfqanıstandakı qeyri-sabitlik, həmçinin Afrikanın bir sıra ölkələrində davam edən humanitar böhran nəticəsində "qoca qitə"yə bir milyondan çox insan üz tutmuş, proses Aİ daxilində həm siyasi, həm də institusional böhran yaratmışdı. Əsas problem ondan ibarət idi ki, mövcud qaydalar miqrantların qəbuluna görə məsuliyyəti əsasən sərhəd ölkələrinin üzərinə atırdı. Elə bu səbəbdən Yunanıstan, İtaliya və İspaniya kimi dövlətlər böyük yük altında qaldı, digər üzv ölkələr isə miqrantların bölüşdürülməsi məsələsində razılığa gələ bilmədi. Bu vəziyyət Avropa daxilində həmrəyliyin zəiflədiyini göstərdi və milli maraqların ümumi siyasətdən üstün tutulduğunu ortaya qoydu. Həmin böhrandan sonra Avropa İttifaqı miqrasiya sistemini dəyişmək üçün bir neçə dəfə təşəbbüs göstərsə də, siyasi razılıq əldə edilmədi.

Ona görə də yeni Miqrasiya və Sığınacaq Paktının qəbul olunması uzun illərin müzakirələrinin nəticəsi kimi qiymətləndirilir. 2024-cü ildə qəbul edilən yeni miqrasiya sistemi Avropa İttifaqının bu sahədə genişmiqyaslı islahatlarından biri hesab olunur. Paktın əsas məqsədi üzv dövlətlər arasında məsuliyyət bölgüsünü daha ədalətli şəkildə qurmaq, sərhədlərdə prosedurları sürətləndirmək və kütləvi miqrasiya hallarında vahid böhran mexanizmi tətbiq etməkdir. Yeni qaydalara görə, Aİ-yə daxil olan miqrantlar əvvəlcə sərhəd zonalarında qeydiyyata alınmalı, onların sığınacaq müraciətləri sürətləndirilmiş prosedurla araşdırılmalı və qəbul edilməyən şəxslər daha tez geri qaytarılmalıdır. Bununla yanaşı, üzv dövlətlər miqrantların yerləşdirilməsi məsələsində seçim edə bilər. Yəni onlar ya müəyyən sayda insan qəbul etməli, ya da maliyyə dəstəyi göstərməlidir. Mexanizm nəzəri baxımdan həmrəyliyi təmin etməyə yönəlsə də, bir çox ekspert hesab edir ki, real böhran zamanı sistemin işləməsi çətin olacaq. Çünki siyasi iradə və ictimai rəy proseslərə çox vaxt hüquqi mexanizmlərdən daha güclü təsir göstərir.

ABŞ/İsrail–İran qarşıdurması populizm məsələsini də gündəmə gətirib. Məlumdur ki, bir çox ölkədə sağçı və populist partiyalar məhz miqrasiya mövzusu üzərindən güclənib. Onlar sərt sərhəd siyasətini, sığınacaq qaydalarının məhdudlaşdırılmasını və milli suverenliyin qorunmasını tələb edir. Eyni tendensiya yeni miqrasiya paktının tətbiqini daha da çətinləşdirir. Çünki hökumətlər daxili siyasi təzyiq altında qalaraq Avropa səviyyəsində razılaşdırılmış qərarları həyata keçirməkdə tərəddüd edə bilər. Əgər Yaxın Şərqdə müharibə nəticəsində böyük miqrasiya dalğası yaranarsa, populist qüvvələrin daha da güclənəcəyi və vəziyyətin Aİ daxilində parçalanmanı artıracağı ehtimal olunur. Üstəlik, Avropa İttifaqı (Aİ) bir tərəfdən humanitar dəyərlərə sadiq qalmalı, digər tərəfdən isə təhlükəsizlik risklərini nəzərə almalıdır. Nəzərə alsaq ki, son illərdə terror hücumları və qeyri-qanuni miqrasiya ilə bağlı problemlər də ictimai rəydə ciddi narahatlıq yaradıb, yeni qaydaların məhz bu balansı qorumağa yönəldiyini söyləmək olar. Sərhədlərdə daha sərt nəzarət, biometrik qeydiyyat və sürətli yoxlama prosedurları təhlükəsizlik risklərini azaltmaq məqsədi daşıyır.

Yeri gəlmişkən, yeni miqrasiya sisteminin qarşısında duran ən böyük problemlərdən biri üzv dövlətlər arasında etimadın zəif olmasıdır. Məsələn, Şərqi Avropa ölkələri məcburi kvotalara qarşı çıxır, cənub ölkələri isə daha çox dəstək tələb edir. Bu fikir ayrılıqları göstərir ki, Aİ-nin miqrasiya siyasəti sadəcə hüquqi sənədlərlə həll edilə bilməz. Əgər siyasi həmrəylik mövcud olmazsa, ən mükəmməl mexanizm belə böhran zamanı işləməyə bilər. Yaxın Şərqdə müharibə nəticəsində yaranacaq mümkün miqrasiya dalğası bu etimad problemini daha da kəskinləşdirə bilər. Yəni Miqrasiya və Sığınacaq Paktı nəzəri olaraq Aİ-ni gələcək böhranlara hazırlamalıdır. Lakin sistemin real şəraitdə necə işləyəcəyi yalnız böyük miqrasiya dalğası zamanı məlum olacaq.

Sonda bu qənaətə gəlmək olar ki, Yaxın Şərqdə davam edən hərbi qarşıdurmalar Avropa üçün həm də daxili sabitlik məsələsidir. Yeni miqrasiya sistemi uzun illər davam edən mübahisələrin nəticəsi olsa da, onun real effektivliyi yalnız böhran şəraitində müəyyən olunacaq. Maraqlıdır, üzv dövlətlər ümumi qaydalara sadiq qalaraq kollektiv məsuliyyəti bölüşə biləcəkmi, yoxsa milli maraqlar yenidən üstün gələcək? Əgər yeni qaydalar işləsə, Avropa inteqrasiyasının gücləndiyini göstərəcək. Əks halda isə, miqrasiya böhranı yenidən siyasi parçalanmaya səbəb ola və Avropa layihəsinin gələcəyini sual altına qoya bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***



# Azərbaycan MN Türkiyə ərazisinə raket hücumunu qətiyyətlə pisləyir

**Qardaş Türkiyənin ərazisinə qarşı növbəti raket buraxılışını qətiyyətlə pisləyirik. Bu, suverenliyin və ərazi bütövlüyünün kobud şəkildə pozulmasıdır.**

Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin yaydığı açıqlamada bildirilib.

"Bu kimi hərəkətlər qəbuledilməz eskalasiyadır və regional sabitliyə birbaşa təhlükədir. Qardaş Türkiyə ilə həmrəyliyimizi bir daha bəyan edirik", - deyə nazirliyin açıqlamasında vurğulanıb.

***XQ***

# Qərbi Azərbaycana dair arxiv sənədləri tədqiq edilir

**Qərbi Azərbaycanla bağlı tarixi, etnoqrafik və demoqrafik reallıqların elmi əsaslarla araşdırılması istiqamətində aparılan tədqiqatlar son dövrdə yeni mərhələyə qədəm qoyub. Bu tədqiqatlar deportasiya siyasətinin nəticələrinin sənədləşdirilməsi, tarixi yaddaşın bərpası və faktların sistemli şəkildə elmi dövriyyəyə daxil edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.**



AMEA-nın İctimai Elmlər Bölməsinin elmi-tədqiqat müəssisələrinin Qərbi Azərbaycan mövzusu üzrə işlər "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həyata keçirilir. Eyni zamanda, Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcması ilə görüşündə verilən tapşırıq və tövsiyələr əsasında bu istiqamətdə görülən işlər barədə əhatəli hesabat hazırlanaraq müvafiq qurumlara təqdim edilib.

AMEA-dan verilən məlumata görə, tədqiqatlar çərçivəsində Qərbi Azərbaycan tarixinin müxtəlif mərhələlərini əhatə edən elmi nəşrlər hazırlanıb, tarixi faktlar və arxiv materialları sistemləşdirilib. Xüsusilə deportasiya prosesləri, toponimlərin dəyişdirilməsi və mədəni irsin məhv edilməsi ilə bağlı faktlar elmi sənədlər əsasında araşdırılıb və nəşrlərdə əksini tapıb.

Bu istiqamətdə aparılan işlərin mühüm hissəsini arxiv araşdırmaları təşkil edir. 1948–1953 və 1988–1991-ci illərdə Qərbi Azərbaycan ərazisindən azərbaycanlı əhalinin deportasiyası ilə bağlı ölkə arxivlərindən 800-dən artıq sənəd toplanılaraq elektron məlumat bazasına daxil edilib. Bu materiallar deportasiya siyasətinin miqyasının və sistemli xarakterinin elmi şəkildə sübut edilməsinə imkan yaradır.

Eyni zamanda, Qərbi Azərbaycan mövzusu üzrə onlarla elmi məqalə dərc olunub, beynəlxalq və respublika səviyyəli konfranslarda məruzələr təqdim edilib, elmi-tədqiqat işləri aparılıb. Aparılan araşdırmalar kütləvi informasiya vasitələri ilə ictimaiyyətə çatdırılıb, televiziya proqramlarında analitik müzakirələr təşkil olunub.

Qeyd edək ki, Qərbi Azərbaycanla bağlı aparılan bu tədqiqatlar tarixi ədalətin bərpası, milli yaddaşın qorunması və gələcək nəsillərə faktlara əsaslanan tarixin təqdim olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Yaxın Şərq böhranı dünyaya ağrı yaşadır

*Qardaş Türkiyə yenidən hədəfə alınıb*

**Yaxın Şərqdə cərəyan edən hadisələr dünya mediasının diqqət mərkəzindədir. Bu dəfə də nüfuzlu informasiya mənbələrinə istinad etməklə martın 13-də ABŞ/İsrail–İran hərbi qarşıdurmasında müşahidə olunan son hadisələri və ona beynəlxalq reaksiyanı oxucuların diqqətinə çatdırırıq.**

**"Times of Israel":** İsrailin Baş naziri Benyamin Netanyahu regionda genişlənən qarşıdurma fonunda ilk dəfə mətbuat konfransı keçirib. İranda rejim dəyişikliyi ehtimalına toxunan Netanyahu bildirib: "Biz bunun üçün ən uyğun şəraiti yaradacağıq. Dünən etdiyimiz kimi, bu gün də hava zərbələri endiririk ki, İran xalqına küçələrə çıxmaq üçün lazım olan imkan yaradılsın". Baş nazir, həmçinin İsrailin hücumları nəticəsində İranın bir neçə nüvə aliminin həlak olduğunu vurğulayıb. O, İran üçün "azadlığa aparan yeni bir yolun yaxınlaşdığını" və ölkənin gələcəyinin vətəndaşlarından asılı olduğunu bildirib.

**"Fox News":** ABŞ lideri Donald Tramp "Fox News"-a müsahibəsində bildirib ki, İkinci Dünya müharibəsindən bəri heç bir ölkə İran qədər hücuma məruz qalmayıb: "Biz onların raketlərinin əksəriyyətini, bir çox dronlarını, raket və dron istehsalı müəssisələrini məhv etdik. Biz onları İkinci Dünya müharibəsindən bəri heç kimin yaşamadığı bir güclə vururuq".

**"Oman News Agency":** Omanın Sohar vilayətində pilotsuz uçuş aparatının düşməsi nəticəsində iki nəfər həlak olub. Bundan əlavə, bir neçə nəfər yaralanıb. Mənbənin məlumatına görə, PUA Əl-Əvahi sənaye rayonuna düşüb. Həlak olanlar xarici vətəndaşlar olub. Daha bir pilotsuz uçuş aparatı da Sohar vilayətində vurulub.

**"CNN":** ABŞ Mərkəzi Komandanlığı İrana qarşı hərbi əməliyyat zamanı istifadə etdiyi "KC-135" göydə yanacaqdolduran təyyarənin İraqın hava məkanında qəzaya uğradığını açıqlayıb. Bildirilib ki, Mərkəzi Komandanlıq KC-135 təyyarəsinin itkisindən xəbərdardır: "Hadisə "Epik Qəzəb" əməliyyatı zamanı İraqın hava məkanında baş verib və xilasetmə işlərinə iki təyyarə cəlb olunub. Təyyarələrdən biri İraqın qərbində qəzaya uğrayıb, digəri isə təhlükəsiz yerə eniş edib".

**"Haber Global":** Donald Tramp sosial media hesabında paylaşdığı açıqlamada İrana qarşı yeni təhdidlər səsləndirib. İranın donanmasının və hava qüvvələrinin məhv edildiyini iddia edən ABŞ lideri Tehranın əlində olan raketlərin, pilotsuz uçuş aparatlarının (PUA) və digər vasitələrin məhv edilməsinin davam etdirildiyini bildirib: "Misli görünməmiş silah gücümüz, limitsiz sursatımız və kifayət qədər vaxtımız var. Bu gün bu ağılsız murdarların başına nələrin gələcəyini izləyin". İranın 47 ildir bütün dünyada günahsız insanları öldürdüyünü iddia edən Tramp bildirib ki, "indi onları öldürənin özü olduğunu düşünür və bundan böyük qürur duyur".



**"Israel Defence Forces":** İsrail Tehran, Şiraz və Əhvazdakı bir sıra hərbi obyektlərə, o cümlədən ballistik raket istehsalı və saxlanması üzrə yeraltı anbara bir neçə dəfə aviazərbələr endirib. Məlumata görə, Şirazdakı yeraltı obyekt İran tərəfindən İsrailə doğru atılması nəzərdə tutulan ballistik raketlərin istehsalı və saxlanması üçün istifadə edilib. İsrail hərbçiləri Tehranda İranın HHM sisteminə məxsus bir neçə obyektə, o cümlədən əsas bazaya, eləcə də İranın müxtəlif silahların, o cümlədən HHM sistemləri və ballistik raket komponentlərinin istehsalı üçün istifadə etdiyi obyektlərə zərbələr endirib.

**"Mehr":** Tehranda "Müqəddəs Qüds" günü yürüşünün keçirildiyi ərazidə partlayış baş verib. Həmin vaxt Tehran sakinləri şəhərin əsas küçələrində toplaşaraq İran bayraqları ilə Tehran Universiteti istiqamətində yürüş keçiriblər. Bildirilib ki, İsrail ordusu Tehranda insanların etiraz aksiyası üçün toplandığı əraziyə təxliyə xəbərdarlığı edib.

**"WANA News Agency":** ABŞ və İsrailin İran ərazisinə hücumları nəticəsində 24,5 mindən çox mülki obyekt, o cümlədən 19,77 min yaşayış binası zədələnib. Bu barədə İran Qızıl Aypara Cəmiyyətinin rəhbəri Hüseyn Kolivand bildirib. Onun sözlərinə görə, 4,5 mindən çox ticarət obyektinə ziyan dəyib. O, sözlərinə əlavə edib ki, hücumlar nəticəsində 154 nəfər həlak olub, 195 müəllim və şagird yaralanıb, 69 məktəb isə zədələnib.

**"Türkiyə Milli Müdafiə Nazirliyi":** İrandan növbəti ballistik raketin atıldığını təsdiqləyib. Məlumatda bildirilib ki, İrandan Türkiyənin hava məkanına daxil olan bir ballistik raket Şərqi Aralıq dənizində yerləşən NATO hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilib: "Ölkəmizin ərazisinə və hava məkanına yönəlmiş hər cür təhdidə qarşı bütün lazımi tədbirlər qətiyyətlə və tərəddüdsüz şəkildə görülür, hadisənin bütün aspektləri ilə aydınlaşdırılması üçün müvafiq ölkə ilə danışıqlar aparılır. Milli təhlükəsizliyimiz prioritet olmaqla bölgədəki bütün hadisələr diqqətlə izlənilir və qiymətləndirilir".

**"Reuters":** Prezident Donald Tramp bildirib ki, zərurət yaranarsa, ABŞ gəmilərin Hörmüz boğazından keçidini müşayiət edəcək. Neft tankerələrinin strateji əhəmiyyət daşıyan boğazdan keçməsinə yardım edib-etməyəcəyi barədə suala cavab verən Tramp deyib: "Əgər lazım olsa, bunu edərik. Amma ümid edirəm ki, hər şey yaxşı gedəcək. Görək nə baş verəcək". O, əlavə detalları açıqlamayıb. ABŞ lideri, eyni zamanda, İrana ağır zərbələr endirməyə davam edəcəyini vurğulayıb.

Beynəlxalq medianın yayımladığı xəbərlərdən göründüyü kimi, tərəflər qarşıdurmanı hələlik dayandırmaq niyyətində deyil. Mövcud vəziyyət göstərir ki, gərginlik yaxın günlərdə səngiməkdən daha çox, yeni mərhələyə keçmək ehtimalı ilə xarakterizə olunur. Hələlik hadisələrin sonrakı inkişafı qeyri-müəyyən olaraq qalır.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 48 (31017) 14 mart 2026-cı il, şənbə

# MDU Məmmədyarovlar Şahmat Məktəbi ilə əməkdaşlıq qurur

**Mingəçevir Dövlət Universiteti ilə ölkəmizi beynəlxalq və yerli turnirlərdə layiqincə təmsil edən, Azərbaycan şahmatının inkişafına mühüm töhfələr vermiş Məmmədyarovlar Şahmat Məktəbi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.**



Memorandumun imzalanması münasibətilə Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminovun rəhbərlik etdiyi heyət Məmmədyarovlar Şahmat Məktəbində olub. Şəhriyar Məmmədyarov, Zeynəb Məmmədyarova və Türkan Məmmədyarova ilə görüşdə tərəflər arasında əməkdaşlıq qurulması və əlaqələrin perspektiv istiqamətləri müzakirə olunub.

İmzalanan memorandumda Mingəçevir Dövlət Universitetinin nəzdində tələbələr və gənclər üçün şahmat klubunun yaradılması, regionda açıq şahmat oyunlarının və intellektual yarışların təşkili, peşəkar məşqçilərin iştirakı ilə ustad dərslərinin və təlimlərin keçirilməsi, məktəblilər üçün açıq şahmat günlərinin təşkil olunması, hər il ümummilli lider Heydər Əliyevin doğum günü ərəfəsində regional və ya respublika səviyyəli şahmat turnirlərinin təşkili müxtəlif səviyyəli regional şahmat turnirlərinin keçirilməsi kimi təşəbbüslər əksini tapıb.



Bundan əlavə, universitetin elmi potensialından istifadə etməklə "Süni intellekt və şahmat üzrə tədqiqat laboratoriyası" yaradılması, şahmat oyunlarının süni intellekt əsaslı proqramlar vasitəsilə analizi, data əsaslı oyun strategiyalarının tədqiqi, eləcə də robotika və süni intellekt dərslərində şahmat modellərinin tətbiqi kimi innovativ istiqamətlər də əməkdaşlığın mühüm tərkib hissəsi kimi qeyd olunub. Qeyd edilib ki, qurulan əməkdaşlıq regionda şahmatın inkişafına, gənclərin intellektual potensialının gücləndirilməsinə və universitet mühitində intellektual idman mədəniyyətinin daha da yayılmasına da töhfə verəcək.

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

## İDMAN

### FİBA Çempionlar Kubokunda ilk qələbə



**Bu gün FİBA Çempionlar Kubokunda iştirak edən qadınlardan ibarət 3x3 millimiz B qrupunda ilk oyunlarını keçirib. Qızlarımız birinci qrup oyununda Kanada seçməsinə 10:16 hesabı ilə məğlub olsa da, ikinci görüşdə ev sahibi Tailand komandasına 21:8 hesabı ilə qalib gəliblər. Millimizin qrupda sonuncu oyunu bu gün Bakı vaxtı ilə saat 12:30-da İspaniya yığmasına qarşı olacaq.**

Qeyd edək ki, turnirin qalibi FIBA 3x3 Çempionlar Kuboku 2027, FIBA 3x3 Dünya Kuboku 2027 və 2028-ci il Yay Olimpiya Oyunlarına vəsiqə verən Olimpiya Təsnifat turnirində iştirak hüququ qazanacaq.

### Bakıda Kanoe Assosiasiyasının ofisi açıldı



**Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası "Paddle Europe" (Avropa Kanoe Assosiasiyası - PEU) ilə çoxşaxəli əməkdaşlıq qurub. Azərbaycanın strateji coğrafi mövqeyi, inkişafyönümlü fəaliyyətlərə ev sahibliyi etmək imkanları, eləcə də "Paddle Europe" (Avropa Kanoe Assosiasiyası - PEU) ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası arasındakı mövcud yüksək əməkdaşlıq imkanları nəzərə alınaraq tərəflər arasında qarşılıqlı əməkdaşlıq haqqında sənəd imzalanıb.**

Gənclər və idman naziri Fərid Qayıbov, Beynəlxalq Kanoe Federasiyasının Prezidenti Tomas Konyetsko, Avropa Kanoe Assosiasiyasının prezidenti Jan Zunqrana və Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının rəhbəri Vüqar Əhmədov mərasimində iştirak ediblər. Sənədə əsasən tərəflər Bakıda qurumun ofisini yaratmaqla Şərqi Avropa, eləcə də inkişaf etməkdə olan ölkələrə dəstək və kanoe idman növlərinin inkişafı, həmçinin Sərsəng su anbarında beynəlxalq yarışların, təlim-məşq toplanışlarının təşkili sahəsində əməkdaşlıq edəcəklər.

Həmçinin gələcəkdə regionda təlim imkanlarını artıracaq infrastruktur layihələri nəzərdən keçirilə bilər. Tərəflər Azərbaycanın coğrafi mövqeyini nəzərə alaraq, Avropa və Asiyada kanoe idman icmaları arasında əlaqələrin gücləndirilməsi imkanlarını araşdıracaq. Bu əməkdaşlıq birgə təlimlər, məşqçi və liderlik təhsili, tədbirlərdə iştirak və qarşılıqlı uyğun sahələrin inkişafını əhatə edəcək.

### Misli Premyer Liqasında XXIV tur



**Dünən Misli Premyer Liqasında XXIV tura start verilib.**

İlk olaraq "Araz-Naxçıvan" Bakıdakı "Liv Bona Dea Arena"da "Karvan-Yevlax"la üz-üzə gəlib. Oyun Naxçıvan təmsilçisinin qələbəsi ilə başa çatıb – 2-1. Bu qələbədən sonra Naxçıvan təmsilçisi 36 xalla 5-ci, Yevlax klubu isə 8 xalla sonuncu – 12-ci pillədə qərarlaşıb.

Günün ikinci matçında "Şamaxı" "Sumqayıt"ın qonağı olub. Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda keçirilən qarşılaşma qonaqların qələbəsi ilə başa çatıb – 1:0.

Sumqayıtlılar 32 xalla 6-cı, qonaqlar 30 xalla 8-ci sıradadır.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Ələkbər Salahzadə, İsa İsmayılzadə – 85*

# Poeziyamızın "əkiz" qardaşları

## *Eyni tale onları sənətdə "qoşa qanad"a çevirmişdi*

**Onlar "gündaş" olaraq dünyaya gələndə İkinci Dünya müharibəsi gedirdi. 2 ay sonra faşist Almaniyası SSRİ-yə hücum edəcəkdi və hər ikisinin məsum uşaqlığının 4 ili "itəcək", onlar dünyaya dəhşətdən, heyrətdən böyümüş gözlərlə baxacaqdılar. Sonra İsa İsmayılzadə "Mənim oyuncağım olmayıb heç vaxt", Ələkbər Salahzadə isə "Dava havasında yaşa dolduq" – deyəcəkdilər. İlkin uşaqlıq dövründə müharibənin köynəyindən keçdikləri üçün boyları da bəstə qalacaqdı.**





Amma Ələkbər "Boy" adlı şeirində boyunun balaca olmasından gileylənsə də, o və yaxın dostu İsa yaşıdları ilə müqayisədə ədəbi yaradıcılıq yolunda erkən "boy atdılar". Biri Qarayazıda, o biri Qubada doğulmuşdu. Gəlib Bakıda – ADU-nun filologiya fakültəsində eyni qrupda oxumuşdular. Ömürlük dost olmuşdular. İlk dəfə "Azərbaycan gəncləri" qəzetinin 1961-ci il 19 iyul tarixli sayında birgə çap olundular: Ələkbər Salahzadə "Qapılar", İsa İsmayılzadə isə "Poçt qutusu" şeiri ilə diqqət çəkdilər. Onların ilk kitabları – "Beş yarpaq" və "Ulduzların ad günü" də eyni vaxtda işıq üzü gördü.

Daha sonra Ələkbər Salahzadənin bir-birinin ardınca "Od heykəli", "Gözlər baxır dünyaya" , "Xatirə çiçəyi", "Od odası" və sair kitabları çap olundu. Şeir və poemaları öz orijinallığı, bənzərsizliyi ilə diqqəti cəlb etdi. İsa İsmayılzadənin isə "İşıqlı yarpaqlar", "Torpaq nəğməsi", "Ömrümdən keçən qatar", "Salam, Yer kürəsi", "Anamla söhbət" və başqa kitabları oxucuların maraq orbitində yer aldı və təqdirini qazandı:

***Mən böldüm bu dünyanı;***
***yaxşısını seçdim,***
***ayırdım yamanından.***
***Qoymadım əyrisini***
***düz bir ayrısının keçə yanından.***

Onların uğur yolu heç də hamar olmayıb. Ədəbi tənqid bəzən şeirlərini qərəzlə təhlil edib. Amma müdafiəçiləri, qayğıkeşləri də olub. Mərhum ədəbiyyatşünas, professor Yaşar Qarayev bir məqaləsində yazmışdı: "60-cı illərin narahat üslub axtarışlarında formalaşan və artıq poetik fərdiyyətlər kimi sabitləşməkdə olan imzalardan ikisi, adətən, yanaşı çəkilir: Ələkbər Salahzadə və İsa İsmayılzadə. Bugünkü poeziyada maraqlı bir poetik üslubu bu iki imzanın poetik vəhdəti daha qabarıq ifadə edir". Xalq şairi Rəsul Rza da onları danılmaz istedadlarına görə daim müdafiə edib.

Xalq yazıçısı Anar isə yaşıdların yaradıcılıq orijinallığını, ruh yaxınlığını xüsusi vurğulayaraq yazıb: "Ələkbər Salahzadə şeiri qurur, İsa İsmayılzadə rəsm edir. Onların yaradıcılığında sükutu eşitmək qabiliyyəti, hamının gördüyünü yeni gözlə görmək və bizə yeni baxışla göstərmək bacarığı, üzdə olan şeylərin dərinliklərinə, mahiyyətinə varıb yeni mənalarını açmaq, duymaq və duydurmaq məharəti güclüdür":

***Mənim qanadlarım olub bir zaman,***
***Bir arzu qanadı – sevinc qanadı,***
***Bir ümid qanadı – sevgi qanadı,***
***Bir xəyal qanadı – uçmaq inadı.***
***Elə bilmişəm ki, dünya mənimdir...***

Onların "qoşa qanad" adlanması gerçəyini Ələkbər Salahzadə hər zaman fərəhlə etiraf edirdi. İsa İsmayılzadə isə qeydlərində bildirirdi ki, Ələkbərlə onun şeirləri uzun müddət həmişə yanaşı – qəzetlərin eyni səhifələrində, jurnalların eyni nömrələrində – çap olunub, tənqidçilərin məqalələrində həmişə adları qoşa çəkilib: təriflənəndə də, tənqid olunanda da".

Ələkbər, sanki, bu sarsılmaz dostluğu nəzərdə tutub bu kitabını "Yerimiz bir, göyümüz bir" adlandırmışdı, İsa isə ilk kitabının adını "Ulduzların ad günü" qoymaqla eyni ildə, ayda və ildə doğulduğu dostuna işarə vurmuşdu...

85 yaşı tamam olan unudulmaz şairləri ruh və tale yaxınlığı birləşdirir. "Bir xurmayı sel götürüb apardı baxışımı" – deyən Ələkbər Salahzadə də, "Gözləyin, dünyaya qayıtmağım var" – deyən İsa İsmayılzadə də poeziyasevərlərin ürəyində yaşayır.

*Əli NƏCƏFXANLI*
*XQ*

## HAVA

### Bakıda yağmursuz, rayonlarda yağış, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-qərb küləyi səhər cənub-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 2-5, gündüz 8-13 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunu, nisbi rütubət isə gecə 75-80, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin səhər və axşam bəzi şimal və qərb rayonlarında arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 2-6, gündüz 9-14 isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

***✓ Xasiyev Vüqar Bəybala oğlunun idarə etdiyi "NİSSAN SUNNY" SEDAN markalı minik avtomobilinin BA 296298 seriyalı qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.***

***✓ 2022-ci ildə Bakı Biznes Universiteti tərəfindən Yunisli Aytac Bakir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.***

***✓ Astara rayonunun Siyaku kənd sakini Yüzbaşova (Mahmudova) Elnaz Tehrab qızına məxsus nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi (seriya nömrəsi AD229683) itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

AMEA-nın nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin kollektivi qurumun baş direktoru, AMEA-nın müxbir üzvü, professor Qurban Yetirmişliyə bacısı

**TƏRLAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Hacı Övsət Həmidov, Ehtiram Miriyev, Namaz Əhmədov və İlqar Rüstəmov Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasova atası

**BƏXTİYAR ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2958
SİFARİŞ 351
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00